**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Dünya iqtisadiyyatının təkamülü prosesi və beynəlxalq iqtisadi əlaqələrin müasir meylləri”

**mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**NAMAZOVA NƏRMİN NATİQ**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh oğlu**

**__________________________ imza**

**“____” _______________ 20__-ci il**

**“Dünya iqtisadiyyatının təkamülü prosesi və beynəlxalq iqtisadi əlaqələrin müasir meylləri”**

**mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:** 060401- Dünya iqtisadiyyatı

**İxtisaslaşma:** Beynəlxalq maliyyə və valyuta-kredit münasibətləri

**Qrup:** 872


**Magistrant**
**Namazova Nərmin Natiq qızı**
**_______________________ imza**

**Elmi rəhbər**
**i.ü.f.d.,dos. Sərdarova Sevda Yusif qızı**
**_____________________imza**

**Proqram rəhbəri**
**i.ü.f.d.,dos Nəcəfova K.A.**
**__________________________ imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi oğlu**
**______________________imza**


**BAKI – 2020**

## Elm andı

Mən, Namazova Nərmin Natiq qızı and içirəm ki, “Dünya iqtisadiyyatının təkamülü prosesi və beynəlxalq iqtisadi əlaqələrin müasir meylləri” mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

# DÜNYA İQTİSADİYYATININ TƏKAMÜLÜ PROSESİ VƏ BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN MÜASİR MEYLLƏRİ


## XÜLASƏ

**Tədqiqatın aktuallığı: Tədqiqat dünya iqtisadiyyatının quruluşu, yaranması, dünya ölkələri və iqtisadi durumları, beynəlxalq iqtisadi əlaqələrin tədqiq edilməsinə həsr edilmişdir. Tədqiqat müasir dövrün aktual məsələlərini özündə təcəssüm etdirməklə, tədqiq edilməsi olduqca vacib məsələləri özündə cəmləşdirmişdir.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi dünya iqtisadiyyatının formalaşması, beynəlxalq iqtisadi əlaqələrin yaranması zəruriliyi, mövcud durumu, ölkələrin dünya iqtisadiyyatındakı yeri, beynəlxalq təşkilatların bu istiqamətdə rolu, Azərbaycanın müasir dövrdə beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyinin təhlili və digər bu məsələlərlə bağlı araşdırmanın reallaşdırılmasından ibarətdir. Bu məqsədlərdən irəli gələn vəzifələr qarşıya qoyulmuş və müvafiq təhlillər aparılmışdır.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı istifadə edilmiş metodlardan analiz-sintez, tarixi, qrafik, induksiya-deduksiya, abstraktlaşdırma metodlarını qeyd etmək olar.**

**Tədqiqatın informasiya bazası: Tədqiqatın informasiya bazası kimi yerli və xarici iqtisadi ədəbiyyatlardan, elmi tədqiqatlardan, statistik göstəricilərdən, dünya ölkələri barədə statistik göstəriciləri özündə əks etdirən müxtəlif saytlardan istifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat işinin aparılması zamanı bir sıra məhdudiyyətlərin olması labüd haldır.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Tədqiqatın qeyd edilən kateqoriyasına müasir dövrdə maliyyə texnologiyalarının daha da təkmilləşdirilməsinin, Azərbaycanın ixracının stimullaşdırılması məqsədilə, “Yaşıl Dəhliz”, “Made in Azerbaijan” brendinin və s. yaradacağı üstünlüklərin şərhini və bu sahələrə diqqətin daha da artırılmasının əhəmiyyətini qeyd etmək olar.**

**Nəticələrin istifadə oluna biləcəyi sahələr: Tədqiqatın tətbiq olunacağı sahələr kimi beynəlxalq iqtisadi əlaqələrin birbaşa və ya bilavasitə əlaqəli sahələrinin və dünya iqtisadiyyatının müxtəlif sektorlarının araşdırılması zamanı toplanılmış məlumatları müəyyən nəzəri tədqiqi elmi baza kimi və mühazirələrin hazırlanmasında ədəbiyyat mənbəyi kimi istifadəsini qeyd etmək olar.**



**Açar sözlər: beynəlxalq iqtisadi əlaqələr, dünya iqtisadiyyatı, dünya ölkələri**

# THE EVOLUTION OF WORLD ECONOMY AND MODERN TENDENCIES OF İNTERNATIONAL ECONOMIC RELATIONS

## SUMMARY

**The actuality of the subject: The dissertation is dedicated to the study of the structure and emergence of the world economy, the countries of the world and economic situations, international economic relations. The dissertation embodies current issues of the modern era, extremely important issues to be investigated.**

**Purpose and tasks of the research: The purpose of research is to investigate the formation of the world economy, the necessity of international economic relations the current situations, the place of countries in the world economy, analysis of Azerbaijan's position in the system of international relations and etc.**

**Used research methods: Various methods were used during the research. It includes historical, abstraction, analysis-synthesis and graphics.**

**The information base of the research: As research database, the system of international economic relations with countries and international economic organizations, local and foreign economic literature and etc.**

**Restrictions of research: It is unavoidable to have limitations in conducting research.**

**The novelty and practical results of investigation: This category of research includes the importance of further improving financial technologies in modern times, the benefits of the "Green Corridor" and "Made in Azerbaijan" brands in order to stimulate Azerbaijan's exports, and need to pay more attention to these areas.**

**Scientific-practical significance of results: Stages of development, conditions and manifestations of the world economy up to the present time, the role of international economic organizations and world countries in modern times, mechanisms of influence, Azerbaijan's position of international economic relations were assessed.**

**Keywords: international economic relations, world economy, world countries.**

## ƏSAS İXTİSARLARIN SİYAHISI

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **Aİ** | Avropa İttifaqı |
| **BƏƏ** | Birləşmiş Ərəb Əmirliyi |
| **BƏB** | Beynəlxalq Əmək Bölgüsü |
| **BCK** | Böyük coğrafi kəşflər |
| **BXİ** | Birbaşa xarici investisiyalar |
| **BİƏ** | Beynəlxalq iqtisadi əlaqələr |
| **BİM** | Beynəlxalq iqtisadi münasibətlər |
| **BVF** | Beynəlxalq Valyuta Fondu |
| **ÇXR** | Çin Xalq Respublikası |
| **DB** | Dünya Bankı |
| **ETT** | Elmi-Texniki Tərəqqi |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkələr |
| **İEÖ** | İnkişaf etmiş ölkələr |
| **LA** | Latın Amerikası |
| **NAFTA** | Şimali Amerika Azad Ticarət Assossasiyası |
| **SSRİ** | Sovet Sosialist Respublikaları İttifaqı |
| **TMB** | Trasmilli banklar |
| **TMK** | Transmilli korporasiyalar |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMM** | Ümumi Milli Məhsul |

## MÜNDƏRİCAT


| | | |
|---|---|---|
| | **GİRİŞ.........................................................................................................** | **8** |
| **I FƏSİL.** | **DÜNYA İQTİSADİYYATININ TƏKAMÜL PROSESİ, FORMALAŞMASI VƏ İNKİŞAF MEXANİZMİ** | 13 |
| 1.1. | Dünya iqtisadiyyatının meydana gəlməsi, təkamülü dövrünə dair ilkin baxışlar, nəzəriyyələr ................................................................. | 13 |
| 1.2. | Dünya iqtisadiyyatının keçmişdən müasir dövrə qədər inkişaf pillələri, şərtləri və təzahür xüsusiyyətləri ........................................ | 21 |
| 1.3. | Dünya iqtisadiyyatının inkişaf qanunauyğunluqları, istiqamətləri və tərkib elementləri .......................................................................... | 27 |
| **II FƏSİL.** | **DÜNYA İQTİSADİYYATININ, BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN ƏSAS HƏRƏKƏTVERİCİ QÜVVƏLƏR ..............................................** | **34** |
| 2.1. | Dünya iqtisadiyyatı arxitekturasının əsas hərəkətverici qüvvəsi timsalında dünya ölkələri .................................................................. | 34 |
| 2.2. | Müasir dünya iqtisadiyyatının dinamik inkişafını şərtləndirən subyekt kimi Beynəlxalq İqtisadi Təşkilatlar- təsnifatı, funksiyaları və müasir dövrdə rolu........................................................................................ | 49 |
| **III FƏSİL.** | **BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN ÇAĞDAŞ XÜSUSİYYƏTLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR SİSTEMİNDƏ AZƏRBAYCAN...................................................** | **61** |
| 3.1. | Beynəlxalq iqtisadi əlaqələrin yaranmasının zəruriliyi, təkanverici amillər ............................................................................................. | 61 |
| 3.2. | Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsində qlobal maliyyə texnologiyalarının təsirləri və perspektivləri .................................... | 69 |
| 3.3. | Beynəlxalq iqtisadi əlaqələr sistemində Azərbaycan.......................... | 76 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR............................................................** | **90** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT.............................................** | **93** |
| | Cədvəllərin siyahısı.......................................................................... | **96** |
| | Şəkillərin siyahısı............................................................................. | **96** |
| | Qrafiklərin siyahısı........................................................................... | **97** |

# GİRİŞ

**Mövzunun aktuallığı:** Dissertasiya mövzum dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi münasibətlərinin araşdırılmasının əsasında qurulmaqla, bir neçə məsələnin tədqiqini özündə təcəssüm etdirir. Hər bir alt başlıq müasir dövrün aktual məsələlərindən olmaqla, tədqiq edilməsi olduqca vacib məsələlərdir. Bu zaman ölkələrarası ziddiyyətlər, mövcud durumları təhlil edilərək, öyrəniləcəkdir. Niyə məhz dünya iqtisadiyyatının öyrənilməsi prosesi gündəmimizdə aktualdır? Bu suala cavab olaraq qeyd etmək olar ki, dünya ölkələri iqtisadi inkişaf xüsusiyyətlərinə, siyasi idarəetmə sistemlərinə, coğrafi mövqeyinə, əmək ehtiyatlarına görə olduqca müxtəlifdir. Bu baxımdan da dünya iqtisadiyyatının öyrənilməsi sayəsində dünya ölkələrinin iqtisadi inkişaf xüsusiyyətləri, ölkələrin əməkdaşlıq əlaqələrinin daha da intensivləşdirilməsinə nail olmaq, dünya iqtisadiyyatının inkişafı üçün şərait yaradan iqtisadi inkişaf perspektivləri və ziddiyyətlərin aradan qaldırılması üçün imkanların yaradılması üçün lazımi şərait yaranmış olur.

Müasir dövrdə dövlətlərarası münasibətlərdə təməl amil qismində iqtisadiyyat çıxış edir. İqtisadiyyatın təməl rola malik olması səbəbi ilə əlaqədar olaraq dünya ölkələrinin iqtisadi vəziyyətinin araşdırılması olduqca vacibdir. Dissertasiya mövzusunun araşdırılması zamanı ən aktual məsələlərdən biri də, müasir dövrdə dünya iqtisadiyyatının əsas iştirakçılarından birinə çevrilmiş olan beynəlxalq iqtisadi təşkilatların fəaliyyəti, dünya iqtisadiyyatındakı mövqeyi, təsir mexnizmlərinin araşdırılıb-öyrənilməsidir.

Bildiyimiz kimi, beynəlxalq iqtisadi əlaqələrsiz dünya ölkələrinin fəaliyyəti qeyri-mümkündür. Belə ki, dünya ölkələri iqtisadi əlaqələr qurmadan öz iqtisadiyyatlarını ölkə sərhədləri səviyyəsindən kənara çıxara bilməzlər. Bu isə inkişafa əks bir prosesdir. Buna görə də iqtisadi əlaqələrin qurulması iqtisadiyatın dirçəlməsi və daha da "çiçəklənməsi" üçün ilkin və vacib şərtdir. Məhz bu səbəbdən də beynəlxalq iqtisadi əlaqələr dövrümüzün ən aktual məsələlərindən biri olaraq qalmaqda davam edir.

Beynəlxalq iqtisadi əlaqələrin mövcudluğu, yaranmasını zəruri edən amillər geniş şəkildə təhlil edilərək öz əksini tapmışdır.

Müasir dövrdə dünya iqtisadiyyatının bütün subyektlərinin nəzər-diqqətini öz üzərinə çəkməyi bacaran qlobal maliyyə texnologiyalarını nəzərdən qaçırmaq olmaz. Müasir dövrdə tətbiq sferası olduqca geniş olmaqla, daha da genişləndirməkdə davam edən qlobal maliyyə texnologiyaları nəhəng koorperasiyaların, ölkələrin maraq dairəsinə daxil olmaqla, daha çox tədqiq edilməyə başlanılmışdır.

Dissertasiya işinin aktuallığı baxımından qeyd edilməli digər bir məqam Azərbaycan mövqeyinin beynəlxalq iqtisadi əlaqələr sistemində öyrənilib araşdırılmasıdır. Müasir dövrdə Azərbaycan beynəlxalq əlaqələr sisteminə sürətli inteqrasiya etməkdə davam edir və bu istiqamətdə müxtəlif layihələr həyata keçirilir.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Dissertasiya mövzum 3 fəsil başlığı altında araşdırılmşıdır. Bu fəsillər bir-biri ilə əlaqəli olmaqla kompleks şəkildə öyrənilməni tələb edir. Seçdiyim altbaşlıqların hər biri günümüzdə mövcud olan vəziyyəti xarakterizə etməklə, öyrənilməsi olduqca vacib elementləri özündə cəmləşdirir. I fəsildə dünya iqtisadiyyatının müasir dövrədək keçdiyi mərhələlər tədqiq edilmişdir. II fəsildə dünya ölkələri, onların iqtisadi inkişaf xüsusiyyətləri, oxşar və fərqli xüsusiyyətləri analiz edilmişdir. Həmçinin beynəlxalq iqtisadi təşkilatlar fəaliyyət mexanizmləri, müasir dövrdə rolları araşdırılmışdır. III fəsildə isə qarşıya qoyulan problemlər beynəlxalq iqtisadi əlaqələrlə bağlı olmaqla, müasir dövrdə inkişaf xüsusiyyətləri, qlobal maliyyə texnologiyaları və Azərbaycanın mövcud durumda vəziyyətinin dəyərləndirilməsi ilə bağlı olmuşdur. Hər bir alt başlıq tədqiq edilmiş və müəyyən nəticələr əldə edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi dünya iqtisadiyyatının formalaşması, beynəlxalq iqtisadi əlaqələrin yaranması zəruriliyi, mövcud durumu, ölkələrin dünya iqtisadiyyatındakı yeri, beynəlxalq təşkilatların bu istiqamətdə rolu, Azərbaycanın müasir dövrdə beynəlxalq iqtisadi əlaqələr sistemində mövqeyinin təhlili və digər bu məsələlərlə bağlı araşdırmanın reallaşdırılmasından ibarətdir.

Müəyyən olunmuş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- Dünya iqtisadiyyatı sisteminin yaranması, formalaşması, əsas subyektlərinin təhlili;
- Dünya iqtisadiyyatının müasir dövrədək və müasir dövrdə inkişaf qanunauyğunluqlarının araşdırılması;
- Dünya ölkələrinin müasir dövrdə mövcud durumu, statistik göstəricilər ilə təhlilinin aparılması;
- Beynəlxalq iqtisadi təşkilatların təsnifatı, fəaliyyəti və təsir mexanizmləri;
- Beynəlxalq iqtisadi əlaqələrin dünya iqtisadiyyatında əhəmiyyəti və rolunun öyrənilməsi;
- Qlobal maliyyə texnologiyaların dünya iqtisadiyyatına təsir mexanizmi və təsirləri;
- Azərbaycanın BİƏ sistemində əsas tərəfdaş kimi analiz edilməsi və s.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti aşağıdakı yarımqruplar kimi qeyd edilə bilər: ilkin olaraq dünya iqtisadiyyatı; beynəlxalq iqtisadi münasibətlər; dünya ölkə qrupları; beynəlxalq iqtisadi təşkilatlar, qlobal maliyyə texnologiyaları, Azərbaycanın BİƏ-dəki mövqeyi. Tədqiqatın predmetini dünya iqtisadiyyatının yaranması, formalaşması, inkişafı və tənzimlənməsi məsələlərinin, dünya ölkələrinin təsnifatı, mövcud vəziyyətdə inkişaf xüsusiyyətləri, beynəlxalq iqtisadi təşkilatların təsnifatı və rolu, beynəlxalq iqtisadi əlaqələrin təhlili, qlobal maliyyə texnologiyalarının BİƏ sistemində rolu, Azərbaycan mövqeyinin tədqiqi təşkil edir. Qeyd edilənlərdən əlavə, həmçinin obyektlərin öyrənilməsi zamanı yaranan ziddiyyət və oxşarlıqların araşdırılması, gələcək üçün təsir imkanlarının öyrənilməsi və tətbiqinin mümkünlüyünün ortaya çıxarılmasını əlavə edə bilərik.

**Tədqiqat metodları:** Tədqiqatın aparılması zamanı müxtəlif metodlardan istifadə edilmişdir. Tədqiqat metodlarından tarixi, abstraktlaşdırma, analiz-sintez, qrafik, induksiya-deduksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası**: Dissertasiya mövzusunun tədqiq edilməsi zamanı informasiya bazası kimi dünya iqtisadiyyatı, dünya ölkələri və beynəlxalq iqtisadi təşkilatlarla, beynəlxalq əlaqələr sistemi, Azərbaycan mövqeyinin dəyərləndirilməsi ilə bağlı yerli və xarici iqtisadi ədəbiyyatlardan, elmi tədqiqatlardan, statistik göstəricilərdən, bu sahələr üzrə bir sıra illik hesabatlardan, dünya ölkələri barədə statistik göstəriciləri özündə əks etdirən saytlardan istifadə edilmişdir. Ümumiyyətlə, informasiya bazasının seçilməsi zamanı nisbətən yeni ədəbiyyatlardan istifadəyə üstünlük verilmişdir.

**Tədqiqatın məhdudiyyətləri**: Tədqiqat işinin aparılması zamanı bir sıra məhdudiyyətlərin olması labüd haldır. Məhdudiyyətlər kimi İEOÖ-lərin iqtisadi gerilik problemləri, bu problemlərin aradan qaldırılması üçün lazımi maliyyə vəsaitlərinin yetərsizliyi, bununla yanaşı İEOÖ-in dünya iqtisadiyyatına inteqrasiyası zamanı üzləşdiyi problemlər, İEÖ-in maliyyə yardımının azlığı, bu istiqamətdə fəaliyyət göstərən beynəlxalq iqtisadi təşkilatların say məhdudluğu, həmçinin innonativ yeniliklərin tətbiqinin zəif olması, qlobal maliyyə texnologiyalarının tətbiq sferalarının az sayda olması kimi məsələləri qeyd etmək olar.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyinə qlobal maliyyə texnologiyaların tədqiq edilməsi nəticəsində əldə edilmiş faktlar əsasında qlıobal maliyyə texnologiyaların tətbiqinin daha səmərəli olduğunun aşkar edilməsi və faktlarla əsaslandırılmasını qeyd edə bilərik. Bundan başqa aparılan təhlillər nəticəsində Azərbaycanın ixracının stimullaşdırılması məqsədilə, “Made in Azerbaijan” brendinin, “Yaşıl Dəhliz”, “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin fəaliyyətinin, kiçik investorların maraqlarının qorunması tədbirlərinin yaradacağı üstünlüklərin şərhini və bu sahələrə diqqətin daha da artırılmasının əhəmiyyətini də elmi yenilik kateqoriyasına aid edə bilərik.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Tədqiqatın praktiki əhəmiyyətini aşağıdakı araşdırma istiqamətləri ilə izah edə bilərik:

- Dünya iqtisadiyyatının müasir dövrədək keçdiyi inkişaf pillələri , şərtləri və təzahür xüsusiyyətləri, yaranmasına dair nəzəriyyələr və tərkib elemetləri geniş şəkildə araşdırılmışdır;
- Dünya iqtisadiyyatının əsas subyekti qismində dünya ölkələri, təsnifatı, əsas xüsusiyyətləri haqqında geniş məlumat verilmişdir;
- Beynəlxalq iqtisadi təşkilatların müasir dövrdə rolu, təsir mexanizmləri tədqiq edilərək, şərh olunmuşdur;
- Beynəlxalq iqtisadi əlaqələrin yaranma zəruriliyi, müasir dövrdə inkişaf xüsusiyyətləri şərh edilmiş, qlobal maliyyə texnologiyalarının təsir və perspektivləri haqqında statistik göstəricilər toplanmış və analiz edilmişdir;
- Azərbaycanın BİƏ sistemində mövqeyi dəyərləndirilmiş, yararlana biləcəyi istiqamətlər qeyd olunmuş və müəyyən təkliflər irəli sürülmüşdür.

Dissertasiya işinin tətbiq olunacağı sahələr kimi beynəlxalq iqtisadi əlaqələrin birbaşa və ya bilavasitə əlaqəsi olan sahələri, dünya iqtisadiyyatının müxtəlif sektorlarını qeyd etmək olar. Tədqiqatın yekun nəticəsi olaraq qeyd olunmuş nəticə və təkliflər, habelə araşdırma zamanı toplanılmış məlumatlar müəyyən nəzəri tədqiqi elmi baza kimi və həmçinin mühazirələrin hazırlanmasında ədəbiyyat mənbəyi kimi istifadə oluna bilər.

# I FƏSİL. DÜNYA İQTİSADİYYATININ TƏKAMÜL PROSESİ, FORMALAŞMASI VƏ İNKİŞAF MEXANİZMİ

## 1.1.Dünya iqtisadiyyatının meydana gəlməsi, təkamülü dövrünə dair ilkin baxışlar, nəzəriyyələr

Reallıqda görünən və görünməyən qanunauyğunluqların dərk olunmasının önəmli xüsusiyyətləri vardır. Davamlı araşdırmalar aparılaraq əldə olunan nəticələr daha sonra hamılıqla dərk edilən adi bir həqiqətə çevrilmiş olur. Adi bir həqiqətə çevrilmiş proseslərdən biri də dünya iqtisadiyyatının müasir dövrdə əsas maraq obyektinə çevrilməsi olmuşdur.

Ümumiyyətlə, dünya iqtisadiyyatı nə üçün mövcuddur, öyrənilməsini və yaranmasının zəruriliyini şərtləndirən amillər hansılardır?

Dünya iqtisadiyyatı dedikdə, dünya təsərrüfat sistemlərinin məcmusu başa düşülür. Dünya iqisadiyyatı milli iqtisadiyyatların qarşılıqlı əlaqə və asılılğının vəhdətindən yaranan kompleks bir sistemdir.

Müasir dövrdə dünya iqtisadiyyatının araşdırılması və öyrənilməsi nöqteyi-nəzərdən aşağıdakı funksiyaları qeyd etmək olar :

- Yaddaş funksiyası- cəmiyyətin keçmişdən bugünədək inkişaf mexanızmi barədə məlumatların toplanılması, ümumiləşdirilməsi;
- Tarixi proseslərin yalnız müsbət xüsusiyyətlərini deyil, həmçinin mənfi xüsusiyyətlərini ortaya çıxarmaqla, iqtisadi fikirdə realizmi formalaşdırmaq;
- Fundamental funksiya- keçmişdən müasir dövrədək dünya iqtisadiyyatının inkişaf qanunauyğunluqlarının ümumiləşdirilməsi;
- İdrak funskiyası - ümumilikdə dünya iqtisadiyyatının bütövlükdə inkişaf prosedurları haqqında fikrin formalaşdırılması;

- Proqnostik funksiya- bu funksiya əsasən keçmişin öyrənilməsi, ümumi nəticələrin əldə olunması və gələcəyə dair fikirlərin irəli sürülməsi mahiyyətini daşıyır və s. (Bayramov Ə.İ. və Hacıyev Ş.H. , 2010).

Dünya iqtisadiyyatının araşdırılıb, öyrənilməsində əsas məsələləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- milli iqtisadiyyatlar bir-birindən təcrid olunmuş halda deyil, vəhdət şəklində fəaliyyət göstərib, inkişaf edə bilirlər;
- milli iqtisadiyyatlar dünya iqtisadiyyatına və əksinə, dünya iqtisadiyyatı milli iqtisadiyyatların inkişafına, tərəqqsinə təkan verən münasibətlər sistemini təcəssüm etdirir;
- qlobal problemlərin həlli bəşəriyyətin maraq dairəsindədir və həll olunması birgə səyə əsaslanır və s.

Cəmiyyətin inkişafını şərtləndirən insan fəaliyyəti dövlət sərhədlərindən kənara doğru irəliləməyə başlamış və proses olduqca irimiqyaslı xarakter almışdır. Belə ki, bu kimi fəaliyyətlər- siyasi, iqtisadi, mədəni və s. sahələrdə meydana çıxan ziddiyətlərin həlli ümumi beynəlxalq-dünya iqtisadiyyatından keçir.

Məhsuldar qüvvələrin davamlı inkişafı onların ölkə sərhədləri çərçivəsindən kənara çıxmasına səbəb olmuşdur. Bunun nəticəsində qloballaşma, inteqrasiya prosesləri daha da geniş vüsət almışdır.

Məhsuldar qüvvələrin inkişafı birbaşa təbii resursların mövcudluğundan asılıdır. Belə ki, təbii resurs istehsalın başlıca faktorlarından biridir. Məlum olduğu kimi, İEOÖ-də təbii resurs bolluğu özünü göstərsə də, İEÖ-də resurs qıtlığı özünü biruzə verir. Bu da ölkələrarası mübadilə prosesinin sürətlənməsinə, ölkələrin bir-biri ilə iqtisadi-siyasi əlaqələr qurmasına təkan verir.

İqtisadi münasibətlərin intensivliyinin şərtləndirən əsas amillərdən biri də dövlətin seçdiyi iqtisadi model və sosial-iqtisadi quruluş həll edici rol oynayır.

Əvvəllər hegemonluq siyasətini gerçəkləşdirmək istəyən imperatorluqlar artıq real nəticələrə əsaslanmaq məcburiyyətində oldular. Belə ki, iqtisadiyyat təcrid olunmuş

şəkildə deyil, dünya miqyasında inkişaf edib, irəliləyə bilər. Bütün bu kimi amillər dünya iqtisadiyyatının yaranmasını daha da zəruri etmişdir (Kərimov C. Orucov A., və İsrafilov H., 2007).

Belə ki, qapalı iqtisadiyyat dövlət iqtisadiyyatını ümumdünya iqtisadiyyatından təcrid edir, elmi-texniki tərəqqinin nailiyyətlərdən istifadədən sözün əsl mənasında təcrid edir. Buna misal olaraq Rusiya iqtisadiyyatını göstərmək olar. Dünya iqtisadiyyatından təcrid olunmuş şəkildə fəaliyyət göstərməyə çalışmış, lakin sənayeni inkişaf etdirməyə lazımi qədər vəsaiti, hərbi gücü və təbii resurlara malik olmasına baxmayaraq, öz iqtisadiyyatını Yaponiya, ABŞ və s kimi digər ölkə iqtisadiyyatları səviyyəsinə gətirib çıxara bilməmişdir.

Ümumiyyətlə, dünya iqtisadiyyatının inkişafını şərtləndirən obyektiv əsas kimi ölkə iqtisadiyyatının yalnız öz sərhədləri daxilində inkişafının qeyri-mümkünlüyü,milli iqtisadiyyatların dünya təsərrüfat sisteminə qoşulması tələbatının artması kimi faktorları əsas götürmək olar. Qeyd edilən tələbat hər zaman olmuşdur, lakin özünü daha çox XX əsrin sonu- XXI əsrin əvvəllərində qlobal miqyasda reallaşan qanunauyğunluq kimi göstərmişdir.

Dünya iqtisadiyyatının mahiyyətini başa düşmək üçün yaxşı bir vasitə kimi ölkə iqtisadiyyatı və dünya iqtisadiyyatı terminlərinin fərqini aydınlaşdırmaq lazımdır.

Fərqlər olduqca müxtəlif və çox saydadır. Onların bəzilərinə diqqət yetirilsə, aşağıdakı kimi qruplaşdırmaq olar:

- Dünya iqtisadiyyatından fərqli olaraq ölkə iqtisadiyyatı sərhədlərlə məhdudlaşır;
- Ölkədaxili iqtisadiyyat sərhədi çərçivəsində olan strukturların fəaliyyətindən, dünya iqtisadiyyatı isə , aparıcı ölkə və strukturların fəaliyyətindən asılıdır;
- Beynəlxalq vəziyyətin ölkə iqtisadiyyatına təsiri olduqca azdır, dünya iqtisadiyyatına təsiri olduqca güclüdür;
- Ölkə iqtisadiyyatında sadə tərkib,qarşılıqlı əlaqələr olduqca rahat, ziddiyyətlərin nisbətən az olduğu özünü göstərsə də, dünya iqtisadiyyatında tam əksidir və s. (Lomakin V., 2013).

Dünya iqtisadiyyatının yaranmasına, formalaşasına dair fikirlər olduqca müxtəlifdir. Belə ki, tədqiqatçıların yanaşmaları bir-birindən tamamilə fərqlənir.

Dünya iqtisadiyyatına dair bir-birindən strukturuna görə fərqlənən nəzəriyyələr mövcuddur. Dünya iqtisadiyyatının müasir dövrədək keçdiyi inkişaf yolunda öyrənilən və tədqiq olunan nəzəriyyələrin aşağıdakı şəkildə qruplaşdırmaq olar :

- Neokolonializm və imperializm nəzəriyyəsi;
- Dünya-sistem konsepsiyası;
- Postindustrial cəmiyyət nəzəriyyəsi;
- İndustrial cəmiyyət nəzəriyyəsi;
- Vahid sivilizasiya nəzəriyyəsi ;
- Qarşılıqlı asılılıq nəzəriyyəsi ;
- Konvergensiya nəzəriyyəsi ;
- Sivilizasiyaların toqquşması nəzəriyyəsi ;
- İqtisadi artım mərhələləri nəzəriyyəsi ;
- Modernləşmə nəzəriyyəsi ;
- Neoevolyusiyonizm və ya neotəkamül nəzəriyyəsi ;
- Bərabər partnyorluq konsepsiyası;
- Asılılıq nəzəriyyəsi (İsmayılov G., 2006).

Neokolonializm və imperializm nəzəriyyəsinin yaradıcıları kimi Otto Bayer, Vladimir Lenin, Pudolf Hilferdinq çıxış edirlər. Neokolonializm və imperializm nəzəriyyəsi dünya strukturunda aparıcı dövlətlərin kapital qoyuluşu, xammal mənbələri, yeni bazarların kəşf edilməsi uğrunda mübarizə aparması və onların dünya iqtisadi sistemə mədəni və siyasi təsirinin artması ilə xarakterizə olunur.

İmperializm nəzəriyyəsi başqa adla qeyd edilsə, inhisarçı kapitalizm özündə ölkə və ölkə qruplarının digər-nisbətən zəif ölkələr üzərində hökmranlığı, istismar edilərək, xaricdən idarə olunması kimi təcəssüm edilir. Neokolonializm nəzəriyyəsi iqtisadi ekspansiya xarakterini ehtiva edir. Belə ki, güclü dövlətlər öz gücləri hesabına öz sərhədlərini genişləndirirlər.

Dünya-sistem nəzəriyyəsi İmmanuel Vallerstayn tərəfindən irəli sürülmüşdür. Bu konsepsiya əmək bölgüsünün dinamik inkişafına əsaslanaraq dünyanı 3 mühüm hissəyə ayırırlar:

- Dünyanın nüvəsi (mərkəzi);
- əyalət ölkələr;
- yarım əyalət ölkələr.

Dünyanın nüvəsi kimi adlandırılan mərkəzi hissəyə Avropanın sivilizasiyalı ölkələri aid edilir. Əyalət yarımqrupunda yer alan ölkələr qrupuna müəyyən istisnalar nəzərə alınmazsa, qeyri-Avropa ölkələri aiddir. Nəhayət, təsnifatın III yarımqrup ölkələri kimi sosialist ölkələr qeyd olunur.

Bu konsepsiyanın əsasını İEOÖ-lərlə İEÖ arasındakı münasibətlər toplusu təşkil edir. Belə ki, bu dövrdə əsasən sosialist dövlətlər yarıməyalət ölkələri kimi qiymətləndirilir. Bu dövr qeyd ediləndə əsasən 1920-1940-ci illər nəzərdə tutulur. Əsas subyektlər qismində Balkan dövlətləri, İrlandiya, Portuqaliya və keçmiş SSRİ respublikaları çıxış edir.

Postindustrial nəzəriyyənin baniləri Zbiqnev Bjezinski, Daniel Bell, Elvin Toffler olmuşdur. Postindustrial cəmiyyət nəzəriyyəsində əsas istehsal prioriteti qismində ETT çıxış edir. Bu dövrdə əhalinin gəlir artımı nəticəsində xidmət sferası olduqca geniş vüsət almışdır. Postindustrial cəmiyyət konsepsiyasının xarakterik cəhətləri:

- elmi tədqiqatlar iqtisadiyyatın əsas hərəkətverici qüvvəsidir;
- işçi qüvvəsinin kəmiyyət məhsuldarlığı deyil, keyfiyyət məhsuldarlığı daha çox ön planda yer alır;
- bu dövrün əsas resursu bilik və informasiyadır (İsmayılov G., 2006).

Bu nəzəriyyəyə əsasən postindustrial ölkələr dedikdə, xidmət sferasının ÜDM-də yarıdan çox payı olan ölkələr nəzərdə tutulur. Bu ölkələrə misal olaraq ABŞ liderlik təşkil edir (80%). Sonrakı pillələrdə AB ölkələri, Kanada, Yaponiya (70 %) bərqərar olmuşdur.

İndustrial cəmiyyət nəzəriyyəsinin banisi Piter Draker hesab edilir. İndustrial nəzəriyyəyə görə maddi nemətlərin istehsalı, mübadilənin genişlənməsi nəticəsində dünya iqtisadiyyatı ölkələri arasında münasibətlərin daha da genişlənməsinə şərait yaratmışdır. Sənayenin inkişafı ölkələrarası mübadilənin sürətlənməsinə, İEOÖ-ın "çirkli" sənaye mərkəzləri olmasına baxmayaraq, bununla belə dünya iqtisadiyyatı münasibətlərinə inteqrasiya olunmasına şərait yaratmışdır.

Vahid sivilizasiya nəzəriyyəsinin banisi Frensis Fukuyama hesab edilir. Bu nəzəriyyə haqqında geniş məlumat F. Fukuyamanın "Tarixin sonu və sonuncu bəşər" kitabında öz əksini tapmışdır. Bu nəzəriyyəyə əsasən liberalizmin həyatqabiliyyətli heç bir alternativi yoxdur; Qərb cəmiyyətinin liberal ideologiyası digər ideologiyalarla "yarışda" qalib gəlmiş və tarix bu ideologiya ilə nəticələnir.

Termin olaraq qarşılıqlı asılılıq elmə 70-ci illərdə Stenli Hofman tərəfindən gətirilmişdir. Konsepsiyanın yaradıcısı qismində isə Piçard Kuper iştirak etmişdir. Qarşılıqlı asılılıq konsepsiyasına görə milli iqtisadiyyatlar beynəlmilliləşən istehsala, struktur yenidən qurmaya, elmi-texniki tərəqqiyə əsaslanan qarşılıqlı, bir-birindən asılı halda fəaliyyət göstərib daha da inkişaf edə bilirlər. Qarşılıqlı asılılıq probleminə müxtəlif səviyyələrdə baxılır: sistemaltı-daxili; mərkəzlər və əyalətlər arası ; qlobal.

Konvergensiya nəzəriyyəsinin yaradıcıları Yan Tinbergen, Con Streyçi, Con Kennet Qelbreyt və Raymon Aron hesab edilir. Konvergensiya nəzəriyyəsi əsasən , kapitalizmin və sosializmin qarşılıqlı əlaqə və təsir mexanizmi öyrənilir. Bu nəzəriyyə mahiyyətcə SSRİ və ABŞ-ın bir-birinə qarşı hərəkəti ilə ümumiləşmiş modelin əldə edilməsinə yönələn nəzəriyyədir. Konvergensiya nəzəriyyəsinə görə ABŞ SSRİ-dən dövlət planlaşdırılması təcrübəsini, SSRİ isə kapitalist ölkələrdən mənfəət konsepsiyası məsələləri ilə bağlı olaraq təcrübəni mənimsəyir. Nəticədə iki olduqca fərqli sistemlərin yaınlaşması nəticəsində strateji baxımdan daha uğurlu iqtisadi model əldə olunur.

Sivilizasiyaların toqquşması nəzəriyyəsi elmə Samyel Hantiqton tərəfindən daxil edilmişdir. Bu nəzəriyyəyə əsasən, konfliktlər iqtisadiyyatlar və ideologiyaya əsaslanaraq deyil, mədəniyyətlərə əsasən həll oluanacaqdır.

Hantiqton sivilizasiyaları bir neçə qrupda cəmləşdirərək, aşağıdakı cədvəldəki kimi qeyd etmişdir:

**Şəkil 1 : Sivilizasiyaların növləri.**




**Mənbə:**http://hajizada.com/upload/File/6.%20DI%20Iqisd%20dinamika.pdf məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.

İqtisadi artım mərhələləri nəzəriyyəsi Uolt Uitiman Rostou tərəfindən elmə daxil edilmişdir. Bu nəzəriyyə əsasən ölkələrin mərhələli inkişafına əsaslanan tədqiqatları öyrənir. Bu nəzəriyyəyə əsasən cəmiyyət aşağıda qeyd olunan kateqoriyalara bölünür:

- yüksək kütləvi istehlak səviyyəli cəmiyyət ;
- industrial cəmiyyət ;
- irəliləyiş və ya qalxma cəmiyyəti ;
- keçid iqtisadiyyatlı cəmiyyət;
- ənənəvicəmiyyət (http://hajizada.com/, 2019).

Modernləşmə nəzəriyyəsinin metodoloji əsası Qunar Myurdal, Şmuel Eyzenştat, Maks Veber tərəfindən qoyulmuşdur. Bu nəzəriyyə iqtisadi artım mərhələləri nəzəriyyəsindən fərqli olaraq, cəmiyyəti ikiqütblü cəmiyyətə bölür. Belə ki, cəmiyyət ənənəviçilik və müasirlik olmaqla qiymətləndirilir. Nəzəriyyə əsasən ənənəviçilikdən müasirliyə doğru keçidi özündə təcəssüm etdirir. Modernizasiya paradiqması, XX əsrin ortalarında Avropada müstəmləkəçilik sisteminin süqutu nəticəsində çoxsaylı yeni

gənc dövlətlərin yaranması nəticəsində formalaşmışdır. Ümumiyyətlə, modernləşmə müasir norma və tələblər əsasında yeniləşmədir. Modernləşmə struktur-funksional differensiasiya və inteqrasiya formalarının yaranması ilə xarakterizə olunan qlobal bir prosesdir.

Neotəkamül nəzəriyyənin yaradıcıları qismində Qordon Çayld, Lesli Uayt, Culian Stuard çıxış edir. Ümumiyyətlə, evolyusiyonizm nədir? Evolyusiyonizm dedikdə, bütün mövcud cəmiyyətin təkamüllü inkişafı, inkişaf və tərəqqi ideyalarının antropoloji şərhi prosesidir. Neoevolyusiyonizm dedikdə isə, sosial-mədəni funksiyaların ixtisaslaşması, sosial-mədəni struktur differensiasiyası və funksiya və struktur təşkilatlanmanın yeni mərhələlərdə inteqrasiyasını başa düşmək olar. Evolyusiyonizm və neoevolyusiyonizm arasındakı fərq, neoevolyusiyonizm digərindən fərqli olaraq, xətti inkişaf dinamikasını inkar edir, əksinə ənənəvidən müasirliyə doğru çoxsaylı yolların olduğunu təsdiq edir (http://hajizada.com/, 2019).

Bərabər partnyorluq nəzəriyyəsinə əsasən nisbətən zəif inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatına inteqrasiyası nəticəsində,iqtisadiyyatlarının inkişafının sürətlənməsi, artıq onların ərzaq və xammal təchizatçısı rolunda deyil, istehsal iştirakçısı qismində iştirak etməsinə gətirib çıxarmışdır. Bu nəzəriyyə əsasını İEOÖ-lərlə Qərb ölkələri arasında səviyyə fərqinin aradan qaldırılması təşkil edir. Birgə səy, iştirakın nəticəsində, daha çox səmərəli fəaliyyətin əldə olunacağı arzuolunan nəticə olacaqdır.

Asılılıq nəzəriyyəsi XX əsrin 60-70-ci illərində yaranmış və formalaşmışdır. Bu nəzəriyyə bərabər partnyorluq nəzəriyyəsindən fərqli olaraq, İEOÖ-in 3 fərqli asılılığının mövcud olması faktını irəli sürür: inkişafetmə asılılığı, inkişafetməmə asılılığı və təkrar istehsal asılılığı. İnkişaf etmə asılılığı dedikdə, ölkələrin "himayəsi" altında olduğu ölkə tərəfindən dəstəklənərək, inkişaf etdirilməsini özündə təcəssüm etdirir. Lakin bunun əksinə olaraq, inkişafetməmə asılılığı, "lider" ölkənin müstəmləkəsi altında olan ölkələrin inkişafının özləri üçün təhlükə yaradacağı fikri ilə iqtisadiyyatlarını inkişafdan geri qalması üçün tədbir görürlər. Təkrar istehsal asılılığı

dedikdə, yeniliklərin tətbiqinə əsaslanmayan istehsal forması nəzərdə tutulur. Belə ki, İEÖ əsasən çirkli sənayeni özündə cəmləşdirən sənaye sahələrinin İEOÖ-də qalmasını, özündə isə yeni, ekoloji cəhətdən təmiz sənaye sahələrinin inkişaf etdirilməsi strategiyasını tətbiq edir. Bununla da İEOÖ-lərin asılılığı davam edir.

Qeyd edilən nəzəriyyələr dünya iqtisadiyyatının fərqli müstəvilərdən araşdırılmasını təmin edərək, həm keçmiş dövr iqtisadiyyatını, həm də müasir dövr iqtisadiyyatının araşdırılmasını təmin etmişdir. Ümumi xülasə çıxarılarsa, nəzəriyyələrə əsasən dünya iqtisadiyyatının inkişafı və daha da yenilənməsi üçün birgə səy (yəni İEÖ-lərin İEOÖ-lərlə əməkdaşlığı) olduqca əhəmiyyətlidir. Elmi-texniki tərəqqinin tətbiqinin daha da sürətlənməsi və geniş miqyasda tətbiqi olduqca əhəmiyyətlidir. Bütün qeyd olunanlar nəzərə alınarsa, dünya iqtisadiyyatının gələcəyi arzuolunan nəticələrlə yekunlaşacaqdır.

## 1.2.Dünya iqtisadiyyatının keçmişdən müasir dövrə qədər inkişaf pillələri , şərtləri və təzahür xüsusiyyətləri

Dünya iqtisadiyyatının yaranmasına dair fikirlər,faktlar olduqca müxtəlifdir. Bu müxtəlifliyi nəzərə alaraq, ayrı-ayrı mənbələrin dünya iqtisadiyyatının yaranması ilə bağlı qeyd etdikləri xronoloji inkişaf ardıcıllığına nəzər yetirmək lazımdır.

Bəzi mənbələrdə, dünya iqtisadiyyatının yaranmasının ilkin mərhələsi kimi XVI-XIX əsrləri qeyd etmək olar. Bu dövr əsasən müstəmləkə məhsulları ilə beynəlxalq ticarətin intensivləşməsi ilə xarakterizə olunur. Ancaq bu mərhələdə dünya iqtisadiyyatı ölkələr arasında xarici ticarət münasibətlərinin məcmusu kimi qiymətləndirilir. Ticarət kapitalının və beynəlxalq əmtəə dövriyyəsinin tətbiq sferası olduqca məhdud idi. Ümumiyyətlə, kapitalizmə qədərki dövrdə istehsal olunan məhsulların az hissəsi( qızıl və gümüşdən hazırlanan bəzək əşyaları, parçalar və s.) beynəlxalq mübadilədə iştirak edirdi. Natural təsərrüfatdan əmtəə istehsalına keçid və feodalizmin dağılması, kapitalizmə keçid beynəlxalq ticarətin inkişafına güclü təkan vermişdir. Müasir dünya iqtisadiyyatı sənaye çevrilişindən sonra meydana gəlmişdir.

Dünya iqtisadiyyatının formalaşmasının ikinci mərhələsi kimi 1870-1913-cü illəri qeyd etmək olar. Bu dövrdə Qərbi Avropada sənaye çevrilişi baş vermiş, istehsalın beynəlmilliləşməsi geniş vüsət almağa başlamışdır. Maraqlı cəhəti isə bu idi ki, bu dövrdə ticarət dövriyyəsinin artım tempi əvvəlki dövrlə müqayisədə 50 % azalma göstərirdi. Bunun müqabilində azalan ticarət inteqrasiyasını bir çox beynəlmilliləşmə tendensiyaları kompensasiya edirdi. Bu dövrdə əmək bazarında yüksək səviyyədə beynəlmilliləşmə öz əksini tapırdı. Ölkələrarası işçi axını sürətlə daha da genişlənirdi. Bu dövrdə Avropadan ABŞ-a əmək miqrasiyası geniş vüsət alaraq, 36 milyon miqrantın 2/3 hissəsinə qədər qismini əks etdirmişdir. Kapitalın beynəlxalq hərəkəti bu dövrlərdə daha da artmışdır. 1914-cu ildə uzunmüddətli xarici investisiyaların həcmi 44 milyard dollara çatdı. Bu prosesin aktiv subyektləri qismində Almaniya, Böyük Britaniya və Fransa çıxış edirdi. 1913-cü ildə satılan qiymətli kağızların 59%-i xarici qiymətli kağızlar təşkil etmişdir. Bu mərhələ birbaşa xarici investisiyaların vasitəsilə beynəxalq istehsal artım mərhələsi kimi qeyd olunur. BXİ əsas idxalatçıları qismində ABŞ, LA-ın İEOÖ-ləri, Avropanın az inkişaf etmiş ölkələri və Çini qeyd etmək olar. Əsas ixracatçılar qismində isə ABŞ (20%) və Böyük Britaniya (45%) çıxış edir. Bu mərhələdə İEÖ-lərlə iqtisadi cəhətdən geri qalan daha dəqiqliklə qeyd olunarsa, müstəmləkə ölkələri arasında ticari-iqtisadi münasibətlərin daha da yaxşılaşması özəksini tapır (Şəkərəliyev A., Əliyev A., Dadaşov İ., 2003).

III mərhələ kimi I dünya müharibəsi başlanması və II dünya müharibəsinin sona çatması arasındakı dövr qeyd olunur. Bu dövr iqtisadi ədəbiyyatlarda durğunluq, böhran dövrü kimi qiymətləndirilir. Son 40 ildə əldə edilən nailiyyətlər itirilməsi baş verdi. 1920-ci illərdən sonra inkişaf etmiş dünya ölkələri ümumdünya maliyyə sistemində baş vermiş qeyri-sabitlik, kapital və əmtəə ixracının aşağı düşməsi və bu kimi problemlərdən asılı olaraq durğunluq daha sonra isə böhran dövrünə keçid etdilər. 1917-ci ildə baş verən çevriliş Rusiyanı tamamilə dünya təsərrüfat sistemindən təcrid etdi. Bununla da dünya iqtisadiyyatında təsərrüfat əlaqələri bir-birindən fərqlənən

yarımqrupa bölündü :kapitalist üsulu təsərrüfat subyektləri və sosiolist yönümlü təsərrüfat sistemləri.

Dünya iqtisadiyyatının inkişafının yeni bir mərhələsi-IV mərhələ II dünya müharibəsinin bitməsindən başlayaraq 90-ci illərin əvvəllərinə qədərki dövrə təsadüf etmişdir. Bu dövr beynəlxalq əlaqələrin yenidən qurulması, pozulmuş beynəlxalq iqtisadi intizamın bərpası, məhsul və xidmətlərin ölkələrarası mübadiləsinin daha da geniş vüsət almasını özündə təcəssüm etdirir.

Dünya iqtisadiyyatının bu mərhələdə inkişafını şərtləndirən amil kimi aşağıdakıları qeyd etmək olar:

- əmək məhsuldarlığının artırılması və iqtisadi fəaliyyət yönündə ölkələrin yaxınlaşması tendensiyası;
- xarici ticarət siyasətinin daha da liberallaşdırılması;
- yüksək və sabit iqtisadi artım;
- intensiv elmi texniki-tərəqqinin tətbiqi;
- müstəmləkə sisteminin dağılması və s. (Peter B. , 2008).

İEOÖ dünya iqtisadi əlaqələrə cəlb olunara, artıq passiv iştirakçı qismində deyil,aktiv-fəal subyekt qismində çıxış edərək, dünya iqtisadi münasibətlərin əsas subyektləri qismində çıxış etməyə başladılar. Milli iqtisadiyyatlar formalaşmaqda olan iqtisadi vahid sistemə-dünya iqtisadiyyatına daha çox cəlb olunaraq, ondan daha asılı vəziyyətə düşürlər. Bu asılılıq daha çox özünü beynəlxalq təşkilatların tərkibində, inteqrasiya birlikləri çərçivəsində və beynəlxalq kooperasiyaların nəznində özünü daha çox biruzə verir. Bütün bunlara baxmayaraq, IV mərhələ dünya iqtisadiyyatının formalaşmasında əhəmiyyətli rol oynamışdır.

Dünya iqtisadiyyatının yaranmasının V mərhələsinin başlanğıcı kimi 90-cı illərin əvvəli qeyd olunur. Vahid iqtisadi sistem kimi dünya iqtisadiyyatının formalaşması məhz bu mərhələdə öz əksini tapmışdır. Bu formalaşma prosesinə təkan verən faktorlar kimi aşağıdakıları qeyd etmək olar:

- SSSR-in dağılması və Şərq və Mərkəzi Avropa ölkələrinin bazar iqtisadiyyatına keçid və bununla əlaqədar olaraq yaranan iqtisadi artım;
- Dünyada inteqrasiya proseslərinin artan inkişaf dinamikası;
- Beynəlxalq kooperasiyaların fəaliyyətinin daha da genişlənməsi;
- İqtisadi cəhətdən geri qalmış və ya zəif inkişaf etmiş ölkələrin dünya iqtisadi münasibətlər sisteminə cəlb olunması və s. (Lomakin V., 2013).

Bir qrup tədqiqatçıların fikrincə isə, dünya iqtisadiyyatının yaranması dövlətçilik ənənələrinin gəlməsi ilə başlamışdır. Xronoloji baxımdan qeyd edilən dövr e.ə II əsrə, daha dəqiqliklə qeyd edilsə, I əsrə təsadüf edir. Həmin dövr Roma imperiyasının qədim dünyada hegemon quldar dövlətinə çevrildiyi tarixi əks etdirir.

Digər qrup tədqiqatçıların fikrincə, dünya iqtisadiyyatının meydana gəlməsi böyük coğrafi kəşflərlə bağlı olmuşdur. Bu dövrdə ən çox "çiçəklənən" iqtisadiyyat kimi Qərbi Avropa ölkələrinin iqtisadiyyatını qeyd etmək olar. BCK-artan ticarət münasibətlərinin məntiqi nəticəsi kimi qiymətləndirilir, həmçinin Qərbi Avropada kapitalist təsərrüfatının yaranıb-formalaşmasına və ilkin kapital yığımına güclü təkan vermişdir. Təbii ki, BCK-lərin iqtisadi nəticələri bununla bitmədi. Böyük coğrafi kəşflər nəticəsində Avropada əmtəə-pul münasibətləri getdikcə güclənmiş və Asiya ilə ticarət əlaqələri daha da intensiv hal almağa başlamış, bunun nəticəsində ümumdünya bazarı formalaşmış və dünya iqtisadiyyatı yaranmağa başlamışdır.

Digər nöqteyi nəzərdən, bir qrup alimin yanaşmasına görə isə dünya iqtisadiyyatının yaranmasının ilkin mərhələsi kimi XIX əsrin sonu XX əsrin əvvəllərini qeyd etmək olar. Bu dövrdə dünya iqtisadiyyatı bir sıra xarakterik xüsusiyyətlərə malik olmuşdur. Bunları aşağıdakı kimi qeyd etmək olar:

- İstehsal və kapital münasibətləri təmərküzləşmiş, bunun nəticəsində inhisar birlikləri meydana gəlmişdir;
- Bank və sənaye kapitallarının qovuşması nəticəsində, maliyyə oliqarxiyası və kapitalı yaranmışdır;

- Əvvəllər olduğu kimi əmtəə ixracı deyil, kapital ixracı geniş miqyasda özünü təcəssüm etdirirdi (Başoğlu U., Ölmezoğlulları N. və Parasiz İ., 2001).

Artıq XIX əsrin sonlarında kapitalist yönümlü ölkələrin iqtisadi inkişafı ayrı-ayrı müəssisələrin fəaliyyətinə deyil, birgə səyə əsaslanan, hegemon inhisarların fəaliyyətinə keçidlə təcəssüm olunurdu. Bununla bağlı olaraq, XIX əsrin sonlarında ümumdünya üzrə sənaye məhsul istehsalında artım 3 dəfədən çox olmuşdur. Məhsuldar qüvvələrin inkişafında ciddi struktual dəyişikliklər meydana çıxmışdır. Qeyd edilən dövrdə dünya iqtisadiyyatında sürətlə inkişaf edən ölkələr qismində ABŞ və Almaniya liderlik səviyyəsinə gəlib çatmışdır.

Dünya iqtisadiyyatının II dünya müharibəsinin bitməsindən 70-ci illərədək keçdiyi dövrün özünəməxsus təzahür xüsusiyyətləri vardır. Bu xüsusiyyətləri aşağıdakı şəkildə qeyd etmək olar:

- Ümumdünya təsərrüfat strukturunun zəifləməsi;
- Xarici iqtisadi əlaqələr adətən sinfi yanaşma mövqeyində qurulurdu, bu səbəbdən də vahid qlobal təsərrüfatın əhatə dairəsi daralırdı;
- Sahibkar kapitalının ixracının genişlənməsi, dəstəklənməsi bu sahənin inkişafına təkan verirdi. Nəticədə dünya iqtisadiyyatında Transmilli Korporasiyalar sürətlə inkişaf etməyə başladı. TMK sayəsində beynəlxalq istehsal formalaşa bilir və istehsalın dünyəvilik səviyyəsi daha da artırdı;
- Sosializm yönümlü olmayan ölkələr arasında genişlənən ticari-iqtisadi əlaqələr və s. (Kərimov C. Orucov A., və İsrafilov H., 2007).

Dünya iqtisadiyyatının müasir dövrədək keçdiyi inkişaf yoluna nəzər saldıqda, 1990-cı illəri diqqətdən kənarda qoymaq olmaz. Belə ki, həmin dövrdə SSRİ-in dağılması ilə dünya iqtisadiyyatının yeni bir dövrü başladı. Bu dövrdə dünya iqtisadiyyatının dünyəvilik göstəricisi özünün ən yüksək səviyyəsinə çatmışdır. Dünya sosializm sistemi dağıldı, sosial bazar strukturu yox oldu. Nəticədə dünya bazarı bütövləşdi, daha da beynəlmiləl xarakter aldı.

Yekun olaraq, dünya iqtisadiyyatının keçdiyi inkişaf mərhələlərini aşağıdakı şəkildə daha aydın görmək olar (Bayramov Ə.İ. və Hacıyev Ş.H. , 2010).

**Şəkil 2:Dünya iqtisadiyyatının formalaşması mərhələləri**

| Mərhələlər | Əhatə etdiyi dövrlər | Xarakterik xüsusiyyətlər |
|---|---|---|
| I mərhələ | XV-XVII əsrlər | I mərhələdə dünya kapitalist bazarı təşəkkül tapmışdır:<br>- qiymətlər inqilabı;<br>- müstəmləkələrin yaranışı;<br>- böyük coğrafi kəşflər;<br>- manufakturalar dövru. |
| II mərhələ | XVIII-XIX əsrlər | BƏB təşəkkül etməsi və inkişafı:<br>- burjua inqilabı;<br>- manufakturalardan fabrik sistemə keçid;<br>- sənaye çevrilişi. |
| III mərhələ | XIX əsrin sonu - XX əsrin I yarısı | Dünya təsərrüfatının formalaşması:<br>- inhisarçı kapitalizmə keçid;<br>- dünyanın iqtisadi cəhətdən bölüşdürülməsi;<br>- daxili yanma mühərrikinin ixtirası; |
| IV mərhələ | XX əsrin 50-ci illərindən müasir dövrə qədər | Ölkələrarası qarşılıqlı iqtisadi asılılığın daha da güclənməsi:<br>- elmi-texniki inqilab;<br>- beynəlmilləşmə və inteqrasiya prosesləri;<br>- qloballaşma proseslərinin sürətlənməsi. |

**Mənbə:** Müxtəlif mənbələrdən əldə edilmiş məlumatların ümumiləşdirilməsi aparılaraq müəllif tərəfindən hazırlanmışdır.

Müasir dövrdə dünya iqtisadiyyatının xarakterik cəhətlərinin ümumi şəkildə aşağıdakı şəkildə qeyd etmək olar:

1. Dünya iqtisadiyyatının bütövlüyünün artırılması, istehsal və istehlakçılar üçün əhəmiyyətli şəraitin yaradılması;
2. Sərhəd tanımayan TMK və TMB-lərin genişlənən fəaliyyəti;

3. Rəqabətin dünya ölkələri səviyyəsində kəskinləşməsi, beynəlxalq əməkdaşlığın daha da genişlənən miqyası;

4. Dünya iqtisadiyyatının idarə olunmasında ümumdünya qanunvericiliyi və siyasi çərçivələrin təşəkkülü;

5. Hərbiləşməyə və ideoloji qarşıdurmaya qarşı birgə səyi təbliğ edən, bazar münasibətlərinin daha da təkmilləşməsi yolu ilə yeni qaydaların yaranmasına təkan verən münasibətlərin geiş miqyasda təbliği;

6. Dünya iqtisadiyyatında 2 yolla keyfiyyətcə yeni beynəlmilliləşməyə nail olmaq:

a) regional inteqrasiya bloklarının yaranması ;

b) bazarların qloballaşması. (Karagül M., 2018).

## 1.3.Dünya iqtisadiyyatının inkişaf qanunauyğunluqları, istiqamətləri və tərkib elementləri

Dünya iqtisadiyyatının inkişaf qanunauyğunluqları olduqca müxtəlifdir. Ümumi şəkildə dünya iqtisadiyyatının inkişaf qanunauyğunluqlarına 4 ayrı səpkidə baxmaq olar:

- Kapitalın transmilliləşmə səviyyəsi;
- Beynəlxalq və regional inteqrasiya;
- Dünya iqtisadiyyatının qloballaşması prosesi;
- Qlobal inkişafın qeyri-bərabərliyi (Karagül M., 2018).

Kapitalın transmilliləşmə səviyyəsi dedikdə, kapitalın yerdəyişməsi nəzərdə tutulur. Belə ki, kapital bolluğu olan ölkədən, kapitalın qıt olduğu ölkəyə doğru kapitalın yerdəyişməsi baş verir ki, bu da özlüyündə dünya iqtisadiyyatının inkişafında İEOÖ-lərin və ya keçid iqtisadiyyatlı ölkələrin iştirakına şərait yaradır. Kapitalın transmilliləşməsi özündə yeni yaranışlar, köklü dəyişiklikləri təcəssüm etdirir. Bu prosesdə kapitalın beynəlxalq səviyyədə hərəkətini həyata keçirən subyektlər qismində TMK və TMB iştirak edir. Kapitalın transmilliləşmə prosesinə müştərək müəssisələrin

yaradılması, xarici maliyyə mənbələrindən vəsaitlərin cəlb edilməsi,bankların, xidmət sferası və sənaye kompaniyalarının milli sərhədləri aşaraq, beynəlxalq müstəvidə fəaliyyət göstərməsi və s aid edilir (Şəkərəliyev A., Əliyev A., Dadaşov İ., 2003).

İnteqrasiya prosesi, iqtisadiyyatda ümumi siyasətin formalaşdırılmasını və reallaşdırılmasını özündə təcəssüm etdirir. Beynəlxalq inteqrasiya BƏB nəticəsində,müxtəlif inteqrasiya növlərini özündə cəmləşdirən təsərrüfat sistemlərinin birləşməsidir. Beynəlxalq inteqrasiyanın müasir xüsusiyyətləri:

- Qlobal subregionalizm;
- Qeyri-müntəzəmlik;
- Dinamizm;
- Dezinteqrasiya ilə birlikdə baş vermə;
- Qlobal iqtisadi inteqrasiyası üçün real şəraitin yaranması (https://yazbuz.com/entegrasyon/, 14.11.2019).

Beynəlxalq iqtisadi inteqrasiyanın mərhələlərini aşağıdakı şəkildə qeyd etmək olar:

- İqtisadi ittifaq ;
- Ümumi bazar;
- Azad ticarət zonası ;
- Gömrük ittifaqı;
- İqtisadi və valyuta ittifaqı.

Beynəlxalq inteqrasiyanın baş verməsinin səbəbi bir sıra məqsədlərdən irəli gəlir. Müasir dövrdə inteqrasiyanın məqsədlərini aşağıdakı şəkildə qeyd edə bilərik:

- əlverişli xarici iqtisadi mühitin formalaşdırılması;
- təchiz edilməsi baxımından əhəmiyyətli olan əmtəə və xidmət nomenklaturasının çoxçeşidli olması və bununla bağlı istehsal həcmində yaranan artım;
- ticarət siyasəti ilə birbaşa və ya dolayı bağlı olan məsələlərinin həlli;
- iqtisadiyyatın üstünlüklərindən faydalanmağın geniş miqyaslı reallaşdırılması;
- əsas sahələr olan sənaye, xidmət və kənd təsərrüfatı sahələrinin dəstəklənməsi;

– milli iqtisadiyyatların struktur rekonstruksiyasına kömək və s. (Arı T., 2006).

Qeyd edilənlərlə yanaşı, beynəlxalq iqtisadi inteqrasiyanın təməlində bir sıra obyektiv amillər mühüm yer tutur. Amillərə təsərrüfat həyatının qloballaşması, elm-texniki inqilab, beynəlxalq əmək bölgüsünün dərinləşməsi, milli iqtisadiyyatların "şəffaflığının" artırılması və s aiddir.

Regionlaşma əsasən bir region daxilində olan ölkələrin siyasi, mədəni, iqtisadi və digər sahələrdə inkişaf edib, möhkəmlənməsini özündə təcəssüm etdirir. Regionlaşmanın əsas məqsədi kimi azad ticarət zonasının yaradılması, daha da genişlənməsi, insan və kapital axınına sərbəst şəraitin yaradılması qeyd etmək olar. Müasir dövrdə regionlaşmanın əsasında sosial-mədəni komponentlər daha çox nəzərə çarpır.

Dünya iqtisadiyyatının qloballaşması prosesi beynəlxalq iqtisadi inteqrasiyanın ən ali formasıdır. Bu proses özündə iqtisadi birliklərin yaradılması, müasir cəmiyyətin inkişafında beynəlxalq institutların və TMK-ların fəaliyyətinin əvəzolunmaz xüsusiyyətini təbliğ edir.

Qloballaşma prosesi olduqca əhəmiyyətli olmasına baxmayaraq, bu proses dünya ölkələri arasında ziddiyətlərin yaranmasına səbəb olur. Ölkələr arasında yaranan ziddiyyətliliyi aşağıda qeyd olunan şəkildə xarakterizə etmək olar:

- Dünya bazarında bir-biri ilə rəqabət aparan 3 nəhəng mərkəz arasındakı ziddiyət: Qərbi Avropa, ABŞ və Asiya-Sakit okean regionu;
- "Şimal -Cənub" ziddiyəti, Bu ziddiyyətdə Şimal ölkələri qrupu dedikdə, sənayecə İEÖ, cənub ölkələri qrupu qismində isə İEOÖ çıxış edir;
- "Qərb-Şərq" ziddiyəti. Qərb ölkələri əsasən İEÖ, Şərq ölkələri dedikdə isə,keçmiş sosialist ölkələri nəzərdə tutulur;
- İEOÖ-yeni sənaye ölkələri və İEÖ-yeni sənaye ölkələri arasındakı ziddiyyətlər (Kərimov C. Orucov A., və İsrafilov H., 2007).

Dünya iqtisadiyyatının strukturuna nəzər salsaq, dünya iqtisadi sistemin nizamlanmış, lakin heterogen elementlərdən ibarət olduğunu aydın şəkildə görə bilərik. Dünya iqtisadi sistemin əsas struktur elementlərini aşağıdakı şəkildə qeyd edə bilərik.

**Şəkil 3:Dünya iqtisadi sistemin struktur elementləri**




**Mənbə:** http://anl.az/el/Kitab/2013/2003-1647.pdf məlumatları əsas götürülərək, müəllif tərəfindən hazırlanmışdır.

Milli təsərrüfat subyektləri bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Fərqləndirici xüsusiyyətləri aşağıdakı şəkildə qeyd edə bilərik:

- Təsərrüfat subyektinin iqtisadiyyatının səviyyəsi və artım tempi;
- Təsərrüfat subyektinin iqtisadiyyatının struktur və miqyası;
- BİM sistemində iştirak səviyyəsi və forması, BƏB sistemində rolu;
- Seçdiyi sosial-iqtisadi model və makroiqtisadi durumu və s.

Dünya iqtisadiyyatı mürəkkəb quruluşa malik sosial-iqtisadi sistemdir. Hər sistemin olduğu kimi dünya iqtisadiyyatı sisteminin də sistemdaxili elementləri mövcuddur. Sistemdaxili elementləri aşağıdakı kimi qeyd edə bilərik:

- Strukturluq;
- çoxsəviyyəlilik;

- aktorların iyerarxiyası (actor dedikdə, iqtisadi fəaliyyətin birbaşa iştirakçıları nəzərdə tutlur);
- beynəlxalq və transmilli səviyyədə dünya iqtisadiyyatı.

Dünya iqtisadiyyatı mexanizminin işləməsini təmin edən komponentlərin təsnifatını isə aşağıdakı şəkildə qeyd edə bilərik:

- təşkilati-iqtisadi institutlar;
- iqtisadi alətlər sistemi;
- milli, regional və beynəlxalq səviyyədə təşkilati tədbirlər.

Dünya iqtisadiyyatı daim hərəkətdə olan bir sistem kimi özündə bir sıra xarakterik xüsusiyyətləri ehtiva edir:

- ***İyerarxiyalıq.*** Dünya iqtisadiyyatının əsas subyektlərindən olan dünya ölkələri arasında sosial-iqtisadi inkişaf səviyyələrinə görə müəyyən iyerarxiya mövcuddur. Belə ki, dünya bazarında dominant mövqeyinə görə, əsas təsiretmə gücü İEÖ-in payına düşür.
- ***Bütövlük.*** Dünya iqtisadi sisteminin daim inkişafı üçün onun fərqliliklərinə baxmayaraq, bütöv bir sistem kimi fəaliyyət göstərməsi vacib şərtdir.
- ***Özünü tənzimləmə və adaptasiya.*** Dünya iqtisadiyyatı həm tələb və təklif mexanizmi, həm də dövlət və dövlətlərarası tənzimləmənin köməyi vasitəsilə özünü tənzimləməni həyata keçirə bilir. Müasir dünya iqtisadiyyatının inkişafında əsas meyl kimi milli təsərrüfatlararası qarşılıqlı asılılığın artım tempi özünü biruzə verir. (Bayramov Ə.İ. və Hacıyev Ş.H. , 2010).

Ümumiyyətlə, qeyd olunan ziddiyyətlərə baxmayaraq, dünya iqtisadiyyatı bütövlük xüsusiyyətinə malikdir. Belə ki, dünya ölkələri bir-birindən təcrid olunmuş şəkildə deyil, vəhdət şəklində fəaliyyət göstərməlidirlər. Bu halda beynəlxalq ticari-iqtisadi münasibətlər inkişaf edib, beynəlmilliləşə bilər.

Dünya ölkələrinin bütövlüyünü xarakterizə edən xüsusiyyətləri aşağıdakı kimi qeyd etmək olar:

- Təsərrüfat münasibətlərinin beynəlmilliləşməsi və inteqrasiya birliklərinin fəaliyyəti;
- Beynəlxalq əmək bölgüsünün mövcudluğu;
- Fərqli iqtisadi inkişaf səviyyələrinə və siyasi quruluşlarına baxmayaraq, ümumi iqtisadi qanunun qüvvədə olması;
- Demək olar ki, bütün dünya ölkələrində istehsal güclərinin inkişafını dəstəkləyən və sürətləndirən ETT tətbiqi.

Müasir dövrdə dünya iqtisadiyyatının inkişafını şərtləndirən amil kimi elmi-texniki tərəqqinin tətbiqi olduqca vacibdir. Texnoloji yeniliklərin tətbiqi dünya iqtisadiyyatında aşağıdakı təzahürləri əks etdirir:

- İstehsalın diversifikasiyası;
- Sənaye sahəsində III sektorun yaranması;
- İnformasiya iqtisadiyyatının genişlənən miqyasda tətbiqi;
- İqtisadiyyatın beynəlmilliləşməsi və s. (C.Weiss, 2015).

Qlobal iqtisadi inkişafın müasir istiqamətləri özünü 3 fərqli səpkidə göstərir :

1. Geoiqtisadi dəyişiklik;
2. Texniki-iqtisadi inkişaf;
3. Yeni dünya qaydası.

Geoiqtisadi dəyişikliklər, iqtisadi və siyasi müstəvidə baş verən yenilikləri özündə əks etdirir. Geoiqtisadi dəyişikliklər aşağıda qeyd olunan amillər nəticəsində mövcud olub, daha da fəaliyyət sferasını genişləndirməkdədir :

- əhalinin sağlamlıq və təhsil səviyyəsinin mühafizəsi;
- elmin durmadan, daim inkişafı;
- ətraf mühitin təmizliyinə diqqətin daha da artırılması və həyatın yüksək keyfiyyətliliyi;
- informasiya-kommunikasiya sistemlərinin daha geniş miqyasda tətbiqi və s. (Başoğlu U., Ölmezoğlulları N. və Parasiz İ., 2001).

Texniki-iqtisadi inkişaf müasir dövrdə dünya iqtisadiyyatının ayrılmaz tərkib hissəsi olan texnik və texnologiyanın tətbiqinin iqtisadiyyatda yaratdığı yenilikləri özündə təcəssüm etdirir. Hal-hazırda İEÖ-lərin ÜDM-in 70-85 %-i ETT-in tətbiq edildiyi sferalardan əldə olunan vəsaitin payına düşür. Bununla da İEÖ texnika və texnologiyanın tətbiqində liderliyini qorumaqda davam edir.

Yeni dünya qaydasında yuxarıda qeyd edilənlərdən fərqli bir yanaşma öz əksini tapır. Belə ki, bu qaydaya əsasən müasir dövrdə artıq ayrı-ayrı dövlət hakimiyyəti deyil, beynəlxalq institutlar tərəfindən nəzarətin həyata keçirilməsi ön planda yer alır. Bu prosesi gerçəkləşdirmək üçün aşağıdakı metodların tətbiqi reallaşırdırılır:

- ölkələrin beynəlxalq institutların maraq dairəsinə salınaraq idarə edilməsini gerçəkləşdirmək;
- transmilli kapitalın ölkələrarası azad hərəkətinə maneələrin aradan qaldırılması;
- milli iqtisadiyyatların ideoloji,siyasi asılılığının yaradılması;
- dünya iqtisadiyyatı subyektlərinin xarici iqtisadi mübadilədə borc asılığına və qeyri-ekvivalent rejimə salınması və s. (Kərimov C. Orucov A., və İsrafilov H., 2007).

Dünya iqtisadiyyatının tərkib elementləri dedikdə, dünya iqtisadiyyatının subyektləri qismində çıxış edən dünya ölkə qrupları, beynəlxalq, regional təşkilatlar, beynəlxalq iqtisadi münasibətlərin digər iştirakçıları və s nəzərdə tutulur. Bütün bunlar haqqında növbəti fəsillərdə daha ətraflı məlumat öz əksini tapacaq.

## II FƏSİL. DÜNYA İQTİSADİYYATININ, BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN İNKİŞAFINI ŞƏRTLƏNDİRƏN ƏSAS HƏRƏKƏTVERİCİ QÜVVƏLƏR

### 2.1.Dünya iqtisadiyyatı arxitekturasının əsas hərəkətverici qüvvəsi timsalında dünya ölkələri

I fəslin sonunda qeyd olunduğu kimi dünya iqtisadiyyatının əsas subyektləri qismində,əsasən,dünya ölkələri, beynəlxalq iqtisadi təşkilatlar çıxış edir. Müasir dövrdə dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi əlaqələrin əsas təkanverici subyekti qismində dünya ölkələri çıxış edir. Dünya ölkələrinin inkişafı və beynəlxalq iqtisadi əlaqələrin dünya ölkələrinin sərhədlərindən kənara çıxması, dünya iqtisadiyyatının strukturunun dəyişməsinə gətirib çıxarmışdır. Belə ki, ölkələr arasında iqtisadi əlaqələrin genişlənməsi nəticəsində ölkələrarası iqtisadi əlaqələr özünü yeni müstəvidə-beynəlxalq irimiqyaslı iqtisadi təşkilatların yaranmasına gətirib çıxarmışdır. Lakin beynəlxalq iqtisadi təşkilatlara keçməmişdən öncə dünya ölkələrinin strukturunun, təsnifatının, dünya iqtisadiyyatına təsir imkanları və mövcud vəziyyətdə rolunun araşdırılması daha məqsədəuyğundur.

Ümumiyyətlə, dövlətin hansı idarəetmə üsulu ilə idarə edilməsi, ölkənin sosial-iqtisadi durumu, korrupsiyaya, insan amilinə, demokratiyaya münasibəti və s bu kimi məsələlər ölkə iqtisadiyyatına təsir etməklə bərabər, dünya iqtisadiyyatına da təsiri yan keçməmişdir. Yuxarıda qeyd olunanlara misal kimi SSRİ-i göstərmək olar. 1917-ci ildə baş verən inqilab nəticəsində Rusiya Federasiyası dünya iqtisadiyyatından demək olar ki, təcrid olundu. Təcrid olunma bütövlükdə dünya iqtisadiyyatına təsir etdi. Belə ki, bir sıra subyektiv mühakimələr əsasında yaradılmış və əsasən "şəxsiyyətə pərəstiş" ideologiyası əsasında idarə olunan SSRİ dünya iqtisadiyyatına hərtərəfli neqativ təsir edirdi. Hərtərəfli neqativ təsir dedikdə, BƏB-in sürətlənməsi, istehsalın səmərliliyinin artırılması, istehsalın beynəlmilliləşdirilməsi, insan amilindən səmərəli istifadə, beynəlxalq iqtisadi əlaqələrin inkişafını və həmçinin qlobal miqyaslı

problemlərin həllini ləngidirdi. Əsasən obyektiv özül əsasında qurulan SSRİ-in dağılmasına baxmayaraq, lakin hal-hazırda da Rusiyanın və MDB ölkələrinin sosial, iqtisadi, psixoloji, siyasi, mənəvi vəziyyətləri dünya iqtisadiyyatının sürətləndirilməsinə kömək göstərməkdən nisbətən uzaqdır. Bunun əsas səbəbi kimi bu ölkələrin köhnəyə əsaslanan psixoloji baryerlərinin və uzunmüddətli dövrdə obyektiv sosial-iqtisadi qanunlara biganə olmasını qeyd etmək olar (Əliyev A, Şəkərəliyev A, Dadaşov İ. , 2003).

Ümumiyyətlə, dünya ölkələri sosial-iqtisadi inkişaf xüsusiyyətlərinə görə bir-birindən tamamilə fərqlənir. Dünyanın iqtisadi gücü dünya ölkələri arasında qeyri-bərabər bölünmüşdür. İqtisadi cəhətdən inkişaf etmiş ölkələrin daim iqtisadi cəhətdən geri qalan ölkələri idarə etməsi, öz "çirkli" sənaye sahələrini daim onların ərazisində realizə etməsi və bu kimi durumlar tarix boyu izlənilmişdir. Hər iki yarım qrup ölkələrin özünəməxsus inkişaf xüsusiyyətləri vardır.

Belə ki, inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatına təsiri universaldır. Yəni dünya iqtisadiyyatına təsiri tək istiqamətli olmayıb, kompleks xarakter daşıyır. Dünya iqtisadiyyatında İEOÖ-in inteqrasiyasına şərait yaratmaqla, onların dünya iqtisadi sistemdə rol oynamalarına şərait yaradır. Bununla da, dünya iqtisadiyyatında iqtisadi inkişaf baxımından geri qalan ölkələrin inteqrasiyası reallaşır. İnkişaf etmiş ökələrin təsərrüfat münasibətlərinin, xarici və daxili iqtisadi inkişafı dünya iqtisadiyyatında ETT-in tətbiqinin sürətlənməsinə və bu tətbiqdən yaranan struktur dəyişikliklərinin əsas istiqamətlərini və dünya bazarının vəziyyətini müəyyənləşdirir (Karagül M., 2018).

İnkişaf etmiş ölkələr öz sosial-iqtisadi quruluşlarına görə bir sıra ümumui xüsusiyyətlərə malikdir:

– *İstehsal amilləri üzərində xüsusi mülkiyyətin əsasən üstünlük təşkil etdiyi "kapitalist-istehsal münasibətlərinin" yüksək səviyyədə inkişafı.* Həmçinin , kapitalist-istehsal münasibətləri istehsal olunmuş məhsulun bölgü, mübadilə, istehlak formalarını və xarakterini müəyyən edir. Təbii haldır ki, malların istehsalı və xidmətlərin

göstərilməsi hər zaman bazar münasibəti xarakteri daşıyır- bütün mal və xidmətlər mübadilə üçün istehsal edilir.

- *Sənaye yönümlü məhsuldar qüvvələrinin mütləq hakimliyi.* Bu xüsusiyyət əsasən sənaye iqtisadiyyat yönümlü təsərrüfat subyektləri olduğunu diqqətə çatdırır. Belə ki, tək məhsul istehsalında deyil, həmçinin xidmət sahəsində əməyin mexanikləşdirilməsinin həyata keçirilməsinin reallaşdırılması.

- *İEÖ-in iqtisadi inkişafının yüksək səviyyəsi.* Bu xüsusiyyətinə görə İEÖ-lər adambaşına düşən ÜDM həcminə görə dünya üzrə qəbul olunmuş orta səviyyəni 4,5 dəfə üstələyir. Gəlirliliyin artmasının həlledici rol oynaması istehsalatda əsasən əmək məhsuldarlığını yüksəltməyə, müasir texnika-tenologiyanın, innonativ idarəçilik sistemlərinin tətbiqinə həvəsləndirir. Müasir dövrün tələblərinə uyğun mallar və xidmətlər, məhsul çeşidinin artması səbəbindən məhsulların nisbətən ucuzlaşması satış bazarlarını daha da genişləndirir. Bütün bunların nəticəsində nisbətən az məsrəflərlə daha keyfiyyətli əmtəə istehsal edən müəssisələr rəqabət mübarizəsində qalib gəlir.

- *İnkişaf etmiş ölkələrin əsasən ixrac yönümlü siyasəti gerçəkləşdirməsi.* Sənayenin sürətli inkişafı, diversifikasiyası nəticəsində yüksək ixtisastutumlu sahələrin inkişafı və bunun nəticəsində, ixrac potensialının artması, ixracda hazır əmtəə və xidmətlərin üstünlük təşkil etməsinə gətirib çıxarmışdır. Təbii ki, bu o demək deyil ki, İEÖ idxal etmir, idxal da olduqca hakim mövqeyə malikdir. Buna misal olaraq ABŞ-ı göstərmək olar. ABŞ idxalda payına görə dünya statistkasında lider mövqedə iştirak edir. Belə ki, idxalında əsasən xam məhsulların payı daha çox üstünlük təşkil edir.

- *İnvestisiya payının üstünlük təşkil etməsi.* Daha çox diqqəti çəkən xüsusiyyətlərdən biri də İEÖ öz kapital ehiyatlarını İEOÖ-ə doğru yönəltməsi və bunun sayəsində İEÖ həm "çirkli" sənaye sahələrini onların ərazisində gerçəkləşdirməklə öz ətraf mühitinin ekoloji tarazlığının qorunmasına müvəffəq olur, həm də nisbətən zəif inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının "dirçəlməsinə" şərait yaradır. Bununla da iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasına təkan verilir. (Peter B., 2008).

Yuxarıda qeyd olunanlara əlavə olaraq , bir sıra xüsusiyyətləri xülasə şəklində aşağıdakı cədvəldə qeyd etmək olar.

**Şəkil 4: İnkişaf etmiş ölkələrin xarakterik xüsusiyyətləri**




**Mənbə:** Müxtəlif mənbələrdən əldə edilmiş məlumatların ümumiləşdirilməsi aparılaraq müəllif tərəfindən tərtib edilmişdir.

İstehsalın daxili amillərinin ümumiliyinə baxmayaraq, ictimai-iqtisadi yəni, sosial-iqtisadi strukturun, sosial proseslərin və təsərrüfatçılığın tənzimlənməsi mexanizmlərinin müxtəlif tərzdə birləşməsi, və ya elementlər toplusunun müəyyən oxşar xüsusiyyətlərə malik olması inkişaf etmiş ölkələrin milli iqtisadiyyatının tipini müəyyən edir. İEÖ-in təsərrüfat quruculuğuna görə bir-birindən fərqlənən bir neçə modelləri mövcuddur. Belə ki, təsərrüfat mexanizminin ayrı-ayrı elementlərinin - dövlət, bazarların institusional quruluşu roluna istinad etməklə, milli iqtisadi sistemlərin bir neçə modelini fərqləndirmək olar. (Bresser-Pereira L.C., 2012).

Qeyd olunan müxtəlifliklərlə bağlı təsnifatı aşağıdakı cədvəldə göstərmək olar.

**Şəkil 5: Milli iqtisadi sistem modelləri**




Mənbə:https://www.scielo.br/scielo.php?pid=S0101-31572012000100002&script=sci_abstract məlumatları əsasında hazırlanmışdır.

***Liberal model.*** Bu modelə nümunə kimi ABŞ iqtisadiyyatını göstərmək olar. Bu təsərrüfat modeli xüsusi institusional-səhmdar mülkiyyətinin üstünlüyü (səhmlərin 45-65%-i institusional investorların sahibliyində ) və investisiyalar, istehsal, satış, işçi qüvvəsindən istifadə olunmasında şəxsi qərarların hökmranlığı ilə səciyyələnir. Dövlət mülkiyyəti məhduddur, əsasən torpağı və istehsal infrastrukturunu və əhatə edir. Hökumət bir sıra hallarda mikro və makroiqtisadi proseslərdə fəal rol oynayır.

Bu model anqlosakson və ya darvinçi adını almışdır. Belə ki, bu modeldə tarixi-mədəni ənənələrə uyğunluq hələ də öz mövqeyini qoruyub saxlamışdır. Bu modelə xas xüsusiyyətləri aşağıdakı ardıcıllıqla qeyd etmək olar:

1. həmkarlar hərəkatının zəifliyi;
2. özəl müəssisələrin dominantlığı- burada əsasən investorlara qısa müddətdə maksimum mənfəət təmin edən müəssisələr nəzərdə tutulur;
3. əmək qanunvericiliyinin məhdudluğu;
4. əmək haqları dəyişikliyi barədə danışıqların mərkəzləşdirilmiş qaydada aparılmasının reallaşdırılması və s.

ABŞ-dan başqa, bu sistem İrlandiya, Yeni Zelandiya, Kanada, Avstraliya və Britaniyada yayılmışdır.

***Liberal-sosial model.*** Liberal-sosial model liberal modelə nisbətən yaxındır. Bu modelə xas olan ölkələrdə dövlətin həyata keçirdiyi sosial müdafiə sistemi inkişaf etmiş, nisbətən sabit səhmdar kapital sahiblərinə malik, tənzimlənən bazar təsərrüfatıdır. Təsərrüfat mexanizminin bu modeli liberal modeldən fərqli olaraq Avropanın Şimali-Qərb ölkələrində daha geniş yayılmışdır. Bu ölkələrin iqtisadi modelinə xas əsas xarakterik cəhətlərə aid edilir:

1. əmək haqqının sabitliyi;
2. əmək müqavilələrinə dəyişiklik barədə müxtəlif irimiqyaslı danışıqların reallaşdırılmasını mümkün edən geniş əhatəli əmək qanunvericiliyinin mövcudluğu;
3. get-gedə zəifləyən,lakin kifayət qədər güclü həmkarlar ittifaqı hərəkatı və s.

***Sosial-korporativ model.*** Bu model əsasən bazarın dövlətin təşkilatlanmış sosial-iqtisadi qruplarla birgə (həmkarlar ittifaqları,sahibkarların birlikləri) tənzimlənməsində iştirakının intensiv formalarının müşahidə olunduğu tənzimlənən bazar sistemini təmsil edir. Sosial korporativ və ya sosial demokratik model dövlət sahibkarlığının yüksək səviyyəsi ,sosial-demokrat hökumətin uzun müddət hakimiyyətdə mövcudluğu ilə fərqlənən ölkələrdə üstünlük təşkil edir (İsveç, Avstriya və s). Bu modelin başqalarından fərqli cəhətləri kimi aşağıdakıları qeyd etmək olar:

1. ayrı-ayrı qrupların mənafelərinin bütöv halda-mərkəzləşdirilmiş sistem vasitəsilə ifadəsi;
2. sosial əməkdaşlıq ideologiyası ;
3. iqtisadi proses iştirakçılarının maraqlarının toqquşması zamanı əsasən könüllü surətdə danışıqlar yolu ilə aradan qaldırılmasının realizəsi və s.

Dünya iqtisadiyyatının əsas subyektlərindən birini də inkişaf etməkdə olan ölkələr qrupu təşkil edir. İnkişaf etməkdə olan ölkələr qrupu adətən arxa planda qalsalar da, əsas hərəkətverici subyekt qismində çıxış edirlər. Belə ki, bu qrupa aid olan ölkələr

əsasən xammal ehtiyatları ilə zəngin olmaqla bərabər, ağır sənaye sahələrini özündə cəmləşdirməklə dünya iqtisadiyyatının inkişafına güclü təkan verirlər. Ümumiyyətlə, İEOÖ zəif inkişaf etmiş iqtisadiyyata, aşağı standartlı iqtisadi inkişafa, istehsala, xidmət və sosial durumun xas olduğu ölkələr qrupudur. İEOÖ-in iqtisadiyyatında emal sənayesinin ÜDM-də payı 10-15 % təşkil edir. Bu qrupa daxil olan ölkələrə köhnə düşüncəlilik xasdır. Bazar münasibətlərinin xüsusiyyəti isə "imitasiya" xarakteri daşıyır. İEOÖ modernizasiya hazırlıqsızlıq mövqedə olduqlarından iqtisadiyyatları adətən qeyri-mütərəqqi formada inkişaf edir.

**Şəkil 6: İnkişaf etməkdə olan ölkələrin xarakterik xüsusiyyətləri**




**Mənbə:** Müxtəlif mənbələrdən əldə edilmiş məlumatların ümumiləşdirilməsi aparılaraq müəllif tərəfindən tərtib edilmişdir.

İnkişaf etməkdə olan ölkələrin özlüyündə yarımqruplara bölünür:

1. Zəif inkişaf etmiş ölkələr - bu yarımqrupa aid edilən ölkələr aşağı iqtisadi inkişaf templi ölkələrdir. Bu qrupa daxil olan ölkələrə misal olaraq Cənubi Asiyanın bəzi, Latın Amerikasının bir sıra, tropik Afrikanın əksər və Okeaniyanın praktiki olaraq bütün ölkələrini qeyd etmək olar.

2. Özləri inkişaf edən ölkələr – adətən aqrar və xammal təsərrüfatçılığından diversifikasiya olunmuş sənaye kompleks yönümlü ixtisaslaşma xasdır. Özlüyündə 3 yarımqrupa bölünürlər:

- ölkənin sahəsindən irəli gələrək demək olar ki, bütün mütləq iqtisadi göstəriciləri yüksək olan ölkələr (Hindistan, Meksika, Çin və s);
- Yeni sənaye ölkələri (Cənubi Koreya, Malayziya,Sinqapur,Tayvan və s.);
- Resurs üzrə ixtisaslaşma – bu qrupa daxil edilən ölkələr adətən neftlə ixtisaslaşmış mövqedə çıxış edirlər.

3. Sosializm eksperimentini psixologiyasını davam etdirən ölkələr (Kuba, Vyetnam, Şimali Koreya, Laos). (Bayramov Ə.İ. və Hacıyev Ş.H. , 2010).

Dünya iqtisadiyyatının inkişafında İEOÖ-in geri qalmasının bir sıra səbəbləri vardır. Bunlardan ən başlıcası kimi tarixi amili qeyd etmək olar. Uzun müddət yarımmüstəmləkə və müstəmləkə sistemində yaşamaları iqtisadi cəhətdən onların geri qalmasına şərait yaratdı. Bundan başqa iqtisadi amillərin təsiri də olduqca mühüm rol oynamışdır. İqtisadi amillərə misal kimi aşağıdakıları qeyd etmək olar:

- əsasən xammal yönümlü iqtisadiyyat ;
- çoxukladlılığın hakim mövqedə olması ;
- istehsal amillərinin inkişaf səviyyəsinin çox aşağı olması ;
- satış bazarının İEÖ-də olması ilə bağlı yaranan asılılıq.

Sosial amilərə nümunə kimi əsasən zəif sosial infrastruktur hökmranlığı, məhdud həyat keyfiyyəti göstəriciliyi qeyd etmək olar.

Müasir dövrdə İEOÖ-in dünya iqtisadiyyatına inteqrasiyanı sürətləndirmək məqsədi ilə bir sıra sosial-iqtisadi inkişaf strategiyaları tətbiq olunur. Bu kimi strategiyaların məqsədi əsasən geriliyin aradan qaldırılması, ənənəvi təsərrüfat strukturlarının yeni-innonativ sistemlərlə əvəzlənməsi, dünya iqtisadiyyatına inteqrasiyasını sürətləndirmək təşkil edir. Yuxarıda qeyd olunanları gerçəkləşdirmək üçün əsasən 2 modeldən istifadə edilir : 1) idxalıəvəzləyən və 2) ixrac yönümlü (Mukherjee S., 2012).

I model əsasən, milli sənayenin dünya bazarının hegemon təsirindən müdafiəsini özündə təcəssüm etdirərək, yerli istehsalı təşviqi nəticəsində, sənaye məmulatlarının idxalının əvəzlənməsini nəzərdə tutur. İdxalı əvəzləyən model milli istehsalın inkişafının yüksəldilməsi ilə daxili bazarın təmin edilməsi strategiyasını reallaşdıraraq, proteksionizmi və sərt milli valyuta kursunun gerçəkləşdirilməsini əsas götürərək, tədiyə balansının strukturunun daha da yaxşılaşdırılmasına, daxili bazar tələbinin normallaşmasına, istehsal və elmi potensialın inkişafına, məşğulluğun təminatına zəmin olur.

II modelin inkişaf strategiyası isə, istehsal prosesinin həyata keçirilməsi zamanı əsas diqqətin dünya bazarına rəqabətqabiliyyətli məhsulun çıxarılması üzərində qurulmasını nəzərdə tutur. Bu modelin mühüm üstün cəhəti odur ki, bu zaman ölkənin dünya iqtisadiyyatına inteqrasiyası daha sürətli olur, dünya resurslarının əldə olunması və mütərəqqi texnologiyalardan istifadəyə geniş imkanlar əldə olunur. Beləliklə də, rəqabətqabiliyyətli istehsal qurulması nəticəsində, maliyyə vəsaitlərinin ölkəyə axını baş verir ki, bunun nəticəsində digər sahələrin inkişafına investisiya vəsaitlərinin yerləşdirilməsi gerçəkləşdirilir. Bu modeli tətbiq edən ölkələrə nümunə kimi Afrikanın bəzi ölkələri, Meksika, Venesuella, Tayland, Malayziya və s qeyd etmək olar. Bu modelin tətbiqini yalnız İEOÖ deyil, həmçinin İEÖ-in bəziləri tətbiq edir (Cənubi Koreya, Yaponiya və s).

Ümumiyyətlə iqtisadi geriliyin aradan qaldırılması üçün bir sıra tədbirlərin görülməsi mütləqdir. Bu kimi tədbirlərə aşağıdakıları qeyd etmək olar:

- aqrar münasibətlərin effektli yenidən qurulması və təsərrüfat həyatının liberallaşması;
- milli inkişaf strategiyalarının işlənib- hazırlanması zamanı kompleks yanaşmada ölkənin daxili resurs potensialına istinad edilməsi;
- səmərəli demoqrafik siyasətin formalaşdırılması ;
- bərabərsizliyin yumşaldılıması ;

– “beyin axın”-ın İEÖ-dən İEOÖ-ə doğru axınının stimullaşdırılaraq daha da təşviq edilməsi və s. (Mukherjee S., 2012).

Dünya iqtisadiyyatının dinamikliyini təcəssüm etdirən bir qolu kimi beynəlxalq ticarəti qeyd etmək olar. Ölkələrin dünya beynəlxalq ticarətdə iştirakını payını xarakterizə edən bir sıra göstəricilər mövcuddur. Bu göstəriciləri aşağıdakı ardıcıllıqla qeyd etmək olar:

- İqtisadiyatın açıqlıq dərəcəsini xarakterizə edən göstərici kimi ölkə iqtisadiyyatının idxal və ixracının adambaşına düşən həcmi;
- idxal (ixrac) kvotası – idxalın (ixracın) dəyərinin ÜMM / ÜDM -a nisbəti;
- sahə səviyyəsində xüsusi çəki - ümumi istehsalda tədqiq edilən sahənin ixrac etdiyi məhsul və xidmət payının ümumi istehsala nisbəti;
- ölkənin dünya ÜDM və ya ÜMM istehsalındakı xüsusi çəkisinin,ölkən iqtisadiyyatının dünya ticarətindəki xüsusi çəkisinə nisbəti. (Hacızadə E., 2015).

Kapitalın beynəlxalq arenada hərəkətinin xarakteri uzunmüddətli dövrdə sabit qalmışdır. Burada əsas məsələ kapitalın hansı növündən bəhs edilməsindən gedir. Belə ki, dünya iqtisadiyyatının inkişafına təkan verən amillər arasında kapital mühüm rol oynayır. Kapitalın insan kapitalı, yoxsa portfel və ya birbaşa xarici investisiya şəklində reallaşdırılması bir sıra fərqli xüsusiyyətlərə malikdir. Fərqli xüsusiyyətlərin olmasına baxmayaraq, ölkə iqtisadiyyatında kapitalın beynəlxalq hərəkətini təcəssüm etdirən bir sıra sabit qəbul edilmiş standart göstəricilər mövcuddur:

- Ölkə daxilində realizə edilən xarici investisiyaların həcminin ümumi investisiya həcminə nisbəti ;
- Ölkənin xarici borc həcminin ölkənin ixrac həcminə və ölkə ÜDM-ə nisbəti ;
- Ölkə iqtisadiyyatında xarici investisiyaların həcmi və ölkə ÜDM (və ya ÜMM)-na nisbəti və s.

Yekun olaraq, dünya iqtisadiyyatının əsas subyektləri qismində çıxış edən bir sıra ölkələrin statistik göstəricilərinin təhlili qeyd olunmuşdur. Belə ki, aşağıda

göstəriləcək statistik göstəricilərə ixrac, idxal, ÜDM həcminə görə sıralama aid edilmişdir.

**Cədvəl 1: 2015-2018-ci illər üzrə əsas ticarət ölkələrinin ixrac, idxal, saldo statistikası**

| İllər | Ölkə | İxrac | İdxal | Saldo |
|---|---|---|---|---|
| 2015 |  | 1501845863.84 | 2313424569.33 | -811578705.49 |
| 2016 | | 1450906272.96 | 2247167254.44 | -796260981.48 |
| 2017 | | 1545809598.15 | 2405276626.66 | -859467028.5 |
| 2018 | | 1665302936.59 | 2611432490.16 | -946129553.57 |
| 2015 |  | 2273468224.11 | 1679564324.56 | 593903899.55 |
| 2016 | | 2097637171.9 | 1587920688.16 | 509716483.74 |
| 2017 | | 2263370504.30 | 1843792938.80 | 419577565.50 |
| 2018 | | 2494230194.97 | 2134982614.99 | 359247579.98 |
| 2015 |  | 526753006.36 | 436486934.61 | 90266071.15 |
| 2016 | | 495417715.56 | 406181944.07 | 89235771.49 |
| 2017 | | 573627368.94 | 478469167.57 | 95157201.36 |
| 2018 | | 604807317.42 | 535183373.39 | 69623944.03 |
| 2015 |  | 624873508.12 | 625568420.68 | -694912.54 |
| 2016 | | 644932439.50 | 606924046.81 | 38008392.69 |
| 2017 | | 698097188.91 | 671747306.10 | 26622882.81 |
| 2018 | | 738201192.21 | 748217608.15 | -10016415.94 |

**Mənbə:** https://wits.worldbank.org/ (08.04.2020) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə əsas ixrac və idxal ölkələri olan 4 ölkənin statistik göstəriciləri öz əksini tapmışdır. Bir-bir illər üzrə ölkələrə ayrılıqda nəzər yetirək. İlk sırada ABŞ yer almışdır. ABŞ-ın 2015-2018-ci illlər üzrə statistikasında hər il ticarət saldosu mənfi olaraq qeydə alınmışdır. ABŞ öz zəngin resusr ehtiyatına baxmayaraq, öz ehtiyatlarını sərf etmək əvəzinə digər ölkələrdən idxal etmədiyi üstün tutur. Bununla da zəngin ehtiyatları rezerv olaraq öz payında qalır. ABŞ-ın idxalında xam məhsullar üstünlük təşkil etsə də,

ixracında isə elmtutumlu yüksək texnologiyalar əsaslı, rəqabət qabiliyyətli məhsullar yer alır. Əsas ticarət partnyorları Latın Amerikası və Karib dənizi sahili ölkələri, Kanada, Şərqi Asiya- Sakit okean sahili ölkələri, Meksika, Çin və s. təşkil edir. II sırada qərarlaşan ÇXR-ın ticarət saldosunda müsbət saldo qeydə alınmasa da, illər üzrə statistikada aydın görə bilərik ki, hər il azalma müşahidə olunur. Bu isə ixraca nisbətdə idxalın daha çox artımla müşahidə olunması ilə bağlıdır. Əsas ticarət partnyorları qismində Şərqi Asiya- Sakit okean sahili ölkələri, Şimali Amerika, Yaponiya, ABŞ çıxış edir. III sırada qeyd edilən ölkə ticarət saldosu digərlərinə nisbətdə qismən aşağı olsa da, dəyişkən tempi ilə diqqəti çəkir. Belə ki, 2015-ci ilə nisbətdə 2016-cı ildə azalmış, 2017-ci ildə 4 ilin göstəricisi ilə müqayisədə ən pik səviyyəyə çatmışdır. 2018-ci ildə isə, ən aşağı səviyyədə saldo qeydə alınmışdır. Əsas ticarət partnyorları qismində Şərqi Asiya- Sakit okean sahili ölkələri, ÇXR, Avropa və Mərkəzi Asiya ölkələri, Vyetnam və digərlərini qeyd edə bilərik. Yaponiya-bəşəriyyətin düşünən beyni. Resurs ehtiyyatına görə hədsiz dərəcədə "qıtlıq" çəkməsinə baxmayaraq, bəzən mənfi saldo göstərməsinə baxmayaraq, ixrac hegemonlarından biri olaraq qeydə alınır. Belə ki, 4 ilin müqayisəsinə nəzər saldıqda, ticarət saldosunda minimum səviyyəyə enməsinə baxmayaraq, ani sıçrayışla pik səviyyəyə çatdığını aydın görə bilərik. Lakin buna baxmayaraq, 2018-ci ildə isə mənfi saldo qeydə alınmışdır. Əsas ticarət partnyorları qismində Şərqi Asiya-Sakit okean sahili ölkələri, ÇXR, ABŞ, Tayland, Vyetnam və digərlərini qeyd edə bilərik.

İllər üzrə statistik göstəricilər cədvəlindən fərqli olaraq, aşağıda qeyd olunan diaqramlarda dünya üzrə liderlik təşkil edən ölkələrin ixrac və idxal üzrə hissə payı öz əksini tapmışdır. Aşağıda qeyd olunmuş 1-ci diaqramda göstərilən ölkələr ixrac sektoruna investisiya yatırımları etməklə, ixracyönümlü, innonativ məhsul və xidmətlərin realizasiyasını həyata keçirirlər. 2-ci diaqramda isə isə əksinə idxal üzrə liderlik təşkil edən ölkələr öz əksini tapmışdır. Diaqramlardan da göründüyü kimi ilk pillədə ABŞ, Çin, Avropa İttifaqı ölkələri yer almışdır.

**Qrafik 1: 2019-cu il əsas ticarət ölkələri üçün ixrac payları (%-lə)**




**Mənbə:** https://ec.europa.eu/eurostat/statistics-explained məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(05.02.2020)

2-ci diaqramda isə isə əksinə idxal üzrə liderlik təşkil edən ölkələr öz əksini tapmışdır. Diaqramlardan da göründüyü kimi ilk pillədə ABŞ, Çin, Avropa İttifaqı ölkələri yer almışdır.

**Qrafik 2: 2019-cu il əsas ticarət ölkələri üçün idxal payları (%-lə)**




Mənbə: https://ec.europa.eu/eurostat/statistics-explained məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(05.02.2020)

BVF-un hesabatına əsasən ÜDM həcminə görə dünya iqtisadiyyatı ölkələrinin 2019-cu il sıralamasını aşağıdakı qrafikdən aydın şəkildə görmək olar.

**Qrafik 3: ÜDM həcminə görə ölkələrin qrafik təsviri (mlrd $)**




**Mənbə:**http://statisticstimes.com/economy/countries-by-gdp.php məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(13.02.2020)

**Şəkil 7: Nominal ÜDM həcminə görə ölkələrin xəritədə təsviri (2019-cu il)**




**Mənbə:**http://statisticstimes.com/economy/countries-by-gdp.php(14.02.2020)

Yuxarıdakı şəkildə nominal ÜDM həcminə görə ölkələrin təsviri öz əksini tapmışdır. Xəritədən də göründüyü kimi 20 milyarddan artıq ÜDM həcminə ancaq ABŞ nail olmuşdur. II pillədə isə Çin qərarlaşmışdır.

Yekun olaraq, BVF-un "World economic outlook, April 2020" hesabatına əsasən proqnozlaşdırılan 2020-ci il illik faiz dəyişikliyinə əsasən real ÜDM-də artımın xəritə üzrə təsviri qeyd edək.

**Şəkil 8: İllik faiz dəyişikliyinə əsasən real ÜDM-də artımın xəritədə təsviri (2020-ci il)**




**Mənbə:**[https://www.imf.org/external/datamapper/NGDP_RPCH@WEO/OEMDC/ADVEC/WEOWORLD (09.04.2020)](https://www.imf.org/external/datamapper/NGDP_RPCH@WEO/OEMDC/ADVEC/WEOWORLD)

Şəkildən də aydın göründüyü kimi, əksər ölkələrdə proqnozlaşdırılan artım əsasən 3%-dən aşağı olacaqdır. Təbii ki, gözlənilən vəziyyətin yaranmasına səbəb pandemiya dövrü və pandemiyadan sonrakı mərhələlərin fəsadlarıdır. Bu isə dünya iqtisadiyyatında ümumi geriləməyə, ölkələrin ümumi iqtisadi durumunun "pisləşməsinə", İEÖ-in əsasən olduqları mövqeləri qorumağa çalışmasına, İEOÖ-in isə daha da geriləməsinə səbəb olacaqdır. Yaranacaq fəsadların minimuma endirilməsinə nail olmaq və minimum zərərlə du dövrü geridə qoymaq arzu olunan nəticələrdəndir.

Sonda İEÖ, İEOÖ və dünya üzrə illər üzrə real ÜDM-də artımın dəyişmə faizini aşağıdakı qrafik təsvirdən aydın görə bilərik.

Qrafik təsvirdən də aydın görə bilərik ki, illər üzrə adətən artım öz əksini tapmışdır. 2020-ci il və 2021-ci il üzrə göstərilən statistika proqnozlaşdırılan statistikadır. Minimum göstəricinin 2020-ci ildə olacağı güman edilir. Bunun əsas səbəbi isə yuxarıda qeyd olunmuşdur.

**Qrafik 4: Real ÜDM artımı (illik faiz dəyişməsi)**




**Mənbə:**https://www.imf.org/external/datamapper/NGDP_RPCH@WEO/OEMDC/ADVEC/WEOWORLD məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(12.04.2020)

## 2.2.Müasir dünya iqtisadiyyatının dinamik inkişafını şərtləndirən subyekt kimi Beynəlxalq İqtisadi Təşkilatlar- təsnifatı, funksiyaları və müasir dövrdə rolu

Müasir dövrdə dünya ölkələri arasında maliyyə, iqtisadi və sosial münasibətlər durmadan inkişaf etməkdədir. II Dünya Müharibəsindən sonra dünyada xüsusilə iri bloklaşmalar meydana gəlmiş, beynəlxalq münasibətlər getdikcə sürətlənmiş və beynəlxalq maliyyə təşkilatları yaranmağa başlamışdır. Daha çox diqqəti çəkən meyl isə İEOÖ-in inkişafının maliyyələşdirilməsini gerçəkləşdirmək üçün xarici yardım və xarici borc təşkilatlarının yaranmağa başlaması olmuşdur.

Dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi münasibətlərin genişlənməsi tənzimləməni mütləq surətdə zəruri edir. Tənzimlənməni zəruri edən bir sıra amillər mövcuddur. Bu amilləri aşağıdakı şəkildə qeyd etmək olar:

- Qlobal problemlərin geniş miqyasda təzahürü;

– Elmi-texniki tərəqqinin hərtərəfli inkişafı, irimiqyaslı nüfuz dairəsinə yeni ölkə və ərazilərin cəlb edilməsi, elmi nailiyyətlərin tətbiqinin bahalaşması – daha çox kommersiya xarakteri alması, tətbiq olunan sahədə məhsuldar qüvvələrin birləşdirilməsini, ümumi təsir dairəsinə malik mexanizmlərin yaradılmasını zəruri edir;

– BƏB-in daha da dərinləşməsi, dünya iqtisadiyyatında beynəlmiləlləşmənin daha da iri miqyasda reallaşdırılması- bu proses intensiv iqtisadi artıma və məhsuldar qüvvələrlə birlikdə istehsal komplekslərinin hərtərəfli inkişafına əsaslanmaqla bir çox sahələrin inkişafının milli, nisbətən dar çərçivədən kənara çıxmaqla, regional, həmçinin beynəlxalq səviyyədə qarşılıqlı əlaqələrin qurulmasına imkan yaradır. Təbii haldır ki, belə inkişaf ticarət-iqtisadi, istehsal, texniki, və s. kimi sahələrin əlaqələri üzrə beynəlxalq tənzimləmə mexanizmlərinin yaradılmasını tələb etməyə bilməz;

– İEOÖ-in dünya bazarında öz nüfuzlarını artırması nəticəsində iqtisadi güc və mövqeləri getdikcə möhkəmlənir. Bu səbəbdən də beynəlxalq əməkdaşlığa qoşulmaqda daha maraqlı olurlar. Bu isə BİƏ-in genişlənməsinə şərait yaratmaqla bərabər olun tənzimlənməsini daha da zəruri edir;

– Liberallaşma prosesinin daha da surətlənməsi-himayədarlıq əsasında əmtəə və xidmətlərin beynəlxalq ticarətin həyata keçirilməsinin məhdudlaşdırılması, əksinə iqtisadi siyasətdə liberallaşdırılmaya üstünlük verilməklə, beynəlxalq ticarətin həyata keçirilməsi;

– TMK-ın rolunun dünya iqtisadiyyatında, BİƏ-in genişlənməsində daha da artması. TMK-ın fəaliyyəti nəticəsində ölkələrarası beynəlxalq iqtisadi əlaqələr genişlənməklə yanaşı, onun tənzimlənməsinin norma və hüquq qaydaları daha da təkmilləşir;

– İstehsalın ictimailəşmə səviyyəsinin daha da artması,dünya iqtisadiyyatında kommunikasiyanın geniş miqyasda vüsət alması və s. (Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. və Ramazanov M.K., 2010).

Dünya iqtisadiyyatının və beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsini həyata keçirmək məqsədilə beynəlxalq iqtisadi təşkilatların yaranması və inkişafının sürətlənməsi birmənalı olmamışdır.

Dünya iqtisadiyyatının inkişafının bütün dövrlərində beynəlxalq iqtisadi təşkilatların rolu təbii haldır ki, inkarolunmazdır. Beynəlxalq iqtisadi təşkilatlar hə hansı mənfəət əldə etməyi düşünməyən, beynəlxal miqyasda fəaliyyət göstərən, birdən çox dövləti əhatə edən, həmçinin heç bir dövlətə aid olmayan iqtisadi qurumdur. Müasir dövrdə beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq iqtisadi əlaqələrin qurulması-tənzimlənməsi, ölkələrin maliyyə resusrlarının idarə olunması və beynəlxalq təcrübə qazanmasında əvəzsiz rol oynayırlar.

Beynəlxalq iqtisadi təşkilatların heç bir dövlətdən asılı olmadığı qeyd olunsa da, "böyük" dövlətlərin təsiri altında hərəkət etməsi faktını unutmamaq lazımdır. Ümumiyyətlə, beynəlxalq iqtisadi təşkilatların fəaliyyət sxemaları nə qədər fərqlənsə də,ümumiləşdiriləcək bir neçə xüsusiyyətləri vardır. Bunlardan beynəlxalq iqtisadi təşkilatların təzyiq "rıçaqlarının" nisbətən aşağı olması və buna bağlı olaraq "böyük" dövlətlərin təsir dairəsində olmaları, dövlətlər üzərində mütləq nəzarətin olmaması, fəaliyyətlərinin hamılıqla birmənalı şəkildə qarşılanmamasını qeyd etmək olar (Kərimov C., Orucov A., Kərimova T., 2012).

Beynəlxalq iqtisadi təşkilatlara müxtəlif mövqelərdən yanaşılır. Belə ki, bir qrup tədqiqatçıların fikrincə, dövlətlər arasında əlaqələrin qurulması və yeni metodların tətbiqi ilə beynəlxalq iqtisadi əlaqələrin inkişafına təkan verən iqtisadi qurumlardır. Digər qrup tədqiqatçıların fikrincə isə, daha radikal məqsədə xidmət etməklə, mükəmməl dünya qayda-qanununun qurulmasında əsas vasitədir.

Beynəlxalq iqtisadi təşkilatlar beynəlxalq iqtisadi münasibətlərin inkişaf təminatçısı olmaqla, bəzən isə ölkələrarası iş birliyi və inteqrasiyaya təkan verdiyindən onlar ,əsasən, beynəlxalq münasibətlərin sürətli inkişafına dolayı və ya birbaşa yollarla təsir etməklə ölkələrarası bağlılığın daha da artmasına yol açmaları ilə xarakterizə

olunur. Təbii haldır ki, beynəlxalq münasibətlərin inkişafı özlüyündə dünya iqtisadiyyatının inkişafına şərait yaradır.

Beynəlxalq arenada dünya iqtisadiyyatının tənzimlənməsini, beynəlxalq iqtisadi əlaqələrin genişlənməsini həyata keçirən çox sayda beynəlxalq, regional təşkilatlar mövcuddur. Bu kimi təşkilatlara nümunə kimi BMT qeyd etmək olar. BMT bilindiyi kimi yalnız iqtisadi sahədə deyil, bir neçə başqa sahələrdə də öz fəaliyyətini davam etdirməkdədir. BMT-in iqtisadi sahədə fəaliyyəti aşağıdakı istiqamətlərdə özünü göstərir:

- Bütün ölkələri əhatə edən qlobal miqyaslı iqtisadi problemlərin həlli;
- İEOÖ-in təsərrüfatının inkişafının stimullaşdırılmasına dəstək;
- İqtisadi-sosial inkişaf səviyyələrinə görə fərqlənən ölkələrin bu fərqliliyə məhəl qoyulmadan iqtisadi əməkdaşlığının dəstəklənməsi;
- Regional səviyyədə təzahür edən iqtisadi inkişaf problemlərinin həllinə dəstək (https://www.un.org/en/).

Dövrümüzdə yuxarıda qeyd olunanları gerçəkləşdirmək üçün BMT bir sıra fəaliyyət formalarından istifadə edir. Bunlardan BMT texniki-məsləhət fəaliyyətini ehtiyacı olan ölkələrə texniki dəstək göstərilməsi formasında reallaşdıra bilir.

İnformasiya fəaliyyətinin əsas məqsədi üzv olan ölkələrin iqtisadi siyasətlərinə təsir göstərməkdir. Bu fəaliyyəti həyata keçirmək üçün dünya iqtisadiyyatının maraq dairəsində olan məsələləri gündəmə çıxarmaqla, əsas diqqəti məsələyə yönəltmək və yazılı hesabatların hazırlanmasının həyata keçirilməsini dəstəkləməyi gerçəkləşdirir.

Digər fəaliyyət növü olan büdcə-maliyyə fəaliyyəti əsasən BMT sisteminə daxil olan BT-ın (BVF,DB Qrupu) dəstəyi vasitəsilə həyata keçirilir.

BMT sisteminə daxil olan beynəlxalq iqtisadi münasibətlər sistemində aktiv fəaliyyət göstərən bir sıra digər orqanları da aşağıdakı şəkildə qeyd etmək olar:

1. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO);
2. Ticarət və İnkişaf üzrə Konfransı (YUNKTAD);
3. Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı (BMTİP);

4. Birləşmiş Millətlərin Sənaye İnkişafı üzrə Təşkilatı (YUNİDO).

BMT sisteminin iqtisadi məsələləri ilə məşğul olan qurumların təsnifatını aşağıdakı şəkildə qeyd edə bilərik.

**Şəkil 9: BMT sisteminin iqtisadi məsələlərlə məşğul olan qurumlarının təsnifatı**




**Mənbə:** https://www.un.org/en/

BMT ilə əlaqəli avtonom təşkilatlar qrupuna aşağıdakılar aiddir:

- Ümumdünya Turizm Təşkilatı;
- YUNKTAD/ÜTT-nin Beynəlxalq Ticarət Mərkəzi;
- Atom Enerjisi üzrə Beynəlxalq Agentlik və s.

BMT-nin ixtisaslaşmış təşkilatları yarımqrupuna aşağıdakıları qeyd etmək olar:

- Beynəlxalq Maliyyə Korporasiyası;
- Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı;
- BMT Təhsil, Elm və Mədəniyyət Məsələləri Təşkilatı və s.

Bunlardan assosiasiya edilmiş təşkilatlara aşağıdakıları aid etmək olar:

- Birləşmiş Millətlərin Sənaye İnkişafı Təşkilatı;
- Beynəlxalq Dəniz Təşkilatı;
- Beynəlxalq Mülki Aviasiya Təşkilatı və s.

BMT-nin fondları, proqramları və işçi orqanlarına aid edilə qurumları aşağıdakı kimi qeyd etmək olar:

- BMT Ticarət və İnkişaf üzrə Konfransı – YUNKTAD;
- İnvestisiyaların İnkişafı Fondu;
- Layihələrə Xidmət üzrə orqan və s.

***İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı.*** Üzvlərinin sayı 29 olmaqla, İEÖ təşkil edir. Təşkilatın əsas funksiyası-üzvü olduğu ölkələrin iqtisadi siyasətinin koordinasiyasına nail olmaqla, dünya iqtisadiyyatı sistemində yaranmış ziddiyyətlərin yumşaldılmasını həyata keçirməkdir.

Təşkilatın tərkibində bir sıra avtonom təşkilatlar mövcuddur:

- Nüvə Enerjisi Agentliyi – NEA;
- Beynəlxalq Energetika Agentliyi – BEA;
- İƏİT-in İnkişaf Mərkəzi;
- Təhsil sahəsində Yeniliklər və Tədqiqatlar Mərkəzi – TYTM.

Hər bir təşkilat müəyyən məqsədə nail olmaq üçün təsis edilmişdir. Hər birinə qısa şəkildə nəzər salaq.

Nüvə Enerjisi Agentliyinin həyata keçirmək istədiyi məqsədləri aşağıdakı şəkildə qeyd edə bilərik:

1. Nüvə enerjisi sahəsində beynəlxalq tədqiqatların həyata keçirilməsi, üzv ölkələrin birgə təşəbüsslərinin və inkişaf proqramlarının işlənib hazırlanması;
2. Nüvə enerjisindən istifadə praktikasının daha da təkmilləşdirilməsi məqsədilə üzv ölkələrə dəstəyin göstərilməsi;
3. ETT-in tətbiqi ilə informasiya mübadiləsinin realizə edilməsinə nail olmaq.

Beynəlxalq Energetika Agentliyinin əsas məqsədlərini aşağıdakı şəkildə qeyd edə bilərik:

- enerjidən istifadənin səmərəliliyinin daha da artırılması, alternativ enerji mənbələrinin inkişafına nail olmaq məqsədilə əməkdaşlığın təşviqi;
- energetika və ekologiya sahələrində siyasətlərin koordinasiyasına dəstək;
- dünya neft bazarının hazırki vəziyyəti haqqında üzv ölkələrin informasiya ilə təminatına nail olmaq, enerji təchizatında yaranan problemlərin aradan qaldırılmasına nail olmaq üçün həyata keçirilən tədbirlərin təkmilləşdirilməsi;

- qlobal məsələlərin həlli üzrə agentliyin üzvü olmayan subyektlərlə əməkdaşlığı həyata keçirilməsi. (Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. və Ramazanov M.K., 2010).

İƏİT-in İnkişaf Mərkəzinin əsas məqsədi iqtisadi inkişaf istiqamətində bilik və təcrübələrin unifikasiyasından, iqtisadi yardım siyasətinin hazırlanmasından və həyata keçirilməsindən, əldə edilən bilik və təcrübələrin iqtisadi cəhətdən zəif olan ölkələrin ehtiyaclarını ödəməkləri istiqamətində həyata keçirilməsini reallaşdırmağa nail olmaqdan ibarətdir.

Təhsil sahəsində Tədqiqatlar və Yeniliklər Mərkəzi – elm, təhsil sahəsində elmi-tədqiqat fəaliyyətinin stimullaşdırılması və bu sahənin inkişafına köməklik məqsədilə təsis edilib.

Əsas beynəlxalq iqtisadi təşkilatlardan biri də BVF-dur. BVF-un yaradılmasında məqsəd II dünya müharibəsindən sonra beynəlxalq ticarətin təşviq edilməsi və bu sahədə effektiv maliyyə əməliyyatlarının icrasını realizə etmək olmuşdur. BVF-un məqsədlərini qısa şəkildə aşağıdakı cədvəldəki ardıcılıqla qeyd etmək olar.

**Cədvəl 2: BVF-nin əsas məqsədləri**

| | |
|---|---|
| 1 | BVF-ın üzv ölkələrində maliyyə və valyuta-kredit məsələlərində məsləhət yardımı edilməsi |
| 2 | BVF-ın üzv ölkələrində tədiyyə balanslarının tənzimlənməsi və onlara xarici valyuta şəklində borc və kredit verilməsi ilə valyuta məzənnəsinin sabitləşdirilməsi dəstəyinin təmin edilməsi |
| 3 | Üzv ölkələr arasında valyuta məhdudiyyətini aradan qaldırmaqla çoxtərəfli ödəniş sisteminin təmin edilməsinə yardım göstərilməsi |
| 4 | Valyuta məzənəsinin müəyyən edilməsi və valyutaların bərabərliyinin təmin edilməsi yolu ilə hər hansı bir valyutanın süni rəqabət üstünlüyünə nail olmasına yol verilməməsi |
| 5 | Üzv ölkələrin reallaşdırdıqları valyuta siyasətlərini əlaqələndirmək və uzlaşdırmaq. Bununla da milli valyutaların valyuta məzənnəsinin stabilliyinə və valyuta dönərliyinə, həmçinin BVF-ın fasiləsiz fəaliyyətini təmin etmək məqsədilə yardım göstərilməsi |
| 6 | Beynəlxalq valyuta sistemində ölkələrin əməkdaşlığına dəstək göstərilməsi |
| 7 | Beynəlxalq ticarətin daha geniş miqyasda reallaşdırılmasına və balanslaşdırılmış artımına dəstək göstərilməsi. |

**Mənbə:** BVF-un məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Cədvəldə qeyd olunanları yekunlaşdıraraq, BVF-nin əsas məqsədini xülasə şəklində belə ifadə etmək olar: BVF-un fəaliyyətinin əsas məqsədi əsasən beynəlxalq

ticarətin tarazdırılmış inkişafına dəstək, beynəlxalq valyuta əməkdaşlığının daha da stimullaşdırılması, valyuta kurslarının sabitliyinə nail olunmasına, üzv ölkələrin tədiyyə balanslarında yaranmış kəsrin aradan qaldırılmasına yardım göstərilməsidir.

Bu məqsədlə BVF müxtəlif kredit layihələri həyata keçirir. BVF-un imtiyazlı kredit imkanlarından yararlana biləcək ölkələrin bəzilərini aşağıdakı cədvəldə qeyd edə bilərik. (Tunalı Ç., 2011).

**Cədvəl 3.BVF-un güzəştli kredit imkanlarından istifadə edə bilən ölkələrin bəzilərinin siyahısı**

| | | |
|---|---|---|
| **1.Bangladeş** | **9.Somali** | **17.Özbəkistan** |
| **2.Əfqanıstan** | **10.Laos** | **18.Yəmən** |
| **3.Kamerun** | **11.Əfqanıstan** | **19.Mali** |
| **4.Ermənistan** | **12.Tacikistan** | **20. Timor-Leste** |
| **5.Konqo Respublikası** | **13.Maldivlər** | **21. Benin** |
| **6. Haiti** | **14.Solomon adaları** | **22. Gine Bisav** |
| **7. Tanzaniya** | **15.Ruanda** | **23. Burkino Faso** |
| **8. Çad** | **16.Monqolustan** | **24.Kamboca və s.** |

**Mənbə:** https://www.imf.org/en/Publications/Policy-Papers/Issues/2020/03/16/Eligibility-to-Use-the-Fund-s-Facilities-for-Concessional-Financing-2020-49267 .İMF Policy Paper, "Eligibility to use the fund's facilities for concessional financing, 2020".(19.03.2020).

1980-ci illərin ortalarından başlayaraq az gəlirli ölkələr üçün güzəştli kreditləşmə imkanlarının həyata keçirilməsi ilə bağlı edilən islahatları nəzərə alaraq, Fond getdikcə bu ölkələrin ehtiyaclarını qeydə alaraq, davamlı artım və inkişaf hədəfinə nail olmaları üçün daha çox layihələr həyata keçirir ki, bu da aşağı gəlirli ölkələr üçün olduqca vacibdir. Şübhəsiz ki, həyata keçirilən islahatlarla aşağı gəlirli ölkələrə verilən kredit layihələri Fondun yoxsulluğun azaldılması və böyümə hədəfinə çatmasına mühüm töhfə verib və verməkdə davam edəcəkdir. BVF tərəfindən üzv ölkələrə ümumi resurs hesabına və yoxsulluğu azaltmaq, böyümə hədəfinə çatmaları məqsədilə verilən, lakin ödənilməyən kredit miqdarlarının həcmini aşağıdakı qrafikdə qeyd olunmuşdur.

Qrafikdən də göründüyü kimi 2017-ci ildə ümumi ödənilməyən kredit həcmində azalma müşahidə olunsa da, növbəti illərdə çox təəssüf ki, dinamik artım öz əksini tapmışdır.

**Qrafik 5: Fondun üzv ölkələrə ümumi qaynaqlardan və yoxsulluğun azaldılması və böyümə fondundan təqdim etdiyi ödənilməmiş kredit məbləğləri (min SDR)**




**Mənbə:** https://www.imf.org/external/np/fin/tad/extcred1.aspx məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

BVF-un "World economic outlook, April 2020" hesabatına əsasən aşağıdakı şəklə diqqət yetirsək, görərik ki, dünya üzrə ölkələrin əksəriyyətində dövlətin xalis borc alma və borc vermə payı ÜDM həcminə faiz nisbətdə 10%-dən aşağıdır.

**Şəkil 10 :ÜDM həcminə faiz nisbətdə dövlətin xalis borc alma və borc vermə payı (2020)**




**Mənbə:** https://www.imf.org/external/datamapper/GGXCNL_NGDP@WEO/OEMDC/ADVEC (25.03.2020)

Yuxarıdakı şəkildə 2020-ci il üzrə proqnozlaşdırılan statistika öz əksini tapmışdır. Lakin daha sonra illər üzrə İEOÖ və İEÖ nisbətində dəyişimi qrafikdən aydın görə bilərik.

Aşağıdakı qrafik təsvirdən də göründüyü kimi hər iki qrupa aid olan ölkələrdə bu nisbət mənfi göstəricidə öz əksini tapmışdır. Qeyd olunan göstəricilərdən 2020 və 2021-ci il üzrə statistika proqnozlaşdırılan statistikadır. Statistikanın bu nisbətdə ani dəyişiminə səbəb kimi pandemiyanın yaradacağı fəsadları qeyd edə bilərik.

**Qrafik 6: İllər üzrə ÜDM həcminə faiz nisbətdə dövlətin xalis borc alma və borc vermə payının dəyişməsi(%-lə)**




**Mənbə:**https://www.imf.org/external/datamapper/GGXCNL_NGDP@WEO/OEMDC/ADVEC məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.(26.03.2020).

Digər bir təşkilata nəzər yetirək. İslam Konfransı Təşkilatı - müxtəlif regionlardakı müsəlman ölkələrinin vəhdətini özündə cəmləşdirir. İKT-ın əsas məqsədlərini aşağıdakı şəkildə qeyd edə bilərik:

- müsəlman həmrəyliyinin gücləndirilməsi;
- təşkilatın fəaliyyətində üzv ölkələrarası məsləhətləşmələrin keçirilməsi;
- rasizmin və müstəmləkəçiliyin məhdudlaşdırılmasın köməklik göstərilməsi;
- təsərrüfat həyatının müxtəlif sahələrində əməkdaşlığın inkişafının stimullaşdırılması.

Qeyd edilənlərlə yanaşı, dünya iqtisadiyyatında və beynəlxalq iqtisadi əlaqələr sistemində mühüm rol oynayan təşkilatlar qismində Dünya Bankı Qrupu, İslam İnkişaf

Bankı və digərlərini qeyd edə bilərik. Təşkilatlarla yanaşı, inteqrasiya qruplaşmaları müasir dövrdə mühüm rol oynayır. Ən çox yayılan inteqrasiya qruplaşmalarına Avropa Iqtisadi Birliyi, NAFTA , Saкit oкean regional inteqrasiyası və digərlərini qeyd edə bilərik.

Beynəlxalq həmçinin regional miqyasda fəaliyyət göstərən iqtisadi-maliyyə təşkilatlarının reallaşdırmaq istədikləri ortaq məqsədləri aşağıdakı şəkildə qeyd etmək olar:

- İEOÖ-in in iqtisadi inkişafını stimullaşdırılması;
- beynəlxalq inkişafı təşviq etməklə beynəlxalq məhsul-xidmət alış-verişinə yaranan çətinlikləri aradan qaldırmaq;
- maliyyə sabitliyini qorumaq ;
- dünya ticarətini irimiqyaslı, bərabərhüquqlu əsasda genişləndirmək;
- qarşılıqlı maraq doğuran məsələlərin həlli üzrə müvafiq layihələrin işlənib-hazırlanması;
- iqtisadiyyatını transformasiya etmək istəyən ölkələrə kömək məqsədilə, inkişaf və yenidənqurmanın müdafiə edilməsi;
- İqtisadi birləşmə, sərbəst ticarət münasibətlərinin inkişafını stimullaşdırmaq və sıx iqtisadi iş birliyini dəstəkləmək və s. (Cammack P.A., 2015).

Beynəlxalq iqtisadi təşkilatlar struktur müxtəlifliyindən, məqsəd və prinsiplərindən, həyata keçirdiyi funksiyalardan, təşkilatı xüsusiyyətlərindən, üzvlərin sayından və bir sıra başqa xüsusiyyətlərinə görə təsnifləşdirilir. (Əliyev S., Eminov A., Süleymanov E., Ələsgərova F., 2016).

Təsnifləşmə xarakterinə görə, ilkin olaraq üzlüyün xarakteri və iştirakçıların hüquqi təbiətinə görə qeyri-dövlət, dövlətlərarası və qarışıq iqtisadi təşkilatarı qeyd etmək olar.

Digər təsnifat meyarına-səlahiyyət xarakterinə əsasən dövlətlərüstü və dövlətlərarası beynəlxalq iqtisadi təşkilatları qeyd etmək olar.

İştirak şərtlərinə əsasən beynəlxalq iqtisadi təşkilatlar açıq tipli beynəlxalq iqtisadi təşkilatlar və qapalı tipli beynəlxalq iqtisadi təşkilatlar kimi təsnifləşdirilir.

İnteqrasiya və əməkdaşlıq səviyyəsi baxımından beynəlxalq iqtisadi əməkdaşlıq təşkilatı və beynəlxalq iqtisadi inteqrasiyalar kimi qruplaşdırılır. Beynəlxalq iqtisadi inteqrasiyanın yarımqupları: iqtisadi birliklər, ortaq bazarlar, tam iqtisadi birləşmələr, sərbəst ticarət bölgələri, gömrük birlikləri.

Digər bir təsnifata görə beynəlxalq iqtisadi təşkilatlar ixtisaslaşmış (xüsusi təyinatlı) və ixtisaslaşmamış (ümumi təyinatlı) yarımqruplara bölünürlər. Bu təsnifata ümumi nəzər saldıqda I yarımqrupa əsasən beynəlxalq maliyyə təşkilatlarını qeyd edirlər. Digər yarımqrupda isə, konkret olaraq xüsusi sahə üzrə bölgü nəzərdə tutulmur.

Beynəlxalq iqtisadi təşkilatların həyata keçirdiyi bir sıra funksiyalar mövcuddur. Bunlardan ilk öncə *normativləşmə funksiyasını* qeyd etmək lazımdır. Bu funksiyanın mahiyyəti odur ki, müasir dövrdə beynəlxalq iqtisadi təşkilatlar dünya miqyası səviyyəsində iqtisadi və təsərrüfat normativlərini formalaşdırılmasında bilavasitə iştirak edirlər.

*Nəzarət*-müşahidə funksiyası-yaradılmış beynəlxalq iqtisadi-təsərrüfat normaların dövlətlər tərəfindən yerinə yetirilməsini həyata keçirilməsini təşkil edir. Lazım gəldikdə bunu üçün xüsusi orqanların yaradılmasını nəzərdə tutur.

*Operativ funksiya*-sərəncamında olan maddi ehtiyatların köməyi ilə qarşıya qoyduqları vəzifələri icra edirlər. Qeyd olunana misal olaraq, BMT əməliyyatları, maliyyə əməliyyatları, kommersiya fəaliyyəti, İEOÖ-ə BMT və onun ixtisaslaşdırlımış qurumları vasitəsilə texniki yardım edilməs və s.

*Əlaqələndirici informasiya funksiyası*-təşkilatın fəaliyyətinin əsas istiqamətləri və məqsədlərinə uyğun sənədlərin, həmçinin qloabal, daha aktual məsələlərlə bağlı xüsusi məlumatların nəşr edilməsini özündə təcəssüm etdirir.

# III FƏSİL. BEYNƏLXALQ İQTİSADİ ƏLAQƏLƏRİN ÇAĞDAŞ XÜSUSİYYƏTLƏRİ VƏ BEYNƏLXALQ ƏLAQƏLƏR SİSTEMİNDƏ AZƏRBAYCAN

## 3.1.Beynəlxalq iqtisadi əlaqələrin yaranmasının zəruriliyi, təkanverici amillər

Beynəlxalq iqtisadi əlaqələr yüz illər boyunca müxtəlif səviyyələrdə formalaşmışdır. Əvvəllər beynəlxalq iqtisadi əlaqələrin böyük əksəriyyəti az sayda mal və xidmətlərin mübadiləsindən ibarət olduğu halda, hal-hazırda bu "sadəlik" özünü yeni müstəvidə göstərmişdir. Bu dəyişiklik özünü əsasən sənaye dövründən sonrakı dövrdə göstərmişdir. İstehsalın müstəsna ölçüdə artması, texnoloji irəliləmə, nəqliyyat əlaqələrinin "nəfəs kəsən" sürətlə reallaşması, ölkələrin artıq mal və xidmət mübadiləsindən əlavə əmək, elm, sərmaye və texnoloji kimi istehsal faktorlarının axını da geniş miqyasda vüsət almışdır. Ümumiyyətlə, beynəlxalq iqtisadi əlaqələr-bir ölkənin hansı məhsul istehsalı üzrə ixtisaslaşmaqla xarici ticarət münasibətlərinin qurulması, xarici ticarət qiymətlərinin necə formalaşacağını analiz edən münasibətlər toplusudur. Beynəlxalq iqtisadi əlaqələrin əsas prinsipi ölkələrarası ixtisaslaşma və "iş bölgüsünün" yaratdığı imkanlardan geniş miqyasda istifadə şəklində qeyd edilə bilər.

Beynəlxalq iqtisadi əlaqələr – maddi nemətlərin və xidmətlərin istehsal prosesindən başlayaraq istehlakçıya çatdırılma mərhələlərini (bölgü, mübadilə, istehlak) əhatə etməklə, müxtəlif ölkələr və onların təsərrüfat sistemləri arasında qarşılıqlı fəaliyyət sistemlərinin məcmusudur. Beynəlxalq iqtisadi əlaqələr müxtəlif ölkələr, ölkələrin regional birlikləri, bunlarla yanaşı ayrı-ayrı təsərrüfat subyektləri arasında iqtisadi münasibətlərin çoxsəviyyəli əlaqələri kompleksidir. Beynəlxalq iqtisadi əlaqələr insan fəaliyyətinin bir sferası olmaqla təsərrüfat fəaliyyətinin qanunauyğunluqlarına tabedir. Bir mənalı olaraq beynəlxalq iqtisadi əlaqələrin formalaşması və inkişafı iqtisadi cəhətdən oxşar və ya fərqli ölkə iqtisadiyyatlarının qarşılıqlı asılılıq və əlaqələrinin daha da güclənməsi ilə şərtlənir. Təbii haldır ki, bu

qarşılıqlı əməkdaşlıq prosesləri ziddiyyətli, həmçinin dialektik xarakter daşıyır. İqtisadi cəhətdən müstəqillik əldə etmək, hər bir ölkənin öz təsərrüfat mexanizmini inkişaf etdirmək cəhdləri, son nəticədə dünya iqtisadiyyatının beynəlmilliləşməsinə, beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsinə və xarici aləmlə inteqrasiyanın daha da sürətlənməsinə səbəb olmuşdur. (Xasbulatov R.İ, 2015).

BİƏ-in təməlində əsasən ümumi iqtisadi nəzəriyyə və dünya iqtisadiyyatı nəzəriyyəsi durur. Dünya iqtisadiyyatı müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrin, elmi-texniki tərəqqinin və beynəlxalq əmək bölgüsünün güclü təsiri altında formalaşaraq, davamlı inkişaf edən beynəlxalq iqtisadi əlaqələrin formaları tərəfindən inkişaf edən ümumi baza qismində çıxış edir. Məhz bu səbəbdən də beynəlxalq iqtisadi əlaqələrin bütün növləri, o cümlədən elmi-texniki tərəqqi və əqli əmək məhsullarının qarşılıqlı mübadiləsi kimi variantları davamlı olaraq böyük miqyasda inkişaf edərək, demək olar ki, dünya iqtisadiyyatının bütün sahələrinə siraət etməkdədir. Bütün bunların məcmusu ümumilikdə BİƏ-in məzmununu təşkil edir. Müasir dövrdə beynəlxalq iqtisadi əlaqələrin inkişafı inkişaf etmiş ölkələrlə yanaşı, inkişaf etməkdə olan ölkələrin maraq dairəsindədir. Belə ki, iqtisadi münasibətlərin qurulması baxımından hər bir ölkənin maraq və gözləntiləri olduqca müxtəlifdir. İnkişaf etmiş ölkələr beynəlxalq iqtisadi münasibətlərdə əsasən əsas subyekt kimi çıxış etməklə, öz "çirkli" sənaye sahələrini nisbətən zəif inkişaf etmiş ölkələrdə reallaşdıraraq, ekoloji cəhətdən təmiz mühit üçün təminat yaradırlar. Göründüyü kimi beynəlxalq iqtisadi əlaqələrə qoşulmaqda məqsədlər və əldə olunan nəticələr bir-birindən tamamilə fərqlidir.

Ümumiyyətlə, BİƏ-in özünəməxsus cəhətləri mövcuddur. Bu cəhətləri şərti olaraq aşağıdakı ardıcıllıqla qeyd etmək olar:

- İstehsal amilləri və ehtiyatlarının hərəkət trayektoriyası "dar" çərçivədə deyil, daha geniş ərazini əhatə edir;
- Beynəlxalq iqtisadi əlaqələrin bütün formalarında subyektlərarası güclü rəqabət mübarizəsi mövcuddur;

- Sərbəst qiymət formalaşması prosesindən əlavə, tələb və təklif qanunları fəaliyyət göstərir;
- BİƏ-in müxtəlif formaları arasında daha geniş miqyaslı, qarşılıqlı asılılıq və əlaqə mövcuddur;
- Hal-hazırki dövrdə də, BİƏ-in tənzimlənməsi reallaşdırılır. ( Kozak Y., Shengelia T, 2014).

Tədqiqatın aparılması zamanı beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsinin mümkün olub-olmaması, mümkün olduğu təqdirdə hansı vasitələrdən istifadənin daha səmərəli olması faktoru araşdırılmışdır. Ümumi şəkildə beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsi dövlətlərarası və üstmilli səviyyədə gerçəkləşir.

Beynəlxalq iqtisadi əlaqələrin dövlətlərarası tənzimlənməsinə bir sıra təkanverici amillərin təsiri olmuşdur. Belə ki, bu kimi amilləri qısa şəkildə aşağıdakı ardıcıllıqla qeyd etmək olar:

- İmperializmin müstəmləkə sisteminin süqutu, iqtisadi cəhətdən azadlıq qazanmış ölkələrin inkişafının təmin edilməsi;
- Xammal və ərzaq böhranları, İEÖ-də struktur böhranlar;
- Transmilli şirkətlərin hegemon miqyasda fəaliyyətinin bərqərar olması;
- Regional miqyasda iqtisadi inteqrasiya sistemlərinin intensiv surətdə artım dinamikası;
- İstehsalın ictimailəşmə səviyyəsinin artım dinamıkası;
- Qlobal problemlərin yaranması və problemlərin həlli istiqamətində ölkələrin birgə səyinin tətbiqinin reallaşdırılması;
- Beynəlxalq ticarətin liberallaşdırılması zəruriliyi-bununla da azad beynəlxalq ticarətin tətbiqi dinamik artıma, texnologiyanın, işçi qüvvəsinin mübadiləsinə şərait yaradır;
- Dünya iqtisadiyyatının qloballaşması, milli iqtisadiyyatların qarşılıqlı təsir və asılılığının artması və bu dəyişikliyə uyğunlaşma zərurililiyi və s. (Gənciyev G.Ə., Həsənov N.Ə., Əliyev A.M., Ələkbərov Ə.R., 2010).

Beynəlxalq iqtisadi əlaqələrin dövlətlərarası tənzimlənməsinin sxematik təsvirini aşağıdakı şəkildə qeyd etmək olar:

**Şəkil 11 : Beynəlxalq iqtisadi əlaqələrin dövlətlərarası tənzimlənməsi**




**Mənbə:**Müxtəlif mənbələrdən əldə edilmiş məlumatların ümumiləşdirilməsi aparılaraq müəllif tərəfindən hazırlanmışdır.

XX əsrin II yarısı formalaşmağa başlamış üstmilli səviyyədə tənzimləmə sistemi 2 istiqamətdə daha çox özünü biruzə verir. Belə ki bu 2 istiqaməti aşağıdakı şəkildə qeyd etmək olar:

1. Dünya iqtisadiyyatının bütün subyektləri üçün beynəlxalq iqtisadi əlaqələrin həyata keçirilmə qaydalarının unifikasiyası;
2. Beynəlxalq iqtisadi əməkdaşlığın şərt və parametrlərinin tənzimlənməsi.

Unifikasiyanın tətbiqi nəticəsində, ümumi xüsusiyyətlərin, adət və qaydaların müəyyən edilməsi, beynəlxalq müqavilələrin qayda və prinsiplərinə riayət etməklə, vahid norma və qaydaların yaradılması və tətbiqi praktikasının təmin edilməsi reallaşır.

II istiqamətdə isə əsasən kredit, investisiya rejimi, mal və xidmət nomenklaturasının növü və həcmi, hesablaşma,ticarət, işçi qüvvəsinin miqrasiyası iqtisadi və texniki əməkdaşlığın şərtləri və məzmunu kimi faktorların rəhbər tutularaq araşdırılması nəzərdə tutulur (Arı T., 2017).

Beynəlxalq iqtisadi əlaqələrin müasir dövrdə əsas prioritet istiqamətləri birbaşa aşağıdakı amillərlə bağlıdır:

- Regional inteqrasiyanın və qloballaşmanın sürətli inkişafı-qarşılıqlı asılılığın və beynəlxalq milliləşdirilmənin gücləndirilməsi;
- Milli iqtisadiyyatın liberallaşdırılması, investisiya bazarının genişlənməsi nəticəsində dünya iqtisadiyyatı "məkanının" intensiv olaraq regional miqyasdan qlobal miqyasa keçid alması;
- Yeni texnika və texnologiyaların tətbiqi nəticəsində mütərəqqi və effektivli idarəetmə metodlarının tətbiq edilməsi, dünya ölkələrinin "açıq iqtisadiyyat" prinsiplərini rəhbər tutaraq, iqtisadi əlaqələrin genişlənməsi və bunlara bağlı olaraq beynəlxalq iqtisadi əlaqələrin daha da intensiv inkişafına şərait yaradılması;
- Rəqabətqabiliyyətliliyin daha da artırılması və iqtisadi inkişafın davamlı olması məqsədi ilə bu proseslərin təşviq edilməsi;
- İnnonativ yeniliklərin tətbiq arealının daha genişləndirilməsi, bununla da yoxsulluq və işsizlik səviyyəsinin aşağı salınmasına nail olunması və s. (Əliyev Ş., 2015).

Müasir dövrdə BİƏ-in rolunun dünya iqtisadiyyatında artması bir sıra faktorlardan asılı olaraq inkişaf etmişdir. Bu faktorları aşağıdakı kimi qruplaşdırmaq olar:

- BƏB sisteminə zəif qoşulan ölkə və ərazilər artıq bu istiqamətdə daha da stimullaşdırılaraq cəlb olunurlar;

- İstehsal olunan əmtəə və xidmətlərin çeşidləri olduqca müxtəliflik təşkil edərək, yeni istehsal sahələrinin yaranmasına şərait yaradır;
- ümumdünya maliyyə bazarının strukturunun formalaşması kapitalın hərəkəti üçün geniş imkanlar yaradır;
- BİM-in ümumdünya infrastrukturunu formalaşdırmaqla özündə qlobal informasiya şəbəkəsini, nəqliyyatın, kommunikasiyanın ümumdünya şəbəkəsini birləşdirir və s. (Həsənov Ə., 2005).

Yuxarıda qeyd olunan faktorları nəzərə alaraq beynəlxalq iqtisadi əlaqələrin geniş miqyasda vüsət alması, təsərrüfatın beynəlmililləşməsinə şərait yaradır. Təsərrüfatın beynəlmillilləşməsi özünü aşağıdakı formalarda büruzə verir:

- iqtisadi inkişafın ölkə hüdudlarından kənara çıxması;
- BƏB-in yeni təzahür xüsusiyyətləri- texnoloji, istehsal, maliyyə münasibətlərinin və müxtəlif dövlətlər arasında qarşılıqlı əlaqələrin dərinləşməsinə aparan yeni mərhələsi;
- qeyd olunanların əsasında istehsalın beynəlxalq ixtisaslaşmasının və kooperasiyasının inkişaf edib, formalaşması;
- dünya əmtəə və xidmət bazarlarının, işçi qüvvəsi bazarlarının, kapital bazarlarının formalaşması;
- qlobal nəqliyyat infrastrukturunun, boru kəmərlərinin formalaşması;
- vahid,qlobal informasiya məkanının yaradılmasına aparan meyillərin daha güclənməsi.

Beynəlxalq iqtisadi münasibətləri digər iqtisadi münasibətlərdən fərqləndirən bir sıra xarakterik xüsusiyyətləri mövcuddur. Xarakterik xüsusiyyətlərin qısa xülasəsi aşağıdakı kimi qeyd etmək olar:

1. Müxtəlif ölkələrin sərhədlərindən resursların, istehsal amillərinin və nəticələrinin hərəkəti baş verir, bununla da milli iqtisadiyyata əlavə resurslar cəlb olunur;

2. BİM-in hər bir forması daxili bazarda mövcud olan əlaqələrə nisbətən daha effektiv qarşılıqlı əlaqə və asılılığa malikdir;
3. BİƏ-in əsas subyektlərindən-istehsalçılar, satıcılar və alıcılar arasında qlobal və kəskin rəqabət mübarizəsi mövcudluğu;
4. Təsərrüfat münasibətləri milli sərhədlər çərçivəsini aşaraq ölkə hüdudlarından kənara çıxır, daha geniş ərazini əhatə edir, mübadilə həcmi daha yüksəkdir, subyektlərin sayı hədsiz dərəcədə çoxdur və s.

Ümumiyyətlə, müasir dövrdə BİƏ çərçivəsində öyrənilməli olan əsas məsələləri (problemləri) şərti olaraq aşağıdakı şəkildə fərqləndirmək olar:

- xarici valyuta, dövlətlərin və beynəlxalq təşkilatların maliyyə-kredit sahəsində fəaliyyəti;
- beynəlxalq ticarətin və ticarət siyasətinin beynəlxalq tənzimləyiciləri və tərkib hissələri kimi, gömrük qaydalarının işlənib hazırlanması, tətbiqi və təkmilləşdirilməsi;
- dünya iqtisadiyyatında və onun milli iqtisadi altsistemlərində əmtəə axınlarının dunnadan genişlənməsi prosesində meydana çıxan münasibətlər və qarşılıqlı əlaqələr;
- beynəlxalq iqtisadi əməkdaşlığın və bununla bağlı yaranan vəziyyətlərin beynəlxalq tənzimlənməsini reallaşdıran beynəlxalq qurumların, valyuta, maliyyə-kredit, ticarət və tənzimləyici dövlətüstü idarə və təşkilatların fəaliyyəti.

Beynəlxalq iqtisadi əlaqələrin mahiyyətini, yaranması zəruriliyini aydınlaşdırmaq üçün onun formalarına nəzər salmaq daha məqsədə uyğundur. Uzun müddət BİƏ-in formaları kifayət qədər "standart" struktura malik olaraq əsasən əmtəələrlə beynəxalq ticarət, bununla bağlı olaraq yaranan maliyyə-valyuta münasibətləri və işçi qüvvəsinin ölkələrarası yerdəyişməsi ilə bağlı olmuşdur. Elm texnikanın inkişafı, istehsal, mübadilə proseslərinin nisbətən mürəkkəbləşməsi, BƏB-in daha da dərinləşməsi müasir dövrdə mütərəqqi BİƏ-in formalaşmasına şərait yaratmışdır. Şərti olaraq BİƏ-in forma və istiqamətlərini aşağıdakı şəkildə qeyd edə bilərik:

- Beynəlxalq ticarət siyasəti və beynəlxalq ticarət;
- Elmi texniki informasiya və biliklə ilə bağlı mübadilə;
- Milli təsərrüfat subyektləri arasında regioanl inteqrasiya;
- Ölkələrarası xarici iqtisadi əlaqələr;
- Kapitalın beynəlxalq hərəkəti-TMK və TMB-lərin timsalında geniş vüsət almışdır;
- İstehsal amillərinin "yerdəyişməsinin" beynəlxalq qiymət tənzimlənməsi mexnizmi;
- Dünya iqtisadiyyatının tənzimlənməsi qismində çıxış edən beynəlxalq təşkilatlar sistemi;
- Ölkələrarası valyuta, maliyyə-kredit münasibətləri və onların tənzimlənməsi və s. ( Kozak Y., Shengelia T, 2014).

Ümumiyyətlə, yekunda BİƏ-in inkişaf etmiş bazar təsərrüfatı kimi əlamətlərinə aşağıdakıları qeyd etmək olar:

- iqtisadi xüsusiləşmə;
- ekologiyalaşma,ətraf mühitin mühafizəsinin BİƏ-in mühüm maraq obyektinə çevrilməsi;
- BİƏ-də siyasi amilin rolunun daha yüksəlməsi prosesi sabit olaraq davam etməsi;
- BİƏ-in yeni xassələrə malik tədqiqat obyektlərinin meydana çıxması, kapitalın və işçi qüvvəsinin beynəlxalq arenada hərəkəti;
- istehsalın və satışın inhisarlaşması;
- Beynəlxalq iqtisadi əlaqələr çərçivəsində tələb, təklif, qiymət qanunlarının tam surətdə fəaliyyəti və s.

## 3.2.Beynəlxalq iqtisadi əlaqələrin genişlənməsində qlobal maliyyə texnologiyalarının təsirləri və perspektivləri

Beynəlxalq iqtisadi əlaqələrin ən mühüm formalarından beynəlxalq valyuta-maliyyə və kredit münasibətləri və beynəlxalq elmi-texniki mübadiləni qeyd etmək olar. Belə ki, müasir dövrdə ölkələrarası valyuta axınlarının, maliyyə-kredit münasibətlərinin qurulması və bu sahədə innonativ texnologiyanın tətbiqi mütləq bir hal almışdır. Beynəlxalq iqtisadi münasibətlərin bu formalarının reallaşmasını özündə təcəssüm etdirən, dövrün tələblərinə cavab verən vasitəyə qlobal maliyyə texnologiyalarını aid edə bilərik. İqtisadi sistemlərin maliyyə qloballaşması, qlobal maliyyə bazarlarının iştirakçılarının daim artması və bütün bunların texnologiyanın inkişafı ilə birbaşa əlaqədə olması qlobal maliyyə sisteminin artan institusional mürəkkəbliyinə səbəb olur. Nəticədə, maliyyə sisteminin təkmilləşdirilməsi üçün daha çox imkanlar yaranır. Təkmilləşmə imkanlarının yaranması ilə bərabər, sistemin artan mürəkkəbliyi onun müxtəlif hissələri arasında daha yüksək sinxronizasiyaya, qeyri-xətti əlaqələrin güclənməsinə, gözlənilməz nəticələrin artmasına və həm iqtisadi, həm də milli və beynəlxalq səviyyədə iqtisadi balansızlığın artmasına səbəb olur. (Azarenkova G., 2018).

2008-ci il maliyyə böhranından sonra maliyyə sənayesi müxtəlif rəqəmsal, yenilikçi yanaşmaları tətbiq etməklə aktiv şəkildə “silahlanmağa” başladı. Bununla da maliyyə xidmətləri sektorunda texnoloji yeniliklər üçün əsas yaratdılar.

Müasir dövrdə maliyyə sektorunun inkişafı dəqiqliyə, rasionallığa və çevikliyə əsaslanmaqla xətaların azaldılması, insan resurslarının və süni intellektin məhsuldarlığının daha da artırılmasını özündə təcəssüm etdirən maliyyə texnologiyalarının geniş miqyasda tətbiqini tələb edir. Maliyyə texnologiyalarının beynəlxalq iqtisadi əlaqələrin genişlənməsində təsirləri və perspektivlərini aydınlaşdırmamışdan öncə ümumiyyətlə, qlobal maliyyə texnologiyaları nədir, müasir dövrdə tətbiq edilməsini zəruri edən əlamətləri hansılardır kimi suallara cavabının aydınlaşdırılması daha məqsədə uyğundur.

Adından da aydın görmək olar ki, maliyyə texnologiyaları bank və maliyyə xidmətlərinin ənənəvi modellərdən fərqli olaraq, daha innonativ və çevik formada reallaşmasını özündə təcəssüm etdirən müasir vasitələrdir. Maliyyə texnologiyası-maliyyə-valyuta arxitekturasının yeni bir qolu olmaqla, maliyyə xidmətlərinin realizə edilməsi zamanı vaxt itkisinə nisbətən daha az yol verməklə, tətbiq edilən proqramlar və biznes modelləridir.

Maliyyə texnologiyaları birdən-birə yaranmamışdır. Uzun bir inkişaf yolunun keçilməsindən sonra indiki innonativlik xüsusiyyətlərə malik formaya gəlib çatmışdır. İlkin formada qarşımıza çıxan maliyyə texnologiyası FinTex 1.0 versiyası formasında olmuşdur. Yarandığı və formalaşdığı dövr 1866-1967-ci illəri əhatə etməklə, qloballaşmanın güclü təsiri altında formalaşmışdır. Əhatə etdiyi ərazi əsasən İEÖ olmuşdur. Bu dövrdə texnoloji inkişaf özünü göstərsə də, bank və digər maliyyə xidmətləri sektorunda nəzərə çarpan fərq olmamışdı. II mərhələ kimi 1968-2008-ci illəri əhatə edən FinTex 2.0 versiyasının yaradılması və tətbiqi dövrünü qeyd etmək olar. Bu dövr 1967-ci ildə kalkulyator və ATM-lərin meydana çıxması ilə başlamışdır. Texnologiyaların inkişafı bu dövrdə maliyyə əməliyyatlarında bu vasitələrdən istifadə edilməsinə şərait yaratdı. 2009-cu ildən günümüzədək olan dövrü əhatə edən mərhələdə FinTex 3.0 artıq internet üzərindən istehlakçılara, şirkətlərə və banklara maliyyə məhsulları və xidmətləri təklif etməyə başladı. FinTex 3.0 dövründə sadəcə olaraq böyük maliyyə qurumlarının fəaliyyətindən bəhs edilmir, həmçinin bu dövr yeni startapların vasitəsilə maliyyə xidmətlərinin geniş miqyasda təklif edilməsinin realizəsindən bəhs edilir (Taştan S., Uralcan Ş., 2019).

İlkin olaraq tətbiq sahəsi əsasən yeni fəaliyyətə başlamış şirkətlər səviyyəsində olmuşdu. Zaman keçdikcə daha da təkmilləşdi və hal-hazırda maliyyə texnologiyalarının fəaliyyəti daha yaxşı maliyyə xidmətlərinin təklif edilməsi ilə nəticələndi. Bununla yanaşı, həmçinin banklar, investisiya şirkətləri, birjalar, sığorta şirkətləri kimi qurumları onların fəaliyyət effektivliyinin, məlumatların emalı sürətinin

(məlumatların real vaxtda yenilənməsi), məlumatın aktuallığının təmin edilməsi kimi məsələrdə rəqabətə davam gətirməkləri üçün modernləşməyə "məcbur etdi".

Maliyyə texnologiyaları müxtəlif inkişaf mərhələrindən keçdikdə, hər bir dövrdə müəyyən dəyişikliyə məruz qalaraq formalaşmışdır. Qlobal maliyyə texnologiyalarının növləri süni intelekt, kripto valyutalar, mobil ödəniş üsulları və mobil bankçılıq, rəqəmsal transformasiya, blokchain texnologiyası, bulud texnologiyaları və s. aid edilir.

Qlobal maliyyə texnologiyaların növlərinin ayrı-ayrılıqda müxtəlif xüsusiyyətləri olmasına baxmayaraq ümumilikdə qlobal maliyyə texnologiyalarının ümumi inkişaf xüsusiyyətlərini aşağıdakı şəkildə qeyd edə bilərik:

- Sistemləşdirilməmiş, pərakəndə məlumatların asanlıqla əldə olunması;
- Problemlərin həll olunmasında effektivlik xüsusiyyəti, istehlakçının maliyyə xidmətlərini əldə etməsinin nisbətən daha sərfəli həyata keçirilməsi;
- Daim yenilənən və dövrün tələblərinə xas xüsusiyyətləri özündə cəmləşdirən xidmətlərin təklif olunması və s. (Şenbayram E. A., 2019).

Beynəlxalq iqtisadi əlaqələrin müasir dövrdə əsas tələbi sürətli, innonativ, çevik üsul və vasitələrdən istifadə etməklə, iqtisadi münasibətlərin qurulmasının fasiləsizliyini təmin etməkdir. Düzdür, maliyyə texnologiyaları müasir dövrün tələblərinə cavab versə də, istifadə edilmə səviyyəsi və əhatə dairəsi olduqca geniş deyil. Qlobal maliyyə texnologiyalarından istifadənin "dar" çərçivədə olmasının səbəbi kimi, bu sektora olan inamın kifayət qədər olmaması, heç bir şəxs və ya dövlət tərəfindən tənzimlənməməsi, daha müasir və innonativ tətbiq sahəsi olduğundan istifadəçi sayının məhdud olması faktlarını göstərmək olar. Hal-hazırda qlobal maliyyə texnologiyalarından istifadənin dövlət tənzimlənməsi statusunu araşdırsaq, bu araşdırmanı məhz qlobal maliyyə texnologiyalarının bir növü olan kriptovalyuta timsalında etsək, alınmış nəticəni aşağıdakı cədvəldəki kimi qeyd etmək olar.

Cədvəldən də göründüyü kimi hələ də kriptovalyutalardan istifadənin dövlət tərəfindən "qəbul edilməsi" əsasən İEÖ-lər tərəfindən həyata keçirilmişdir. YSÖ-lərindən Taylandda 2016-cı ildən etibarən Tayland Bankı tərəfindən açıqlandı ki,qanuni

çərçivədə icazə verilir, lakin ehtiyatlı olmaq lazımdır. Qeyri-qanuni statusun hakim olduğu ölkələr əsasən innonativ yeniliyə açıq olmayan ölkələrdir. Məlum olmayan ölkələrdə isə, adətən istifadəyə yol verilir lakin, müəyyən məhdudiyyətlər mövcuddur. Nümunə üçün Çini qeyd edə bilərik. Belə ki, şirkət və ya şəxslərin Bitcoin alış və satışına hər hansı məhdudiyyət qoyulmayıb, lakin bank və bank kimi fəaliyyət göstərən qurumlar tərəfindən tətbiqə icazə verilmir.

**Cədvəl 4:Kriptovalyutanın ölkələr üzrə dövlət tənzimlənməsi statusu**

| Status | Ölkələr |
|---|---|
| Qanuni | ABŞ, Kanada, Finlandiya ,Yaponiya, Norveç, İsveç,İsveçrə, Hollandiya, Cənubi Koreya, Estoniya, Avstraliya, Tayland və s. |
| Qeyri-qanuni | Qırğızıstan, Özbəkistan, Banqladeş və s. |
| Məlum deyil | Almaniya, Çin, İsrail, Fransa, Danimarka , Rusiya, Türkiyə,Belçika və s. |

**Mənbə :** :https://blasea.org/bitcoin-ve-dijital-paranin-dunya-ulkelerine-gore-yasal-durumu/(09.02.2020) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Beynəlxalq miqyasda qlobal maliyyə texnologiyalarının stimulyatoru qismində əsasən ABŞ, İsveç, Böyük Britaniya, Almaiya, Asiya ölkələrindən Yaponiya, Cənubi Koreya və Çin çıxış edir. Fintek sahəsinin Startaplarının yaradıcıları əsasən qeyd edilən ölkələrin subyektləridir. “Tək buynuzlu at” adılandırılan startapların sayı hal-hazırda 67-ə çatıb (2019-cu il statistikasına əsasən). Hər bir startapın dəyəri 1 milyard dollardan artıqdır. Qeyd edilən 67 şirkətin ümumi dəyəri 244.6 milyard dollar olan şirkətlərin 57 -i ABŞ-da cəmlənmişdir. Ümumilikdə qlobal startap iqtisadiyyatı 2016-2018- ci illər dövründə 2.8 trlyn $ dəyər yaradıb. Bu göstərici 5 il bundan öncəki göstərici ilə müqayisədə 5 dəfə artım , son dövrə görə 20.6 % artım deməkdir. (https://fintech.global/, 2019).

Beynəlxalq iqtisadi əlaqələr sistemində qlobal maliyyə texnologiylarına nəzər salsaq, bu sektora yatırılan investisiyaların nəzərdən keçirilməsi labüd olar. Belə ki, bu sektora maraq 2009-cu ildən başlamış və adətən artım dinamikası çərçivəsində davam etmişdir. FinTex sektoruna edilən yatırımları aşağıdakı qrafikdən aydın görmək olar.

Qrafikdən də göründüyü kimi 2015-ci illədək artım dinamıkası davam etmişdir, növbəti 2 ildə nisbətən azalma müşahidə edilsə də, 2018-ci ildə bu sektora edilən

investiya pik səviyyəyə çatmışdır. 2019-cu ildə isə müəyyən qədər azalma müşahidə edilsə də, 2011-2019-cu il tarix aralığında özünün II ən yüksək səviyyəsi üzrə göstəricisinə nail olmuşdur. Qeyd edilən azalmaya səbəb yeni yaranmış- "toxum" və başlama səviyyəsində olan startaplara edilən yatırımların azalmadı olmuşdur. Belə ki, 2015-ci ildə bu tipli startaplara qoyulan investisiyanın həcmi 67 % olduğu halda, 2019-cu ildə bu göstərici azalaraq 59 % olmuşdur. Mütəxəssislərin fikrincə, bu azalma maliyyə sektorunun "doyma" həddinə çatması ilə birbaşa bağlıdır.

**Qrafik 7 : 2011-2019-cu illərdə FinTek sektoruna qoyulan investisiyalar (mlyn $)**




**Mənbə:** https://www.statista.com/(03.02.2020) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Aşağıdakı qrafikdə fəaliyyət sahələrinə görə FinTek startaplarının həcmi (%-lə) öz əksini tapmışdır. Qrafikdən də göründüyü kimi FinTek-in müasir dövrün ən innonativlik tələb edən sahələrdə tətbiq arealı olduqca genişdir. Ödənişlərin həyata keçirilməsi zamanı FinTek-dən istifadə digər maliyyə məhsulları və xidmətlərinin realizə edilməsi ilə müqayisədə olduqca sadədir. Fintek daha az xərclə sürətli müştəri cəlbetmə potensialına sahib olmaqla yeni ödəniş sisteminin tətbiq edilməsi baxımından olduqca çevik təşkilatdır. FinTek ödənişlərinin iş modeli iki fərqli bazarı özündə

cəmləşdirir. Birincisi gündəlik istehlak məhsullarının və digər məhsulların pərakəndə satışının edildiyi bazar, ikincisi isə topdansatış və korporativ ödənişlərin həyata keçirildiyi bazar olaraq fərqləndirilir.

**Qrafik 8 :Fəaliyyət sahələrinə görə FinTek startapların həcmi (%-lə)**




**Mənbə:** https://www.crunchbase.com/(04.02.2020) məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Müasir dövrdə pul köçürmələri və ticarətin böyük bir hissəsi internet vasitəsilə rəqəmsal mühitdə həyata keçirilir. Rəqəmsal mühitdən istifadə istifadəçiyə zaman, məkan baxımından üstünlük təmin etməklə, həmçinin daha sərfəli olması ilə diqqəti çəkir. Ticarət və maliyyə xidmətlərinin elektron mühitdə reallaşdırılmasının daha etibarlı və sürətli olması bu texnologiyaya olan tələbi daha da artırır.

Maliyyə texnologiyaları maliyyə sisteminin müasir transformasiyasında xüsusi rol oynayır, həm də maliyyə fəaliyyətinin yaxşılaşdırılmasına və gəlirliliyinin artırılmasına kömək edir. Lakin eyni zamanda qeyri-sabit və olduqca qeyri-müəyyən bir mühitlə nəticələnən maliyyə sisteminin arxitekturasını formalaşdırır. FinTek, bütün qlobal sistemin davamlılığını təhdid edir, çünki onun tətbiqi qurulmuş funksional əlaqələri passiv hala gətirir, yeni institutlar və qarşılıqlı asılılıqlar təhrif olunur və yeniləri yaradılır ki, bu da gözlənilməz sabitləşmə nəticələrinə səbəb olur. (Azarenkova G., 2018).

Maliyyə texnologiyalarının əsas xarakteristikası maliyyə sistemində yeniliklər yaratmaq qabiliyyətidir. Bu maliyyə yenilikləri əsasən nəzərdə tutur - mühasibat uçotunun inkişaf etdirilməsi, bank sisteminin və müasir ödəniş sistemlərinin yaradılması-təkmilləşdirilməsi, maliyyə və kredit alətlərinin daha sərfəli tətbiqi və s. Müasir maliyyə texnologiyaları (blockchain, kriptoqrafiya,  bulud texnologiyaları, süni intellekt və s.) - bunlar yalnız gəlirliliyi artırmaq üçün deyil, həm də maliyyə sistemini kökündən dəyişdirmək üçündür.

İnnovativ maliyyə texnologiyalarından istifadə mexanizmləri dəqiqləşdirilməli və müxtəlif ölkələrin tənzimləmə təcrübəsi birləşdirilməlidir. Maliyyə texnologiyasının maliyyə sisteminin transformasiyasına təsirini nəzərə alaraq, tənzimləyicilər bir tərəfdən innovativ texnologiyaların inkişafını stimullaşdırmaq üçün işlərini koordinasiya etməli, digər tərəfdən tətbiq risklərini azaltmaq üçün "qoruyucular" yaratmalıdırlar. Bu vəziyyətdə tənzimləyicilər və peşəkar "bazar oyunçuları" fəaliyyətlərini oyun qaydalarına uyğunlaşdırmaq üçün əlaqələndirməlidirlər. Yeni maliyyə texnologiyalarına institusional dəstəyin olmaması maliyyə sektorunun sabitləşməsinin əsas katalizatorudur.

Qlobal maliyyə texnologiyalarının beynəlxalq iqtisadi əlaqələrə təsir mexanizmini aşağıdakı altbaşlıqlarla qeyd edə bilərik:

- beynəlxalq sistemin mövcud "memarlığını" dəyişdirmək: quruluşu, BİƏ-in sisteminin əsas təşkilat və "aktyorları" arasındakı münasibətləri dəyişdirmək və yenidən qurmaq;
- ticarət, maliyyə, rabitə və s sahələr daxil olmaqla beynəlxalq sistemin işlədiyi proseslərin dəyişdirilməsi;
- yeni tətbiq sahələrinin tapılması, investisiya qoyuluşunun səmərəli olub-olmamasının araşdırılması;
- dövlətlərarası mübadilə həcmini artırmaq, bu istiqamətdə dövlət dəstəyinin gerçəkləşməsinə nail olmaq və s. (C.Weiss, 2015).

Beləliklə, artan qlobal qeyri-sabitlik şəraitində BİƏ sistemində yeni institusional sistem formalaşır, yeni qurumlar, funksional əlaqələr və qarşılıqlı asılılıqlar yaranır. Qlobal maliyyə sisteminin transformasiyasında əsas amillərdən biri maliyyə sənayesinin əməliyyat sürətini və gəlirliliyini artıran, yeni iştirakçılar üçün kapital bazarına açıq çıxışı təmin edən maliyyə texnologiyalarıdır. Bununla birlikdə, onların tətbiqi artan miqyasda mürəkkəblik və inkişafın proqnozlaşdırılmaması ilə nəticələnir. İnkişafın proqnozlaşdırılmamasının səbəbi mürəkkəb sistemlərin inkişafında xətti korrelyasiyaların mövcud olmasıdır ki, bu da proqnozlaşdırılan artıma nail olmanı çətinləşdirir. İnstitusionalizasiya və yeni maliyyə texnologiyalarının keyfiyyətlə tənzimlənməsi maliyyə sisteminin şəffaflığını təmin edəcək, maliyyə texnologiyalarına inamı artıracaq, bu da inkişafın gözlənilməzliyinin azaldılmasında əsas rol oynayacaqdır.

## 3.3. Beynəlxalq iqtisadi əlaqələr sistemində Azərbaycan

XX əsrin sonunda dünyada baş verən qlobal xarakterli proseslər, “soyuq müharibənin” başa çatması, SSSR hegemonluğunun süqutu siyasi mühitin ciddi şəkildə dəyişməsinə, yeni geosiyasi mühitin formalaşmasına şərait yaratdı. Postsovet məkanında yaranan yeni müstəqil dövlətlərin tədricən beynəlxalq münasibətlər sisteminə qoşulması, öz xarici siyasətini qurmağa başlaması dövlətlərarası münasibətlərin yeni formasının təşəkkül tapması ilə nəticələndi. Bu beynəlxalq aləmdə bir sıra proseslərin baş baş verməsi ilə nəticələndi. Belə ki, beynəlxalq aləmdə qlobal qarşıdurmanın qismən ortadan qalxması, siyasi gərginliyin nisbətən azalması ilə müşahidə olunsa da, bir sıra məhəlli mərkəzlərin meydana çıxması ilə nəticələndi. Məhəlli mərkəz dedikdə, iqtisadi, siyasi və hərbi baxımdan strateji əhəmiyyətli və mənafelərin kəsişdiyi məntəqələr nəzərdə tutulur. (Qələndərli N., 30.08.2019).

80-ci illərin sonu - 90-cı illərin əvvəllərində beynəlxalq iqtisadi münasibətlərdə baş verən dəyişikliklər artıq milli dövlətçilik prinsiplərinə uyğun yeni xarici siyasət

formalaşdırılması və reallaşdırılması məsələsini ən vacib məsələ kimi ön plana çıxardı. Azərbaycanın beynəlxalq əlaqələr sisteminə qoşulması, müstəqil xarici siyasət həyata keçirməsi 1991-ci ildə yenidən müstəqilliyini bərpa etdikdən sonra mümkün oldu.

Azərbaycanın ilk əməkdaşlıq münasibətləri qurulmasına nail olduğu BİT aşağıdakı ardıcıllıqla qeyd edilə bilər: (Əliyev S., Eminov A., Süleymanov E. və Ələsgərova F., 2016).

**Cədvəl 5: Müstəqillik əldə etdikdən dərhal sonra ilk əməkdaşlıq etdiyimiz beynəlxalq iqtisadi təşkilatlar**

| Tarix | Beynəlxalq iqtisadi təşkilatlar |
|---|---|
| **1991-ci il** | İslam Konfransı Təşkilatı (İKT) |
| **1992-ci il** | İqtisadi Əməkdaşlıq Təşkilatı (EKO) |
| **1992-ci il** | BVF və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankı |
| **1993-cü il** | Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QİƏT) |
| **1993-cü il** | Ümumdünya Ticarət Təşkilatı (keçmiş QATT) müşahidəçi statusunda |
| **1993-cü il** | Müstəqil Dövlətlər Birliyi (MDB) |
| **2001-ci il** | Avropa Şurası |

**Mənbə:** https://www.economy.gov.az/article/economic/21539 əsasında tərtib edilmişdir.

Xarici iqtisadi əlaqələrin düzgün istiqamətdə seçilməsi zərurəti siyasi istiqlaliyyətə nail olduqdan sonra ölkəmizin iqtisadi inkişafının əsas məsələlərindən birinə çevrilmişdi. Hazırda Azərbaycan dünyanın 84-dən çox ölkəsi ilə qarşılıqlı ticarət əlaqələrinə malikdir. Ölkənin mövcud iqtisadi potensialı, mineral və xammal ehtiyatlarla zənginliyi, əlverişli iqtisadi-coğrafi mövqeyi və təbii şəraiti əməkdaşlıq imkanlarını daha da artırır. Göstərilən faktlar son illər XİF sahəsində baş verən keyfiyyət və struktur dəyişikliklərinə əyani sübut, həmçinin Azərbaycanın beynəlxalq iqtisadi əlaqələrə sürətli inteqrasiyanın bariz nümunəsidir. (Abbasov C., 2016).

Azərbaycan öz xarici siyasətini həyata keçirərkən, beynəlxalq hüququn norma və prinsiplərini rəhbər tutaraq, bütün dövlətlərin suverenliyi və ərazi bütövlüyünə hörmət və başqa dövlətlərin daxili işlərinə müdaxilə edilməməsi prinsiplərini qoruyur. Azərbaycan Respublikasının xarici siyasəti milli maraqları qorumaq naminə dövlətçiliyin müntəzəm şəkildə inkişafını rəhbər tutaraq irəliləməyi nəzərdə tutmuşdur.

Azərbaycanın beynəlxalq əlaqələr sisteminə inteqrasiyası sürətli  artım dinamikası ilə baş vermişdir.

Hər bir dövlət xarici siyasəti reallaşdırmaq üçün uzunmüddətli operativ və strateji cari fəaliyyət proqramı hazırlayır. Uzunmüddətli dövrdə nəzərdə tutulan strateji fəaliyyət proqramı hər bir dövləti qüdrəti, gücü, resursları,dünya siyaətindəki rolundan asılı olaraq müxtəlif vəzifə və məqsədlər üzərində qurulur. Bunlardan ən başlıcası təbii ki, ölkə müstəqlliyinin qorunması, dünya iqtisadiyyatına sürətli inteqrasiya, BİƏ sistemində öz mövqeyinin bərqərar etməsi, ərazi bütövlüyü və suveren hüquq və azadlıqlarının təmin edilməsi, ölkə vətəndaşlarının firavan həyat tərzinin təmin edilməsi məqsədlərinin gerçəkləşdirilməsi və s bu kimi səbəblər üçün xarici aləmin imkanlarından istifadə edilməlidir.

Uzunmüddətli xarici siyasət strategiyası müəyyən edilərkən, konkret məkan, zaman və şəraitə uyğun olaraq dövlətin cari xarici siyasət proqramını tərtib etməsi, həyata keçiriləcək siyasətin, reallaşdırılacaq işlərin prioritetlərinin nəzərə alınması tələb olunur. Xarici siyasətin əsas proritetləri dövlətin uzunmüddətli dövrdə xarici fəaliyyətinin tərkib hissəsi olmaqla, qarşıya qoyulan vəzifələrin daha strukturlaşdırılmış, qruplaşdırılmış, dəqiqləşdirilmiş və mövcud məkan, zaman çərçivəsində daha çox önə çıxarılmış tərkib hissəsidir.

Bir sıra tədqiqatçıların fikrincə, ölkənin xarici siyasət prioritetləri dövlətin rəsmi və qeyri-rəsmi qurumlarının, ictimaiyyətin və vətəndaş cəmiyyətinin istək və tələblərinin sintezi nəticəsində formalaşan ümumi rəyə əsaslanır. Ümumi rəyin fəaliyyət proqramına çevrilərək, milli səviyyədə reallaşdırılmasının koordinasiyasını dövlət öz qurumları və fiziki və hüquqi şəxsləri vasitəsilə həyata keçirir. (Həsənov Ə., 2005).

Azərbaycanın müstəqil dövlət kimi inkişaf yolunda əmin addımlarla və inamla irəliləməsinin mümkünlüyü dövlətin milli maraqlara əsaslanan, praqmatik və çokvektorlu xarici siyasətin həyata keçirilməsi ilə bağlıdır. Seçilmiş strateji kursun reallaşdırılması respublikanın beynəlxalq mövqeyini daha da möhkəmlənməsinə şərait

yaradıb. Regional güc mərkəzi kimi tanına respublikamıız ikitərəfli münasibətlər çərçivəsində, həmçinin beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı və səmərəli əməkdaşlıq əlaqələrini uğurla davam etdirir. Azərbaycan hazırda Cənubi Qafqaz regionunda sülh və təhlükəsizliyin təmin olunması üçün ən perspektivli tərəfdaş, həmçinin dayaq nöqtəsi hesab edilir.

Azərbaycan region ölkələri ilə, Ermənistan istisna olmaqla, bütün qonşu ölkələrlə qarşılıqlı hörmət, faydalı və bərabər hüquqlu əməkdaşlıq prinsiplərinə söykənən münasibətlərin qqurulmasına nail olub. Bu amil bütövlükdə regionun tərəqqisinə, həmçinin bölgədə təhlükəsizlik və sülhün təmin olunmasında strateji əhəmiyyət daşıyır. Azərbaycan həmçinin qlobal xarakterli transmilli layihələrin təşəbbüskarı və həyata keçirilməsində lider mövqeye malik olmaqla, ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlıq formatlarının aparıcı fiqurudur.

Bütövlükdə, Azərbaycanın müasir dövrdə strateji tərəfdaşlıq əlaqələri getdikcə güclənir, tərəfdaşlarının sayı isə durmadan artır. Ümumiyyətlə, ekspertlər qeyd edirlər ki, Azərbaycan ilə əməkdaşlıq geoiqtisadi və geosiyasi perspektivlər baxımından olduqca əhəmiyyətli dividendlər vəd edir.

Heç təsadüfi deyil ki, hazırda ayrı-ayrı dövlətlər, həmçinin dünyaq iqtisadiyyatının hegemonu qismində çıxış edən ölkələr Azərbaycan BİƏ sistemində fəal rolunu, həyata keçirdiyi praqmatik xarici siyasət kursunu yüksək qiymətləndirir, respublikamızla əməkdaşlıq əlaqələrinin inkişafına böyük əhəmiyyət verilir.

Əlverişli coğrafi mövqedə yerləşməsinin yaratdığı alternativlərə əsaslanaraq, dövlətin iqtisadi diversifikasiya siyasətində Azərbaycanın tranzit potensialının reallaşdırılması mühüm yer tutur. Respublikamızın müasir dövrdə nəqliyyat infrastrukturunun dünya standartlarına uyğunlaşdırılması, mövcud tranzit potensialının artırılması ilə bağlı reallaşdırılan tədbirlər və qlobal əhəmiyyətli təşəbbüslər Azərbaycanın iqtisadi- sosial inkişafına əsaslı töhfə verməklə, yanaşı ölkəmizi mühüm nəqliyyat qovşağına çevirmişdir. Son illərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bununla əlaqədar

olaraq bu sahəyə külli miqdarda dövlət investisiyaları yönəldilib. Dəmir yolu xətlərinin və avtomobil yollarının, xüsusilə beynəlxalq standartlar əsasında Rusiya, İran və Gürcüstan istiqamətində ölkə ərazisindən keçən magistral yolların yenidən qurulması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının, Bakıda və digər regionlarda beynəlxalq hava limanlarının tikintisi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun dəyişməsində əhəmiyyətli rol oynamaqla yanaşı, həmçinin ölkəmizin tranzit potensialını daha da artırıb. Əlverişli geostrateji mövqeyə malik və nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən ölkəmizdə son illər nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində görülən işlər xüsusilə vurğulanmalıdır. Şərq-Qərb nəqliyyat dəhlizi Avropa ilə Çin arasındakı ən qısa marşrut olması ilə bərabər, tranzit və yükdaşıma baxımından daha səmərəlidir. Şərq-Qərb nəqliyyat dəhlizi-tranzit müddəti 15 gün olmaqla, orta hesabla 5,4 kilometr  uzunluğundadır. Bakı-Tbilisi-Qars dəmir yolunun (əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılır)  istifadəyə verilməsindən sonra nəqliyyat dəhlizi quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradıb. (http://files.preslib.az, 15.04.2020).

Azərbaycanda, Şərq-Qərb nəqliyyat dəhlizi ilə yanaşı alternativ dəhlizlərdən bir sıra üstünlüyü ilə seçilən Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı ilə bağlı da mühüm işlər görülmüşdür. Ölkəmiz tərəfindən bu nəqliyyat dəhlizinin önəmli həlqələrindən hesab edilən Astara çayı üzərində dəmir yolu körpüsünün tikintisi, həmçinin İran və Azərbaycan sərhədində nəzərdə tutulan inşaat işlər effektiv şəkildə icra edilib.

Bir məqama xüsusi diqqət yetirmək gərəkdir. Ölkəmizdə həyata keçirilən praqmatik və rasional siyasət nəticəsində artıq Azərbaycan miqyasına görə regional, lakin əhəmiyyət və xarakterinə görə qlobal miqyaslı transmilli layihələrin mərkəzi oyunçularından birinə çevrilib. Təsadüfi hal deyil ki, Azərbaycanın iştirakı olmadan regionda heç bir layihə reallaşdırıla bilməz. Əsas diqqət yetirilməli nüanslardan biri kimi qeyd edə bilərik ki, Azərbaycanın həyata keçirdiyi enerji siyasəti regionda enerji təhlükəsizliyinin möhkəmlənməsində, əməkdaşlığın daha da dərinləşməsində strateji

faktor kimi çıxış edir. Ölkəmiz tərəfindən həyata keçirilən balanslaşdırılmış və müstəqil enerji siyasəti region, həmçinin regionətrafı coğrafiyanın enerji təhlükəsizliyini təmin etməklə yanaşı, ölkəmizin dünya enerji bazarında aparıcı ixracatçı qismində çıxış etməsinə şərait yaradıb. Belə ki, ölkəmizin reallaşdırdığı praqmatik siyasəti ilə Xəzər hövzəsinin bayraqdarı hesab edilərək, sahibi olduğu enerji ehtiyatlarından səmərəli şəkildə istifadəsi nəticəsində beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində əsas aktor kimi çıxış edir. İnvestisiya qoyuluşunda baş verən dinamik artım, yeni əməkdaşlıq platformalarının yaradılması, karbohidrogen ehtiyatlarının, enerji resusrlarının əlverişli və təhlükəsiz nəqliyyat vasitəsilə daşınması çoxşaxəli əməkdaşlığın səmərəli nəticələrindəndir. Bununla da Azərbaycan Avrasiyanın enerji xəritəsinin zənginləşməsində müstəsna rol oynayır. Ölkəmiz enerji resurslarının ixracı zamanı çoxvariantlı nəqletmə sisteminin, yəni diversifikasiya edilmiş təchizatın tətbiq edilməsinə üstünlük verməsi səbəbindən, dünya ölkələri tərəfindən etibarlı tərəfdaş kimi qiymətləndirilir. Günümüzədək ölkəmizin liderliyi və fəal təşəbbülərinin sayəsində, Xəzər hövzəsinin Azərbaycan sektorundakı zəngin karbohidrogen resurslarının işlənməsi, həmçinin dünya ölkələrinə nəqli ilə bağlı həm regioanl, həm də qlobal xarakterli layihələr həyata keçirilib və şaxələndirilmiş infrastruktur qurulub. Məhz bu səbəbdən də Azərbaycan Avropanın etibarlı strateji tərəfdaşına çevrilib (Qələndərli N., 30.08.2019).

Yuxarıda qeyd olunan investisiya qoyuluşunda baş verən dinamik artım bir sıra səbəblərlə birbaşa bağlıdır. Belə ki, Azərbaycanın xarici investisiyaların gerçəkləşdirilməsi üçün əlverişli subyektlərdən birinə çevrilməsi hazırda ölkəmizdə mövcud olan siyasi və makroiqtisadi sabitlik, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi, investorların hüquqlarının etibarlı qorunması və s bu kimi faktorlarla birbaşa bağlıdır. Günümüzədək Azərbaycanın digər xarici dövlətləri ilə imzaladığı sazışlərin sayı 48-dən artıqdır. Bu sazişlərin imzalanması investorlara bir sıra hüquqlar verir. Bu hüquqlardan düzgün istifadə və tənzimlənməsinin gerçəkləşdirilməsi investisiya mühitinin daha da çiçəklənməsi ilə nəticələnir. Azərbaycanın müasir dövrdə

imzaladığı model sazişlər BMT Ticarət və İnkişaf Komissiyası ilə birlikdə tərtib edilib və müvafiq təkmilləşdirmələr aparılıb. Məhz bu kimi fəaliyyətin nəticəsidir ki, 110 milyard dollardan çox investisiya Azərbaycan iqtisadiyyatına cəlb edilib. Azərbaycan iqtisadiyyatına investisiya cəlb edən xarici ölkələr siyahısının ilk pillələrində ABŞ, Böyük Britaniya, Norveç, Türkiyə, Yaponiya kimi ölkələr qərarlaşıb. Bu siyahıdan fərqli olaraq qeyri-neft sektoruna ən çox investisiya cəlb edən ölkələrin ilk pillələrində isə Böyük Britaniya,Türkiyə, Niderland, ABŞ, və BƏƏ-ni qeyd etmək olar.

Maliyyə imkanlarının artması, davamlı iqtisadi inkişaf, özəl sektorun inkişafı Azərbaycanı həmçinin investisiya ixracatçısına çevirib. Artıq Azərbaycan Gürcüstan, Türkiyə, Rusiya, Yaponiya, ABŞ, Serbiya, Monteneqro, Çin, İsveçrə, Ukrayna və digər ölkələrə əhəmiyyətli dərəcədə investisiya yatırıb. Azərbaycan şirkətlərinin mövcud potensialı və peşəkarlığı yüksəlib, hal-hazırda özəl şirkətlərimiz Avropada mühüm infrastruktur layihələrinin həyata keçirilməsində fəal fəaliyyət göstərir. Bununla yanaşı, ABŞ, Yaxın Şərq və Asiya ölkələri ilə də əməkdaşlığımız daha geniş miqyasda reallaşdırılır və diqqət mərkəzində olan məsələlərdən biri də bu regionlarla iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsidir (Abbasov C., 2016).

Son 15-20 ildə Azərbaycanın iqtisadi potensialının daha da güclənməsi, həyata keçirilən diversifikasiya siyasəti, ETT-in nailiyyətlərinin istifadəsinə əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsalının reallaşdırılmasına nail olması, ölkəmizin xarici iqtisadi əlaqələrinin müsbət istiqamətdə irəliləməsinə təkan verib. Bununla da xarici iqtisadi əlaqələrin coğrafiyası genişlənərək, əmtəə baxımından ticarətin strukturu daha da təkmilləşib. Azərbaycanın beynəlxalq iqtisadi əlaqələr sisteminə sürətli inteqrasiyasını nəzərdə tutan tədbirlər planının başlıca istiqamətlərindən biri də ticarət fəaliyyətini tənzimləyən qanunvericiliyin daha da təkmilləşdirilməsi, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmasının reallaşdırılması idi. Məhz bu səbəbdən də təkmilləşdirilmiş Gömrük Məcəlləsi, "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında", "Gömrük tarifi haqqında" AR-ın qanunları və digər normativ hüquqi aktları qəbul edilib. Sonda BİƏ-in ən mühüm formalarında olan

beynəlxalq ticarət əlaqələrinin statistikasını qeyd etmək məqsədə uyğundur. Azərbaycanın 2019-cu il üzrə idxal-ixrac əməliyyatlarının dinamikasını aşağıdakı qrafiklərdən aydın şəkildə görə bilərik.

**Qrafik 9:İdxal-ixrac əməliyyatlarının aylıq dinamikası (mln $)**




**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Qrafik 10 : İdxal-ixrac əməliyyatlarının aylıq artım dinamikası (mln $)**




**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf əsasında müəllif tərəfindən hazırlanmışdır.

2019-cu il ixrac-idxal dinamikasından aydın görmək olar ki, il ərzində saldonun artım dinamikası fərqli olmuşdur. İl ərzində saldoda həm yüksəliş, həm də azalmalar

qeydə alınmışdır. Sevindirici haldır ki, Azərbaycanın ticarət strukturunda ixrac idxalı il ərzində üstələmişdir. Bu da Azərbaycanın idxal əvəzləmə strategiyasını uğurla reallaşdırmasından asılı olmuşdur.

Azərbaycanın ixracının artması "Made in Azerbaijan" brendinin yaradılması və bu layihənin dəstəklənməsi ilə də birbaşa bağlı olmuşdur. 3 ildir yaradılan "Azexport.az" portalı rəqabətqabiliyyətli və ixracyönümlü Azərbaycan istehsalı olan məhsulların xarici bazarlarda "Made in Azerbaijan" brendi adı altında tanınmasına dəstək verir, logistika, nəqliyyat, ödəniş və sertifikatlaşdırma sahəsində ixracatçı sahibkarlara dövlət dəstəyi verir. 2017-2019-cu illər ərzində 136-dan çox ölkədən 1 584,8 mlyn $ dəyərində sifariş daxil olub. 2018-ci ilə nisbətən 2019-cu ildə sifarişlərin ümumi həcmində 15.9 % artım qeydə alınmışdır. (http://iqtisadiislahat.org/, 2020).

3 il ərzində və 2019-cu il üzrə aylıq dəyişmə statistikasını aşağıdakı qrafiklərdən daha aydın görmək olar. 2017-2019- cu il statistikası davamlı artım göstərərək, dinamik artımın olduğunu təcəssüm etdirir. Bu da özlüyündə stimullaşdırıcı faktor olmaq, bu sahəyə diqqətin daha da artırılmasını diqqətə çatdırır.

**Qrafik 11:Portala daxil olan ixrac sifarişlərinin dəyəri (mlyn $)**




**Mənbə:** http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2019/12_Export-Review-2019.pdf əsasında müəllif tərəfindən hazırlanmışdır.

2019-cu il aylar üzrə statistikanın qrafik təsviri isə davamlı dinamik inkişafı özündə əks etdirmir belə ki, ilk ay yanvar ayında ilin pik səviyyəsində olsa da, növbəti

aylarda kəskin azalma müşahidə olunmuşdur. İlk minimum səviyyə mart ayında qeydə alınmışdır. Daha sonra aprel ayında artım müşahidə olunsa da, 2019-cu il üzrə minimum göstərici may ayında qeydə alınmışdır.  Lakin növbəti dövrlərdə bu göstərici demək olar ki stabil vəziyyətdə olaraq artımla yekunlaşmışdır.

**Qrafik 12:Portala aylar üzrə daxil olan ixrac sifarişlərinin dəyəri (mlyn $)**




**Mənbə:** http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2019/12_Export-Review-2019.pdf əsasında müəllif tərəfindən hazırlanmışdır.

**Qrafik 13: Portala daxil olan əsas ixrac sifarişlərinin ölkələr üzrə  bölgüsü (%-lə)**




**Mənbə:** http://iqtisadiislahat.org/store//media/documents/ixrac_icmali/2019/12_Export-Review-2019.pdf məlumatları əsasında müəllif tərəfindən hazılanmışdır.(12.04.2020).

Ölkələr üzrə sıralama ardıcıllığını isə yuxarıdakı diaqramda daha aydın görə bilərik. Diaqram da göründüyü kimi ilk pillələrdə Rusiya, Türkiyə və ABŞ yer almışdır.

“Made in Azerbaijan” brendinin mənfi xüsusiyyəti ixracda əsasən xam məhsulların üstünlük təşkil etməsidir. Belə ki, 2020-ci il fevral ayının ixrac mal nomenklaturasına nəzər salsaq, fındıq ləpəsi, tütün, xurma, toyuq əti, alma və s. üstünlük təşkil edir. Düzgündür, qeyd eilənlərlə yanaşı hazır məhsulların da ixracı həyata keçirilir. Bu məhsullara misal olaraq, pambıq yağı, mühərrik yağı, şərab, tikinti materialı və s. qeyd edə bilərik. Lakin buna baxmayaraq, mal nomenklaturasını daha da elm, yüksək tutumlu istehsal məhsulları ilə zənginləşdirməkdə fayda var. Bununla da belə nəticəyə gələ bilərik ki, “Made in Azerbaijan” brendinin təşviq edilməsinin Azərbaycanın beynəlxalq əlaqələr sisteminə inteqrasiya olunmasında xüsusi rolunun olması danılmaz faktdır.

Azərbaycanda həyata keçirilən, ixracı stimullaşdırılması istiqamətində atılan addımlardan biri də “Bir Pəncərə İxraca Dəstək” Mərkəzinin fəaliyyətidir. Bu mərkəz hüquqi və fiziki şəxslərə ixracla bağlı sertifikatların verilməsini gerçəkləşdirir. Bu mərkəzin xidmətlərindən nəinki "AzerGold" QSC, "AZNAR" QSC, “Agro Export Azerbaijan” MMC, "Gilan Tekstil Park" MMC, "Baku Steel Company" MMC kimi məşhur şirkətlərlə yanaşı, fiziki şəxslər də istifadə edirlər. 2020-ci ilə nəzər salsaq, cari ilin fevral ayında ixrac 13.8 mlyn $, fevral ayında isə 8.1 mlyn $ həcmində ixrac həyata keçirilmişdir. Bu göstəricilər 2018-ci il üzrə 150 mlyn $, 2019-cu ildə isə bu göstərici 140.40 mlyn $ həcmində olmuşdur.

İdxal-ixrac strukturunun daha da yaxşılaşdırılması məqsədilə həyata keçirilən tədbirlər sırasında “Yaşıl dəhliz” buraxılış sisteminin- “sərhəddə ticarət”-in daha da optimallaşdırılmasını qeyd edə bilərik. Bu sistemin təkmilləşdirilməsi ilə bir sıra imkanlar əldə ediləcəkdir. Həmin imkanları 5 altbaşlıda qeyd edə bilərik:

- əlverişli biznes mühitinin formalaşması;
- ölkənin ixrac potensialının daha da güclənməsi;
- fiziki gömrük rüsumlarının minimum həddə endirilməsinə nail olmaq;

- mövcud resurslardan daha optimal istifadənin təmini;
- məmur-sahibkar münasibətlərinin, dövlət tənzimləmə mexanizmlərinin effektivliyinin daha da artırılmasına nail olmaq.

İdxalın azaldılmasına və ixracın stimullaşdırılmasına nail olmaq üçün atılacaq digər bir addım kimi, kiçik investorların mənafelərinin qorunmasını qeyd edə bilərik. Kiçik investorların mənafelərinin qorunması üzrə "Doing Business-2020" hesabatına əsasən Azərbaycan 190 ölkə arasında 81.67 bal ilə II pillədə yer almışdır. (http://iqtisadiislahat.org/, 2020). Buna baxmayaraq, bu sahəyə daha da diqqətin artırılması məqsədə uyğundur.

İdxal-ixrac dinamikasında üstünlük təşkil edən ölkələrin qrafik təsvirdə aşağıdakı şəkildə qeyd edə bilərik. Qrafik təsvirdə əsas ticarət ttərəfdaşları olan öz əksini tapmışdır. Belə ki, Azərbaycanın 2019-cu ildə əsas ticarət partnyorları qismində İtaliya, Çin, Rusiya və Türkiyə yer almışdır.

**Qrafik 14: 2019-cu il üzrə ticarət dövriyyəsində, ixracda və idxalda əsas ölkələr (min $)**




**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. (08.04.2020)

2019-cu il üzrə ticarət dövriyyəsində, idxalda və ixracda əsas ölkələrin göstəricilərini faizlə xüsusi çəki əsasında aşağıdakı diaqramlardan aydın görə bilərik.

**Şəkil 12: 2019-cu il İdxal əməliyyatlarında əsas ölkələr (faizlə xüsusi çəkisi)**




**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf

**Şəkil 13:2019-cu il İxrac əməliyyatlarında əsas ölkələr (faizlə xüsusi çəkisi)**




**Mənbə:** https://customs.gov.az/modules/pdf/pdffolder/84/FILE_4A9D8C-5B4D1A-34831F-265C31-60B8D6-94CBDD.pdf

Diaqram və göstəricilərdən aydın görə bilərik ki, Azərbaycanın ticarət tərəfdaşları tərkibinə görə olduqca müxtəlif regionlara mənsub subyektlərdir. İxracda bu göstərici üzrə ilk üç pillədə İtaliya, Türkiyə və İsrail qərarlaşsa da, idxalda isə Rusiya, Türkiyə və Çin üçlüyü qərarlaşmışdır.

Tədqiqat işinin yekununda nəticə etibarı ilə qeyd edə bilərik ki, dünya iqtisadiyyatına sürətlə və uğurlu inteqrasiya edən, qlobal sülh və təhlükəsizliyə fundamental töhfələr verən ölkəmiz beynəlxalq iqtisadi əlaqələr sistemində praqmatik, müstəqil xarici siyasət kursuna malik, həmçinin qüdrətli və nüfuzlu dövlət kimi tanınır. Makroiqtisadi sabitliyin təmin edilməsi, dünya iqtisadiyyatına inteqrasiyanın sürətləndirilməsi, iqtisadiyyatın diversifikasiyasının stimullaşdırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, ikitərəfli və çoxtərəfli xarici iqtisadi əlaqələrin, həmçinin beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi Azərbaycanın daha da qüdrətlənməsinə, ölkəmizin dünyada nüfuzunun daha da artmasına şərait yaradacaqdır.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Dünya iqtisadiyyatı və beynəlxalq iqtisadi əlaqələrin inkişaf etmədiyi cəmiyyətin təsəvvür edilməsi təbii ki, qeyri-mümkündür. Tədqiqat zamanı bir çox məsələyə toxunulmuşdur. Belə ki, dissertasiya mövzusu geniş mövzu olmaqla, üç başlıq əsasında araşdırılmışdır. Məsələlərə bir-bir müəyyən ardıcıllıqla aşağıdakı şəkildə nəzər sala bilərik. Dünya iqtisadiyyatının yaranması, inkişaf qanunauyğunluqları, təsir mexanizmi kimi məsələlər araşdırılmış, izahlı, geniş şəkildə öz əksini tapmışdır. Bundan başqa dünya iqtisadiyyatında özünü biruzə verən ən başlıca xüsusiyyət olan qloballaşma prosesi ətraflı şəkildə şərh edilmişdir.

Dünya iqtisadiyyatının əsas subyektlərindən olan dünya ölkələri və beynəlxalq iqtisadi təşkilatlar geniş şəkildə tədqiq edilmişdir. Dünya ölkələrinin təsnifatı qeyd edilmiş, əsas xüsusiyyətləri şərh olunaraq öz əksini tapmışdır. İEOÖ və İEÖ-in iqtisadi səviyyələrindəki fərqlər və bu fərqin yaranmasına səbəb olan amillər öz əksini tapmışdır. Ölkələrin milli iqtisadi sistemləri ayrılıqda təhlil edilərək araşdırılmışdır.

Beynəlxalq iqtisadi təşkilatlar geniş şəkildə araşdırılmış, ayrı-ayrı qurumlar əsasında tədqiqat aparılmış və ümumi şəkildə iqtisadi-maliyyə təşkilatlarının reallaşdırmaq istədikləri ortaq məqsədlər şərh edilmişdir.

BİƏ-in mahiyyəti, yaranma zəruriliyi, təzahür xüsusiyyətləri geniş şəkildə şərh olunaraq tədqiq edilmişdir. Müasir dövrdə BİƏ-in rolunun dünya iqtisadiyyatında artmasına səbəb olan faktorlar tədqiq edilərək qeyd olunmuşdur. Tədqiqatın aparılması zamanı həmçinin beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsinin mümkün olub-olmaması, mümkün olduğu təqdirdə hansı vasitələrdən istifadənin daha səmərəli olması faktoru da araşdırılmış və bu məsələ ilə bağlı geniş şəkildə təhlil öz əksini tapmışdır. Aparılmış tədqiqat zamanı həmçinin beynəlxalq iqtisadi əlaqələrin müasir dövrdə əsas prioritet istiqamətlərini müəyyənləşdirən amillər qeyd edilmişdir.

Qlobal maliyyə texnologiyalarının beynəlxalq əlaqələr sistemində rolu araşdırılmış, növ və xüsusiyyətləri qeyd olunmuşdur. Bunlarla yanaşı, qlobal maliyyə texnologiyalarının beynəlxalq iqtisadi əlaqələrə təsir mexanizmi tədqiq edilmişdir.

Aparılmış tədqiqat nəticəsində alınan əsaslandırılmış arqumentlər və mülahizələr əsasında Azərbaycanla bağlı qısa şəkildə qeyd edə bilərik ki, dünya iqtisadiyyatına sürətlə və uğurlu inteqrasiya edən, qlobal sülh və təhlükəsizliyə fundamental töhfələr verən ölkəmiz beynəlxalq iqtisadi əlaqələr sistemində praqmatik, müstəqil xarici siyasət kursuna malik, həmçinin qüdrətli və nüfuzlu dövlət kimi tanınır.

Tədqiqat işinin yekununda ümumi şəkildə aşağıdakı təklif və tövsiyyələri qeyd edə bilərik:

- Dünya iqtisadiyyatının inkişafında İEOÖ-in iştirak payının, onlara iqtisadi və sosial sahədə dəstəyin göstərilməsinin artırılması, İEÖ ilə İEOÖ-in əməkdaşlığının daha da stimullaşdırılması və bu istiqamətdə beynəlxalq iqtisadi təşkilatlar tərəfindən proqram və layihələrin icrası ilə bağlı müəyyən tədbirlərin həyata keçirilməsi ;
- Beynəlxalq iqtisadi əlaqələr sistemində qlobal maliyyə texnologiyalarının istifadəsinin daha da stimullaşdırılması, innonativ yeniliklərin beynəlxalq əlaqələr sisteminə tətbiqinin reallaşdırılması məqsədilə proqram və tədbirlərin hazırlanması və həyata keçirilməsi;
- “Made in Azerbaijan” brendinin daha da təşviq edilməsi, ixrac sifarişlərinin həcminin və ticarət partnyorlarının sayının artırılması, Azərbaycanın dünyada tanınmasına şərait yaradılması istiqamətində yeni layihələrin işlənib-hazırlanması;
- “Made in Azerbaijan” brendi adı altında ixrac olunun malların nomenklaturasında dəyişiklik edilməsi, yəni xam məhsul ixrac payının azaldılması, əksinə elmtutumlu, yüksək texnologiyalı və rəqabətqabiliyyətli məhsulların istehsalının və ixracının stimullaşdırılması;
- Kiçik investorların maraqlarının qorunması, həmçinin investorların əsasən ixrac yönümlü məhsul istehsalına investisiya yatırımları etməsi istiqamətində təşviqedici tədbirlər planı və layihələrin hazırlanması və həyata keçirilməsi;

- “Yaşıl dəhliz” buraxılış sisteminin daha da təkmilləşdirilməsi, ticarət partnyorları ilə əlaqələrin intensivliyinin və innonativ yeniliklərin tətbiqinin reallaşdırılması;
- İdxalın əvəz edilməsi, ixrac yönümlü iqtisadiyyata nail olunması üçün qeyd edilən “Yaşıl dəhliz”, “Made in Azerbaijan”, kiçik investorların maraqlarının qorunması tədbirlərindən əlavə “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin fəaliyyətinin daha da təkmilləşdirilməsi və bununla da ixracatçı sahibkarlara dəstəyin, həmçinin Azərbaycanda qeyri-neft sektorunun ixrac payının artırılmasına nail olunması istiqamətində tədbirlərin həyata keçirilməsi;
- Cari xarici iqtisadi siyasətin həyata keçirilməsi zamanı ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyasına önəm verilməsi, mövcud ixtisaslaşma və kooperasiyalaşmadan çıxış edərək bu siyasətin yüksək texnoloji səviyyədə həyata keçirilməsi;
- Beynəlxalq ticarətdə ölkəmizin mənafelərinin qorunması, Azərbaycanın geoiqtisadi mühitdə resurs mənbəyi kimi çıxış etməməsi, xarici tərəf müqabilləri ilə eyni şərtlərlə ticarət əlaqələrinin qurulmasına nail olunması, beynəlxalq aləmdə Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi və imicinin daha da yüksəldilməsi məqsədilə yeni proqram və tədbirlərin həyata keçirilməsi.

# İSTIFADƏ EDİLMİŞ ƏDƏBİYYATLAR

## Azərbaycan dilində


1. Abbasov C.M., (2014) Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası yolları. Bakı, “Elm”, 266 s.
2. Ələkbərov Ə.H., Vəliyev M.Ə., Məmmədov S.M. və Ramazanov M.K. (2010), Beynəlxalq İqtisadi Təşkilatlar. Bakı, “Çaşıoğlu”-384 səh.
3. Əliyev A., Şəkərəliyev A., Dadaşov İ. (2003), Dünya iqtisadiyyatı: müasir dövrün problemləri. Bakı, “Bakı Universiteti” -455 səh. (http://anl.az/el/Kitab/2013/2003-1647.pdf)
4. Əliyev S., Eminov A., Süleymanov E. və Ələsgərova F. (2016). Beynəlxalq Maliyyə Təşkilatları və Azərbaycan. Bakı, “Zərdabi-Nəşr”-268 səh.
5. Gənciyev G.Ə., Həsənov N.Ə., Əliyev A.M. və Ələkbərov Ə.R. (2010), Beynəlxalq iqtisadi münasibətlər. Bakı-396 səh
6. Hacıyev Ş.H., Bayramov Ə.İ. (2010), Dünya iqtisadiyyatının tarixi. Bakı “İqtisad Universiteti”- 532 səh.
7. Hacızadə E. (2015), Ölkələrin iqtisadi inkişaf göstəriciləri və Azərbaycanın qlobal reytinqlərdəki mövqeyi. (http://etsim.az/upload/Image/2015-1/9)
8. Hacızadə E.M. (2006), Sosiallaşan iqtisadiyyat. Bakı,“Elm”-509 səh.
9. Hantinqton S. (2012), Sivilizasiyaların Toqquşması. Bakı, 396 səh.
10. Həsənov Ə. (2005). Müasir beynəlxalq münasibətlər və azərbaycanın xarici siyasəti. Bakı,”Azərbaycan nəşriyyatı”-631 səh.
11. Xasbulatov R.İ. (2015), Beynəlxalq iqtisadi münasibətlər. Bakı, “Zərdabi LTD MMC”-808 səh.
12. Kərimov C., Orucov A. və İsrafilov H. (2012), Beynəlxalq iqtisadi münasibətlərin tənzimlənməsi. Beynəlxalq iqtisadi təşkilatlar”. Bakı, “ADPU-nəşriyyatı”-387 səh.
13. Kərimov C. Orucov A., və İsrafilov H. (2007), Dünya iqtisadiyyatı. Bakı, “Nurlan nəşriyyatı”-728 səh. (http://anl.az/el/Kitab/2013/2003-1647.pdf)

14. Qələndərli N. (30.08.2019). “Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır”. Yeni Azərbaycan, səh-7.
15. Lomakin V.K. (2013), Dünya iqtisadiyyatı. Bakı, “İqtisad Universiteti Nəşriyyatı”-625 səh.

## İngilis dilində

1. Azarenkova G., Shkodina İ.,Samorodov B., Babenko M., Onishchenko İ. “The influence of financial technologies on the global financial system stability”, Investment Management and Financial Innovations, Vol 15, 2018, p.229-238.
2. Bresser-Pereira, L.C. “Luiz C. Five Models of Capitalism”, Brazilian Journal of Political Economy, Vol. 32, 2012, p.21-32.( https://www.scielo.br/scielo.php?pid=S0101-31572012000100002&script=sci_abstract)
3. Cammack, P.A., “What International Organizations Do, and Why They Do It”, Spectrum Journal of Global Studies, Vol. 7, 2015, p.62-77.
4. Charles Weiss : “How Do Science And Technology Affect International Affairs?” Minerva A Review of Science, Learning and Policy, Vol. 53,2015.
5. İMF., Policy Paper. (16.03.2020), “Eligibility to use the fund’s facilities for concessional financing, 2020”.İMF Washington,D.C.-P-49.
6. Kozak Y., Shengelia T. (2014), An Introduction to International Economic Relations. Tbilisi, “Universal”-p-224.
7. Kenen P.B. (2000). The International Economy. USA, “Cambridge University Press”-p-595.
8. Mukherjee S. “Revisiting the Debate over Import-substituting versus Export-led Industrialization”, Trade and Development Review, Vol.5, 2012, p 64-76.

## Türk dilində

1. Arı T. (2017), Uluslararası ilişkiler ve dış politika. Bursa, “Alfa Akademi Basım Yayım Dağıtım Ltd”-615 səh.
2. Arı T.(2006), Uluslararası ilişkiler Teorileri. İstanbul, “Alfa”-618 səh.

3. Başoğlu U., Ölmezoğlulları N. və Parasiz İ. (2001). Dünya Ekonomisi: Küreselleşme, Finansal Kurumlar ve Küresel Makro Ekonomi. Bursa, "Ezgi Kitabevi"-367 səh.
4. Arslan M. (2019), Uluslararası ekonomik kuruluşlar. İstanbul, 125 səh.
5. Demirdöğen Y. "Fintek Ekosistemi İçin Gerekli Düzenlemeler (Regtek)", Süleyman Demirel Üniversitesi Vizyoner Dergisi, Sayı 24, 2019 səh 311-321.
6. Karagül M. (2018), Dünya ekonomisi: Tehdit ve fırsatlarıyla. Ankara, "Nobel Akademik Yayıncılık" -244 səh.
7. Taştan S., və Uralcan G.Ş. "Küresel Finansal Teknoloji Sektöründe Ortaya Çıkan Yeni Girişimlerin Ekonomik ve Teknolojik Belirleyicileri", Haliç Üniversitesi Sosyal Bilimler Dergisi, Cilt 2/1, 2019, səh 41-69.
8. Tunalı Ç., "Uluslararası para fonu'nun kredilendirme mekanizması: düşük gelirli ülkelere yönelik bir inceleme", Maliye Araştırma Merkezi Konferansları, Seri 56., 2011, səh-70-93.
9. Şenbayram E. A., "Paranın geldiği uç nokta: Bitcoin", Econharran Harran Üniversitesi İİBF Dergisi, Cilt 3., Sayı 4, 2019, səh- 72-92.

**İnternet resursları**

1. https://www.ekodialog.com/
2. www.imf.org
3. https://ec.europa.eu/eurostat/statistics-explained
4. https://blasea.org/bitcoin-ve-dijital-paranin-dunya-ulkelerine-gore-yasal-durumu/
5. https://dergipark.org.tr.
6. http://iqtisadiislahat.org/
7. http://files.preslib.az/
8. https://www.statista.com/
9. https://www.crunchbase.com/
10. https://www.economy.gov.az/

11.https://www.un.org/en/
12.https://data.worldbank.org/
13.https://fintech.global/
14.http://statisticstimes.com/economy/countries-by-gdp.php
15.https://customs.gov.az/
16.http://hajizada.com/
17.https://yazbuz.com/entegrasyon/

## Cədvəllərin siyahısı

Cədvəl 1: 2015-2018-ci illər üzrə əsas ticarət ölkələrinin ixrac, idxal, saldo statistikası........................................................................................................44
Cədvəl 2: BVF-nin əsas məqsədləri.........................................................................55
Cədvəl 3.BVF-un güzəştli kredit imkanlarından istifadə edə bilən ölkələrin bəzilərinin siyahısı........................................................................................................................56
Cədvəl 4: Kriptovalyutanın ölkələr üzrə dövlət tənzimlənməsi statusu........................72
Cədvəl 5: Müstəqillik əldə etdikdən dərhal sonra ilk əməkdaşlıq etdiyimiz beynəlxalq iqtisadi təşkilatlar.......................................................................................................77

## Şəkillərin siyahısı

Şəkil 1: Sivilizasiyaların növləri..............................................................................19
Şəkil 2: Dünya iqtisadiyyatının formalaşması mərhələləri..........................................26
Şəkil 3: Dünya iqtisadi sistemin struktur elementləri..................................................30
Şəkil 4: İnkişaf etmiş ölkələrin xarakterik xüsusiyyətlər.............................................37
Şəkil 5: Milli iqtisadi sistem modelləri.......................................................................38
Şəkil 6: İnkişaf etməkdə olan ölkələrin xarakterik xüsusiyyətləri...............................40
Şəkil 7: Nominal ÜDM həcminə görə ölkələrin xəritədə təsviri (2019-cu il)...............47
Şəkil 8:İllik faiz dəyişikliyinə əsasən real ÜDM-də artımın xəritədə təsviri(2020-ci il) ........................................................................................................................................48
Şəkil 9: BMT sisteminin iqtisadi məsələlərlə məşğul olan qurumlarının təsnifatı.......53
Şəkil 10 :ÜDM həcminə faiz nisbətdə dövlətin xalis borc alma və borc vermə payı(2020)..........................................................................................................................57
Şəkil 11:Beynəlxalq iqtisadi əlaqələrin dövlətlərarası tənzimlənməsi.........................64
Şəkil 12: 2019-cu il İdxal əməliyyatlarında əsas ölkələr (%-lə xüsusi çəkisi)............88
Şəkil 13: 2019-cu il İxrac əməliyyatlarında əsas ölkələr (%-lə xüsusi çəkisi)............88

## Qrafiklərin siyahısı

Qrafik 1: 2019-cu il əsas ticarət ölkələri üçün ixrac payları (%-lə)...............................46

Qrafik 2: 2019-cu il əsas ticarət ölkələri üçün idxal payları (%-lə)............................46

Qrafik 3 : ÜDM həcminə görə ölkələrin qrafik təsviri (mlrd $)................................47

Qrafik 4: Real ÜDM artımı (illik faiz dəyişməsi).....................................................49

Qrafik 5: Fondun üzv ölkələrə ümumi qaynaqlardan və yoxsulluğun azaldılması və böyümə fondundan təqdim etdiyi ödənilməmiş kredit məbləğləri (min SDR)............57

Qrafik 6: İllər üzrə ÜDM həcminə faiz nisbətdə dövlətin xalis borc alma və borc vermə payının dəyişməsi(%-lə)..........................................................................................58

Qrafik 7: 2011-2019-cu illərdə FinTek sektoruna qoyulan investisiyalar (mlyn $).....73

Qrafik 8 :Fəaliyyət sahələrinə görə FinTek startapların həcmi (%-lə)........................74

Qrafik 9:İdxal-ixrac əməliyyatlarının aylıq dinamikası (min $)................................83

Qrafik 10: İdxal-ixrac əməliyyatlarının aylıq artım dinamikası (min $).....................83

Qrafik 11:Portala daxil olan ixrac sifarişlərinin dəyəri (mlyn $)................................84

Qrafik 12:Portala aylar üzrə daxil olan ixrac sifarişlərinin dəyəri (mlyn $)...............85

Qrafik 13: Portala daxil olan əsas ixrac sifarişlərinin ölkələr üzrə bölgüsü (%-lə)....85

Qrafik 14: 2019-cu il üzrə ticarət dövriyyəsində, ixracda və idxalda əsas ölkələr......87